www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 sentyabr 2016-cı il Cümə № 194 (6515) Qiyməti 60 qəpik

Xəbər

## Masallıda 17 yaşlı oğlan intihar etdi

yazısı səh.14-də

Gündəm

### Deputat nazirin Ankara səfəri ilə bağlı sensasion bilgilər verdi



**Zahid Oruc:** "Ramil Usubov Türkiyədən yeni dosye ilə dönə bilər"; "Bu səfər Azərbaycanın təhlükəsizliyi üçün çox əhəmiyyətlidir"

yazısı səh.9-da

### Azərbaycanda Turizm Şurası yaradılacaq

yazısı səh.2-də

### Sentyabra bağlanan sülh ümidləri - payız dönüşə, yoxsa döyüşə gətirəcək?

yazısı səh.11-də

### Vergi xəbərçiliyi- məqsəd büdcəni doldurmaqdırmı...

yazısı səh.4-də

### Erməni siyasətçilər və dövlət adamları bir - birini ən ağır ifadələrlə təhqir edir

yazısı səh.8-də

### Cahangir Hacıyevin zəngin həyatdan dəmir barmaqlıqlar arxasına qədər ömür yolu...

yazısı səh.10-da

### Qafqaz Universitetinə yeni təyin olunan rektor kimdir?

yazısı səh.2-də

### Hökumət bahalaşmanın qarşısını ala biləcəkmi?

yazısı səh.10-da

*Yeganə Hacıyeva:*

### "Azərbaycana qarşı sanksiya çağırışını Avropa Parlamenti etməyib"

yazısı səh.10-da

### Bakıda tanınmış həkimin gənc oğlu yatıb oyanmadı

yazısı səh.14-də

### Rusiyada Azərbaycan vətəndaşı rüşvətə görə həbs olundu

yazısı səh.14-də

## Vəkilindən həbsdəki MTN generalı haqda şok xəbərlər

# GENERAL ÇOVDAROVUN "XARİKİRİ"Sİ: YEMİR, YERİYƏ BİLMİR, DƏRMAN İÇMİR

**Vəkil Sadiq Rəsulov:** "Öləndən sonra kimin cavabdehlik və məsuliyyət daşıdığını özləri müəyyən edərlər"; Üç general Eldar Mahmudovun əleyhinə ifadə verib-onları sabiq nazirlə təcridxanada görüşdürmək mümkün olacaqmı?




yazısı səh.5-də

## Eynulla Fətullayevdən sensasion iddialar: 3 səfirlik Bakıda...

"Üç səfirlik Bakıda sabitliyi pozmağa hazırlaşır" iddiası qarşısında yalnız ABŞ səfirliyi danışdı; ekspertlər həyəcan təbili çalır

yazısı səh.3-də




### Rus tarixçi-alim erməni terrorizminin tarixini yazdı

yazısı səh.11-də



*Müzəffər Baxış:*

### "Dollar satışından imtina edən bank rəhbərləri həbs oluna bilər"

yazısı səh.4-də



### Elman Rüstəmovu kim və niyə susdurdu?

yazısı səh.6-da

# Azərbaycanda Turizm Şurası yaradılacaq

**Azərbaycanda Turizm Şurası yaradılacaq. APA -nın məlumatına görə, bu barədə Azərbaycan prezidenti İlham Əliyevin turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı sərəncamda deyilir.**

Turizm Şurasının əsas məqsədi Azərbaycanda turizm sahəsində mövcud vəziyyəti təhlil etməkdən, bu sahədə olan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsindən, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsindən ibarətdir. Şura öz fəaliyyətinə müstəqil ekspertləri və mütəxəssisləri cəlb edə bilər, habelə işçi qruplar yarada bilər.

# Qafqaz Universitetinə yeni rektor təyin olundu

**Bakı Ali Neft Məktəbinin (BANM) idarəçiliyinə verilmiş Qafqaz Universitetinə yeni rektor təyin olunub. APA-nın xəbərinə görə, bu vəzifəyə Azərbaycan Texniki Universitetinin rektoru, professor Havar Məmmədov təyin edilib.**

H.Məmmədov APA-ya faktı təsdiqləyərək bildirib ki, bu gün o, Qafqaz Universitetinin kollektivinə təqdim edilib.

Qeyd edək ki, Qafqaz Universitetinin təsisçisi Təhsil Nazirliyinə müraciət edərək, universitetin iyulun 20-də bağlanması haqqında qərar qəbul olunduğunu bildirib. Bundan sonra universitetin idarəçiliyi BANM-ə verilib.



# Azərbaycanlı zəvvarlar bu gün Həcc ziyarətinə yola düşəcək

**Azərbaycandan Həcc ziyarətini yerinə yetirmək üçün Səudiyyə Ərəbistanına gedəcək olan zəvvarlar sentyabrın 2-dən etibarən yola düşəcək. Bu barədə "Report"a Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) mətbuat xidmətinin rəhbəri Rəhimə Dadaşova məlumat verib.**

Zəvvarlar ziyarətə hər gün iki reys olmaqla təyyarə ilə gedəcəklər. Hər gün ziyarətə 350 zəvvar yola salınacaq.

Zəvvarların ilk qafiləsi sentyabrın 2-də saat 08:00-da, ikincisi isə axşam 18:30-da yola düşəcək.

Qalan zəvvarlar sentyabrın 3-ü və 4-ü tarixlərində eyni saatlarda ziyarətə yollanacaq.

Qeyd edək ki, bu il Azərbaycandan Həcc ziyarətinə 1050 nəfər zəvvar gedəcək.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# ""Şahdəniz" layihəsinə qarşı çıxan fərd 2-3 ay sonra Azərbaycandan həmişəlik getdi"

## Prezident İlham Əliyev "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak etdi

**"Şahdəniz" layihəsi imzalananda bəziləri buna etiraz edirdi. O zaman Heydər Əliyev müşavirə keçirdi, bizi də dəvət etdi. Xoşbəxt Yusifzadə, mən ARDNŞ-in vitse-prezidenti kimi o müşavirədə iştirak etdik. Heydər Əliyev hər birimizə söz verdi ki, doğrudanmı bu sazişi imzalamamalıyıq? Azərbaycan rəhbərliyində bir nəfər "Şahdəniz" layihəsi ilə bağlı müqavilənin imzalanmasına etiraz edirdi. O şəxs də çoxdan Azərbaycandan qaçıb gedib. O etirazın da səbəbi indi bəlli olur. Onun məqsədi Azərbaycana xeyir gətirmək yox, ziyan vurmaq idi".**




Bunu dünən Azərbaycan prezidenti İlham Əliyev Bakı Dərin Özüllər Zavodunda "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimindən sonra zavod kollektivi ilə görüşdə deyib.

**Prezidentin sözlərinə görə, həmin şəxs o vaxt "Şahdəniz" layihəsinin əleyhinə çox böyük kampaniya açıb:** "Milli Məclisdə bəzi öyrədilmiş deputatlar, hökumətdə bəziləri bunun əleyhinə çıxmağa başlamışdılar. Heydər Əliyev yaxşı bilirdi ki, "Şahdəniz" layihəsini mütləq imzalamalıyıq. Ancaq Heydər Əliyev məsələni müzakirə etmək üçün bizim hamımızı müşavirəyə dəvət etdi. ARDNŞ-in bütün rəhbərləri, hökumət üzvlərini və Milli Məclis rəhbərliyini dəvət etdi, dedi ki, buyurun, sizin iradınız nədir? "Şahdəniz" layihəsinin əleyhinə heç bir arqument ortaya qoyulmadı. Biz hamımız durub sözümüzü dedik ki, mütləq "Şahdəniz" layihəsi imzalanmalıdır. Çünki bu, Azərbaycan üçün həyati əhəmiyyət daşıyır. Həyat da bunu sübut etdi. O zaman müşavirədə təcrid olunmuş vəziyyətdə qalan fərd - belə də desəm, daha düzgün olar - çox məyus oldu və iclası tərk etdi. Bu müşavirədən 2-3 ay sonra Azərbaycandan da həmişəlik getdi. Yəni "Şahdəniz" layihəsinin ərsəyə gəlməsi o qədər də asan olmayıb. O şəxs bu layihənin Azərbaycana xeyir gətirəcəyini başa düşmürdümü? Başa düşürdü, sadəcə, istəmirdi ki, Azərbaycan inkişaf etsin. İstəyirdi ki, vəziyyət pisləşsin, sonra tutduğu vəzifədən də böyük vəzifə əldə etsin. Ancaq "Şahdəniz" layihəsi bu gün göz qabağındadır, 10 minlərlə Azərbaycan vətəndaşı işləyir, əsərlər yaradır. Azərbaycan dünya miqyasında daha da əhəmiyyətli ölkəyə çevrilir. Ölkəyə böyük həcmdə valyuta gəlib və gələcək".

**Prezident bildirib ki, "Şahdəniz-2" layihəsinin işə salınması nəticəsində əlavə 16 milyard kubmetr qaz ixrac ediləcək:** ""Şahdəniz" layihəsi olmasaydı, heç kim "Abşeron", "Ümid" yatağına sərmayə qoymazdı. Kim 3 min 500 km boru xətti çəkər, kim 45 milyard dollar sərmayə qoyardı? Əgər 1996-cı ildə Azərbaycanın düşmənlərinin, ölkəmizə, dövlətçiliyimizə xəyanət etmiş insanların mövqeləri üstünlük təşkil etsəydi, bunların heç bir olmayacaqdı". (femida.az)

Qeyd edək ki, "Şahdəniz" layihəsinə qarşı çıxan şəxs həmin dövrdə Milli Məclisin sədri olan Rəsul Quliyev olub.



# Bəzi dərmanların satışı qadağan edildi

**Dünəndən daha 2503 dərman vasitəsi təsdiq edilmiş qiymətlərlə satılır.**

Tarif (qiymət) Şurasının Katibliyindən virtualaz.org saytına bildiriblər ki, sentyabrın 1-dən təsdiq edilmiş qiymətlər qüvvəyə minib. Bununla da dərman vasitələrinin ticarət adı, təsiredici maddəsinin adı, dozası, farmasevtik forması, ticarət qablaşdırması, qablaşdırma miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, bütünlükdə qeydiyyatda olan 9850 dərman vasitəsi tənzimlənmiş qiymətlərlə satışdadır.

Qeyd edək ki, dünəndən qiymətləri təsdiq edilməyən dövlət qeydiyyatına alınmış dərman vasitələrinin satışı yalnız həmin dərmanların qiymətləri təsdiq olunduqdan sonra həyata keçirilə bilər.

Dərman vasitələrinin tənzimlənmiş qiymətləri Tarif (qiymət) Şurasının rəsmi internet saytında (www.tariff.gov.az) yerləşdirilib.




# "Azərbaycan Hava Yolları" ilk rəsmi spottinqi elan edir

**"Azərbaycan Hava Yolları" Azərbaycan mülki aviasiyası tarixində ilk dəfə Bakı Heydər Əliyev Beynəlxalq Hava Limanında rəsmi spottinq-tədbiri barədə elan edir. "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, rəsmi spottinq iyulun 1 və 2-də keçiriləcək. Fotoqraflara təyyarələrin uçuşu və enişi, yerüstü aerodrom xidmətlərinin işi, hava gəmilərinin yedəklənməsini və s. foto-yaddaşa almaq üçün unikal imkan yaradılacaq.**

Tədbir Baş Aviasiya Təhlükəsizliyi İdarəsinin (ATİ) əməkdaşlarının müşayiəti ilə keçiriləcək.

İştirak üçün ərizələr iyunun 23-dən 29-dək pr@azal.az ailto:pr@azal.az e-mail ünvanına qəbul edilir. Məktubun mövzu hissəsində "Spottinq üçün ərizə", mətndə isə - adı, soyadı və ata adı, əlaqə telefonu və hava limanının ərazisinə keçirilməsi planlaşdırılan foto avadanlığın siyahısını qeyd etmək lazımdır. Həmçinin fotoşəkillərinizin dərc ediləcəyi veb sayt və ya sosial şəbəkələrdə səhifələri (əgər varsa) göstərmək arzuolunandır .

Tədbirin keçirilmə tarixi:

X1 iyul, cümə - peşəkar fotoqraflar və bu kimi tədbirlərdə əvvəlcədən iştirak etmiş şəxslər üçün spottinq.

X2 iyul, şənbə - foto və aviasiya həvəskarları üçün spottinq.

İştirakçıların minimum yaş həddi - 18 yaş.

Diqqətinizə çatdırırıq ki, iştirakçıların hər qrupunda yerlərin sayı məhduddur, bu məqsədlə ərizəni maksimum operativ və yuxarıda sadaladığımız tələblərə uyğun göndərmək lazımdır. Spottinqdə iştirakın təsdiqi kimi "Azərbaycan Hava Yolları" QSC-nin əməkdaşları tərəfindən göndərilən cavab məktubu olacaq.

Daha ətraflı məlumat üçün "Azərbaycan Hava Yolları"-nın rəsmi Facebook səhifəsinə müraciət etmək olar: www.facebook.com/azalqsc

# Müsavatla Milli Şuranın mitinqləri birləşdirilə bilər

## Müsavat rəhbərliyi birgə mitinq tərəfdarı olduqlarını açıqladı

**Müsavat Partiyasının sentyabr ayında mitinq keçirmək barədə qərarını elan etməsindən iki gün sonra Milli Şura da mitinqlərə başlamaq haqda qərar qəbul edib. Qurum ilk mitinqin vaxtını da elan edib. AXCP sədri Əli Kərimli facebook səhifəsində məlumat verib ki, Milli Şuranın mitinqi 11 sentyabr saat 17:00-da "İnşaatçılar" metro stansiyası yaxınlığındakı "Məhsul" stadionunda keçiriləcək. Mitinq icra hakimiyyətilə razılaşdırılacaq.**

Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublu isə hər kəsi Müsavatın və Milli Şuranın mitinqlərinə dəvət edib. Eyni zamanda bu mitinqlərin birgə keçirilməsinin vacibliyini bəyan edib.

Müsavat Partiyasının təşkilat şöbəsinin müdiri, Divan üzvü Razim Əmiraslanlı bildirdi ki, mitinqlə bağlı partiyada müzakirələr çoxdan başlayıb, sonuncu Divan iclasında isə mitinqin sentyabr ayında keçirilməsi ilə bağlı qərar qəbul edilib. Mitinqin yeri ilə bağlı müzakirələrdən sonra qərar veriləcək: "Milli Şura və AXCP ilə birgə mitinq keçirilməsinə gəldikdə, təbii, Müsavat olaraq bunun tərəfdarıyıq. Hətta bir neçə dəfə buna cəhd olunub, amma təəssüf ki, adekvat cavab olmayıb. Yenə də biz onun tərəfdarıyıq ki, bütün demokratik qüvvələr birgə mitinq keçirsin. Əgər Milli Şura təyin etdiyi mitinqlə bağlı Müsavata rəsmi müraciət eləsə, yəqin ki, müzakirələrdən sonra bir qərar veriləcək".

**Müsavat başqanının müavini Elman Fəttah isə bildirib ki, prinsip etibarilə Müsavatın mitinqinin tarixləri məlumdur:** "Müsavat Partiyası 18 və 24 sentyabr tarixində mitinq keçirəcək. Bu tarixlərin ya birində, ya da hər ikisində kütləvi yürüşlər nəzərdə tutulur. Mümkün qədər daha çox siyasi təşkilatların qatılmasına çalışacağıq. İstənilən halda bu sadə bir hadisə olmadığına görə aksiya mütləq olacaq. Hansı formada olacağı ilə bağlı isə hələ ki məsləhətləşmələr gedir. Müzakirələrdən sonra Müsavat Partiyası yekun qərarını ictimaiyyətlə bölüşəcək".

**E.Fəttah qeyd edib ki, MŞ özü mitinq keçirmək fikrindədir. Müsavat da onların fikrinə hörmətlə yanaşır:** "Müsavat Partiyası ictimai-siyasi təşkilatlarla referenduma qarşı mübarizənin birgə və ümumiləşdirilmiş şəkildə aparılması üçün çalışır. Ancaq buna müsbət və mənfi cavab verən təşkilat və qurumlar var. Ona görə də hələlik müxalifətin bu mübarizəsini ümumiləşdirməyi, düşünülmüş şəkildə mübarizə aparmasına nail ola bilmirik. Təəssüflər olsun ki, mübarizə hələ dağınıq gedir"

❑ E.SEYİDAĞA

# Eynulla Fətullayevdən sensasion iddialar: 3 səfirlik Bakıda...

## “Üç səfirlik Bakıda sabitliyi pozmağa hazırlaşır” iddiası qarşısında yalnız ABŞ səfirliyi danışdı; ekspertlər həyəcan təbili çalır

**Sentyabrın 1-də haqqın.az və virtualaz.org saytlarında jurnalist Eynulla Fətullayevin imzası ilə “Üç səfirlik Bakıda sabitliyi pozmağa hazırlaşır” məqalə dərc edilib. Məqalə ciddi iddiaların müşayiəti ilə ölkəmizdəki Böyük Britaniya, Amerika və Fransa səfirlikləri barədə bir neçə məqamı özündə əks etdirir. Məqalə böyükdür, lakin onun Qərb səfirləri ilə bağlı iddia hissəsinin özəti belədir: “Avqustun 15-də saat 10.00-da .... Ümid Partiyasının ... emissarları Ənvər Ağazadə və Elmar Abbaszadə Fransa səfirliyinə baş çəkir.**



Avqustun 17-də ABŞ səfirliyi öz qapılarını radikal REAL təşkilatının fəallarına - Rəsul Cəfərova və Erkin Qədirliyə açır. Və onları səfirliyin hansısa sıravi əməkdaşı, hətta ştatlı diplomatı deyil, səfir Robert Sekuta özü qəbul edir!

Avqustun 18-də saat 16.50-də Xədicə İsmayıl Fransa səfirliyinə yollanır. O, saat 18.30-a qədər, demək olar ki, iki saat səfirlikdə olub və oradan birbaşa ADİSAD hüquq firmasının ofisinə yollanıb. Bu, məşhur vəkil Adil İsmayılovun ofisi ilə qonşuluqda yerləşir.

Avqustun 19-u 14.40-da Əli Kərimli özü Böyük Britaniya səfirliyinə yollanıb. Elə ora, ancaq üç gün sonra radikal REAL təşkilatından uşaqlar - Erkin Qədirli və Azər Qasımlı baş çəkiblər. Əziz qonaqları səfir Kerol Krofts özü qəbul edib!

Və budur, daha üç gün sonra, avqustun 23-də, saat 15.10-da Əli Kərimli müxalifətin dekorativ lideri Cəmil Həsənli ilə birlikdə ABŞ diplomatik missiyasının apartamentlərinə yollanır. Ertəsi gün Cəmil Həsənli yenidən Amerika səfirliyinə gedir, ancaq bu dəfə Əli Kərimlisiz.

Avqustun 25-də isə Britaniya səfirliyində 1992-ci ildən bəri bizə yaxşı tanış olan milli demokrat Arif Hacılının gülməli siluetinin peyda olur. O, britaniyalıların qəbuluna 10.25-də gəlir və 11.35-də oranı tərk edir. Təxminən bir saat sonra, 12.45-də britaniyalıların hüzuruna ... NİDA fəallarından biri Turqut Qəmbər gəlir. Və o, təxminən bir saata yaxın səfirlikdə məsləhətləşmələrdə iştirak edir.

Avqustun 25-də yenidən Arif Hacılını görürük - bu dəfə ABŞ səfiri Robert Sekutanın qonağı kimi.

Avqustun 30-da isə Əli Kərimlini Avropa İttifaqının səfiri Malena Mart qəbul edir..."





**E.Fətullayev bu görüşlərin təsadüfi olmadığını iddia edir. Müəllif bunun arxasında ciddi mətləblərin dayandığını yazır. “Nə baş verir axı?” deyə sual edən müəllif “özlərinin başlıca məqsədinin hökumətin devrilməsi və sabitliyin pozulması olduğunu gizlətməyən adamlarla son illərdə görünməmiş bu cür diplomatik təmaslar nə ilə əlaqəlidir?” deyə yazır:** “Ən maraqlısı odur ki, dünən, avqustun 31-də gözəgörünməyən müxalifət xaricdən Əli Kərimlinin dili ilə hakimiyyətlə mübarizənin yeni mərhələsinin başlandığını elan edib, ölkədəki vəziyyəti qarışdırmaq üçün mitinqlərə çağırıb. Bu çağırışa qədər isə qeribə şəkildə Qərb diplomatları həmin çağırışların müəllifləri və bütün səylərini dövlət quruluşunu, Azərbaycandakı idarəetmə formasını sarsıtmağa yönəldən koalisiya ilə intensiv görüşlər keçirir.

Mötəbər mənbələrdən daxil olan informasiyalara görə, yuxarıda adları çəkilən, hakimiyyətə qarşı yeni qəsd planına cəlb olunmuş müxalifət fəalları və dağıdıcı müxalifət liderləri həmin səfirliklərdən vəziyyəti qarışdırmaq üçün sanksiyasız mitinqlər və digər aksiyalar təşkil etmək üçün zəruri təlimatlar alıblar. Söhbət həm də legitim hakimiyyətlə mübarizənin maliyyə baxımından dəstəklənməsindən gedir.

Qeyri-leqallar və diplomatlar arasında sistemli, müntəzəm və birgə iş barədə razılaşma əldə olunub. Müxalifətçilərə ancaq ABŞ, Böyük Britaniya və Fransa səfirliklərindən daxil olacaq siyasi texnologiyalar və direktivlər əsasında hərəkət etmək barədə xəbərdarlıq ediblər.

Sual olunur, doğrudanmı, Türkiyədəki son hadisələr Qərb, xüsusən də Vaşinqton üçün müəyyən siyasi dərs olmadı? Heç kim bu hadisələrdən nəticə çıxarmadı? Axı Türkiyə hakimiyyəti, siyasi elita və bu ölkənin KİV-ləri, nəhayət, prezident Ərdoğan özü, demək olar ki, açıq mətnlə ABŞ və bəzi Qərb dairələrini həmin hərbi çevriliş cəhdinin təşkilində ittiham ediblər! Azərbaycanda olduğu kimi, Türkiyədə də elektoratın tam mütləq hissəsi qanuni seçilmiş prezidenti dəstəklədi və öz dövlətlərini xarici müdaxilədən qorumaq üçün tankların altına atıldı.

Yox, belə görünür ki, ABŞ heç dalbadal baş verən siyasi iflaslardan sonra da nəticə çıxarmır. Qiyamçıların iflasa uğramasından sonra Bayden günahlarını yumaq üçün Ankaraya gəldi. Bəs yeni siyasi oyuna cəlb olunmuş diplomatlara görə izahat vermək üçün Azərbaycana kim gələcək?"

Bütün hallarda ortada ciddi iddialar var. “Yeni Müsavat” bu iddialarla bağlı öncə adıçəkilən hər üç səfirlikdən mövqe öyrənməyə çalışıb.

**ABŞ səfirliyindən “Yeni Müsavat”ın sorğusuna cavab olaraq aşağıdakılar bildirilib:** “Diplomatik fəaliyyət göstərdiyi zaman ABŞ-ın Azərbaycandakı səfirliyinin əməkdaşları müntəzəm olaraq hökumət nümayəndələri və digər şəxslərlə görüşlər keçirir. Ölkədə olaylar cərəyan edən hər bir zaman siyasi, sosial və iqtisadi vəziyyəti daha yaxşı başa düşməyə çalışdığımız üçün sözügedən görüşlərin sayının artması normaldır”.

Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən bildirilib ki, rəsmi olaraq bu yazılanları şərh etmək səlahiyyətində deyillər. Amma bununla bağlı hər hansı mövqe açıqlanması qərarı verilsə, mediaya, ilk növbədə “Yeni Müsavat”a məlumat veriləcək.

**Politoloq Qabil Hüseynli bildirdi ki, Türkiyədəki məlum hərbi çevrilişə cəhdin iflasa uğramasından sonra Azərbaycanda belə bir hərəkətin təkrarlanması qeyri-real görünür. Onun fikrincə, müxalifətin sıralarında inteqrasiya aparmaq mümkün deyil:** “Müxalifətçilərin çoxu bir-biri ilə küsülüdür. Onların sıraları o qədər seyrəlib ki, onların başına 5-10 nəfəri toplaması mümkün deyil. İğtişaşı hazırlamaq, bunu planlaşdırmaq çətin prosesdir. Maliyyə vəsaitini nə qədər istəyirsən ötür. O maliyyə vəsaitindən kim istifadə edəcək? Əli Kərimlinin və onun partiyasının özəklərinin ofisi yox. İsa Qəmbərin mənsub olduğu partiya demək olar ki, dağılıb. Rayon təşkilatları iflic vəziyyətdədir. Belə bir ideya varsa, onu gerçəkləşdirmək istəyirlərsə, müxalifətin birliyinə nail olmalı idilər. Xədicə İsmayıl başına neçə adam toplaya bilər? 10 adam...”

**Q.Hüseynli hesab edir ki, Azərbaycanda hüquq-mühafizə orqanları olduqca ayıq-sayıq fəaliyyət göstərir. Onun sözlərinə görə, bu orqanlar hər zamankından daha yaxşı işləyirlər və baş verə biləcək təxribatı yerindəcə lokallaşdırmaq imkanlarına malikdir:** “Bunun öhdəsindən Daxili İşlər Nazirliyi və Dövlət Xüsusi Xidmət orqanları gələ bilər. Mənim zənnimcə, belə bir plan ola bilər. Amma bu plan Avropa Parlamentində müzakirə olunan plan, sanksiyalar şəklində özünü göstərə bilər. Sanksiyalar tətbiq ediləndən sonra əhalinin artan narazılığı hesabına siyasi müxalifətin sıralarında və əhalinin siyasi fəallığında bir canlanma başlana bilər. Bunun sayəsində bəlkə də bizim siyasi liderciklərimiz bir-biri ilə danışmağa başlayar. Mən müxalifətin vəziyyətini dəqiq bilən adam kimi deyə bilərəm ki, bu gün müxalifətin Azərbaycanda bir iğtişaş, gerginlik yaratmaq üçün minimal bir potensialı yoxdur, hətta inteqrasiyaya getsə də. Müxalifət qorxudulmuş və ürküdülmüş vəziyyətdədir. Nə qədər maliyyə yardımı olsa da, müxalifətin içərisində riskə gedəcək, yüksək pasionar enerjiyə malik şəxs və şəxsiyyətlər görmürəm”.

**Q.Hüseynli hesab edir ki, bunu qabaqlayıcı tədbir kimi yazıblarsa, düz ediblər:** “Belə sevdaya düşən Qərb dövlətləri ola bilər. Amma onların da belə bir şəraitdə bu riskə gedəcəklərini düşünmürəm. Müxalifət daxilində ciddi deqradasiya və parçalanma prosesi getdi. İndi müxalifət öz daxili problemlərinin öhdəsindən gələ biləcək qüdrətdə deyil. Müxalifətin içində parlaq istedadlar yox dərəcəsindədir. Cəmiyyətdə də müdhiş bir passivlik özünü göstərir. Hüquq-mühafizə orqanlarının indiki kimi güclü olduğu bir dönəmdə bu passivliyi aradan qaldırıb adamları oyatmaq, iğtişaş törətmək qeyri-mümkündür”.

**Bu mövzu ilə bağlı XİN-in mövqeyini almaq mümkün olmadı. Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin telefonlarına gün ərzində zəng çatmadı.**

❑ **Yeni Müsavat**

# Əsgər Akayevi kim devirdi?

## Qırğızıstanın eks-prezidenti 11 ildən sonra amerikalıları ittiham edir



Əsgər Akayev

**Qırğızıstanın sabiq prezidenti Əskər Akayev vəzifədən getməsində Amerikanı günahlandırıb. 2005-ci ildə “rəngli inqilab” nəticəsində devrilmiş Əskər Akayev ona qarşı çevrilişi Amerika planı adlandırıb.**

Strateq.az bildirir ki, Ə.Akayev Rusiya mətbuatına verdiyi müsahibəsində ABŞ tərəfinindən zorla devrildiyini bəyan edib. Sitat: “2001-ci ildə ABŞ məndən xahiş etdi ki, Əfqanıstandakı əməliyyatlar zamanı qoşunların ora çatdırılması üçün Manas hava limanından istifadəyə icazə verim. Mən qonşu ölkələrlə bu təklifi razılaşdırdıqdan sonra hava limanını ABŞ hərbçilərinin istifadəsinə verdim. Amerikalılar məni inandırdılar ki, Əfqanıstandakı əməliyyat altı ay çəkəcək və bundan sonra Manası tərk edəcəklər. Biz də buna inandıq. Biz indi başa düşdük ki, onlar həmişəlik gəliblər” - deyə keçmiş prezident bildirib.

Ə.Akayev amerikalıların Manas bazasından yalnız Əfqanstan münaqişəsi üçün deyil, eyni zamanda regional siyasi maraqlarının təmin olunması məqsədilə istifadə ediblər. İlk növbədə Çin və İranın adını çəkib. Akayev iddia edib ki, amerikalıların onu devirməsi qərarı “Avaks” kəşfiyyat təyyarəsinin Manas bazasına yerləşdirilməsinə razılıq vermədikdən sonra verilib. Çünki bu baş verərdisə amerikalılar regionu izləyə biləcəkdilər. Eks-prezident bildirib ki, ABŞ tərəfindən hazırlanan “rəngli inqilablar”ın əsas məqsədi bu superdövlətə tam sadiq olan quvvələri hakimiyyətə gətirmək olub.

Qeyd edək ki, dünyanın bir çox ölkəsində inqilablar və siyasi hakimiyyət dəyişiklikləri ABŞ-ın adı ilə hallanıb. Bunların ən səs-küylüləri sırasında 1953-cü ildə İranın baş naziri Məhəmməd Müsəddiqin devrilməsi var. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin bir neçə il əvvəl açıqladığı gizli sənədlərdən məlum olur ki, İran baş nazirinin devrilməsində ABŞ kəşfiyyatının “xidmətləri” olub.

Bundan başqa, Latın Amerikası ölkələrində bir çox səs-küylü çevriliş hadisələri ABŞ kəşfiyyatının adı ilə bağlanıb. Konkret olaraq Akayevin iddialarının nə qədər həqiqət olub-olmadığını demək çətin olsa da, postsovet respublikalarında 2003-cü ilin sonlarında ilk dəfə Gürcüstanda “Qızılgül”, ardınca Ukraynada “narıncı inqilab” hadisələri nəticəsində hakimiyyətə gələn qüvvələr qərbyönümlü, ABŞ-la müttəfiq olan siyasətçilər idi. Həm Gürcüstanda, həm də Ukraynada inqilabın baş tutmasında ABŞ və Avropa Birliyinin dəstəyi önəmli rol oynadı.

Məsələ burasındadır ki, dünyanın ən güclü və iddialı ölkəsi olaraq Amerikanın demək olar ki, bütün ölkələrdə bu və ya digər formada mövcudluğu, siyasi, iqtisadi maraqları var. Xüsusən də Amerika kəşfiyyatının təsirinin güclü olduğu ölkələrdə siyasi proseslərə təsir etməsi, hətta müxalif qüvvələri dəstəkləməsi, silahlandırması təcrübəsi də var. Əfqanıstanda, Suriyada bunun əyani nümunələri dünyanın gözü qarşısında olub.

Konkret olaraq Qırğızıstana gəldikdə, bu ölkədə baş verən inqilabi proseslərə Qərbin aktiv müdaxiləsi və ya necə deyərlər, iştirakı olmasa da, Orta Asiyanın bu ucqar və kiçik ölkəsində 90-cı illərdə Qərb donor təşkilatlarının dəstəyi ilə böyük bir QHT şəbəkəsi, söz azadlığı və demokratiya institutları yaradılmışdı. Məhz bu qüvvələrin aktivliyi ilə 2005-ci ildə ayaqlanan qırğızlar Oş şəhərində hökumətə qarşı kütləvi etiraz nümayişləri keçirdi, daha sonra isə etiazçılar paytaxt Bişkek şəhərinə yürüş edərək prezident Akayevin istefa verib postunu tərk etməsinə qədər mübarizə apardılar. Nəticədə Gürcüstan və Ukraynadan sonra ilk dəfə Orta Asiyada bir postsovet respublikasında “sovet yadigarı” hakimiyyət devrildi və onu yeni qüvvələr əvəz etdi. Ancaq Akayevin devrilməsi ilə hakimiyyətə yiyələnən Kurmanbek Bakiyev də Qırğızıstanda demokratik islahatlar aparmadı, əksinə, hakimiyyətini avtoritar üsullarla möhkəmləndirməyə çalışdı. Nəticədə 2010-cu ildə yenidən ayaqlanan qırğızlar Bakiyevi devirərək ikinci inqilab etdilər. Hazırda Qırğızıstan postsovet respublikaları içərisində ən demokratik ölkələrdən biridir. Ölkədə hakimiyyətin ötürülməsi nümaunəsi var, seçkili orqanlarda təmsilçilik demokratiya standartlarına cavab verir. Bu isə Qirğızıstanda formalaşmış demokratik institutların sayəsində mümkün olub. Əlbəttə, Akayevin ənənəvi postsovet liderləri kimi Amerika və Rusiya arasında “var-gəl” eləməsi nə zamansa amerikalıları narazı sala, qəzəbləndirə bilərdi, lakin digər ölkələrdəki təcrübə göstərdi ki, inqilabları xalqlar və onu irəli aparan formalaşmış liderlər və siyasi təşkilatlar həyata keçirir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 194 (6515) 2 sentyabr 2016

# Dollar satışından imtina edən bank rəhbərləri həbs oluna bilər

**Müzəffər Baxış:** "Nə Mərkəzi Bankın, nə də digər bir orqanın, bankların səlahiyyəti yoxdur ki, belə bir limit tətbiq eləsin"




**Son bir ayda ölkənin valyuta bazarında yaranan dollar qıtlığı artıq daha ciddi problemə çevrilib. Bankların əksəriyyəti dollar satmaqdan imtina edib. Bəzi banklarda isə bir müştəriyə satılan dolların həcminə kəskin məhdudiyyət qoyulub, bir nəfərə 100 dollardan artıq satılmır. Vətəndaşlar məcbur qalaraq daha çox dollar ala bilmək üçün digər ailə üzvlərini, dost-tanışlarını gətirib bankların qarşısında növbə gözləməli olurlar.**

Halbuki Mərkəzi Bank tərəfindən banklara dollar satışının dayandırılması ilə bağlı heç bir tapşırıq verilməyib. Məlumatlara görə, banklar rəsmi şəkildə satmaqdan imtina etdikləri dollarları gizli şəkildə "qara bazar"a çıxarır və daha baha qiymətə satırlar.

Dollar satışına qoyulan məhdudiyyət isə xaricə getmək istəyən vətəndaşları, ticarətlə məşğul olanları, ən əsas da biznesi çətin vəziyyətə salıb. Hətta "Yeni Müsavat"a daxil olan məlumata görə, xəstəsini xarici ölkələrə əməliyyat üçün aparan şəxslər belə dollara ala bilmədiyi üçün günlərdir ölkədən çıxa bilmirlər.

Bəs görəsən, bankların fəaliyyətini tənzimləyən qanunverici aktlarda xarici valyuta satışı ilə bağlı məsələ necə əksini tapıb? Vətəndaşın ona dollar satmayan bankı məhkəməyə vermək hüququ varmı? İndiki iqtisadi situasiyada vətəndaşlar bankları məhkəməyə verə bilərmi?

"Yeni Müsavat"ın suallarını cavablandıran **hüquqşünas Müzəffər Baxış** bildirdi ki, Milli Məclisdən başqa heç bir qurum banklarda valyuta satışının məhdudlaşdırılması haqqına qayda müəyyən edə bilməz: "Banklar indiki vəziyyətdən sui-istifadə edirlər. Məndə bu barədə geniş məlumatlar var. Bu və ya digər dərəcədə dollar satışına məhdudiyyət, 100-200 dollar həcmində limit qoymaqla satış həyata keçirirlər. Lakin bu qanunsuzdur. Nə Mərkəzi Bankın, nə də digər bir orqanın, bankların səlahiyyəti yoxdur ki, belə bir limit tətbiq eləsin. Belə bir qaydanı yalnız Azərbaycan Respublikasının Milli Məclisi xüsusi qanunla müəyyən edə bilər. Bu şəkildə ki, banklarda fiziki və ya hüquqi şəkildə, məsələn, 300 dollardan artıq valyuta satmaq olmaz. Bu məsələ yalnız qanunla müəyyən edilə bilər. Bu, nə Mərkəzi Bankın nə Maliyyə Bazarlarına Nəzarət Palatasının təlimatıdır, nə prezident, nə də Nazirlər Kabineti belə bir qaydanı müəyyən edə bilməz. İndiki halda bu vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı olan məsələdir. Bu məsələ ilə bağlı qaydaları Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin birinci bəndinə görə, yalnız Milli Məclis müəyyən edə bilər. Bu, məsələnin hüquqi tərəfidir".

**Hüquqşünas bankların bu əməlinin cinayət əməli olduğunu və Cinayət Məcəlləsinə görə məsuliyyət daşıdığını vurğuladı:** "Digər tərəfdən əgər araşdırmalar zamanı müəyyən olunsa ki, bankın kifayət qədər valyutası var, lakin onları gizlədir, valyuta satışı həyata keçirmir, bankın bu göstəriş verən vəzifəli şəxsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci və 309.1-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib cəzalandırılmalıdır. Çünki onlar o göstərişi verməklə vəzifələrindən sui-istifadə edirlər və bunun nəticəsində vətəndaşların mənafeyinə böyük ziyan vururlar. Məsələn, belə bir kazus götürək ki, bir şəxs xaricdə ali təhsil müəssisəsinə daxil olub, ora 2000 ABŞ dolları köçürməlidir. Bu gün mütləq həmin pulu köçürməlidir. Əgər bu gün köçürməsə, həmin təhsil müəssisəsində oxumaq haqqını itirir. Bankların vəzifəsindən sui-istifadə etməklə dollar satmaması nəticəsində bu gün həmin şəxs xaricdəki ali təhsil müəssisəsinə pul köçürə bilmirsə, orada təhsil almaq haqqını itirirsə, onun mənafeyinə ciddi ziyan dəyirsə, bu, sırf bankların məsuliyyətidir. Ancaq təəssüflər olsun ki, Azərbaycanda normal hüquq-mühafizə fəaliyyəti olmadığına, bu orqanlar yalnız siyasi sifarişlərlə fəaliyyət göstərdiyinə görə, belə cinayət törədən şəxslər vaxtında aşkarlanıb cinayət məsuliyyətinə cəlb edilmir".

❑ **Nərgiz LİFTİYEVA**

# Vergi xəbərçiliyi - məqsəd büdcəni doldurmaqdırmı...

## Ekspertlər məsələyə fərqli yanaşırlar, yeni xidmətin meydana çıxma səbəbləri sadalanır...

**Ölkədə vergi pozuntularının qarşısını almaq üçün ictimai məlumatlandırma sistemi tətbiq olunacaq. Bu, dövlət başçısı İlham Əliyevin təsdiqlədiyi "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"ndə nəzərdə tutulub. Sərəncamda bildirilir ki, ölkədə vergidən yayınma hallarının qarşısını almaq məqsədilə beynəlxalq təcrübədə geniş tətbiq olunan ictimai məlumatlandırma ("Whistleblow") mexanizmi hazırlanacaq. Adıçəkilən mexanizmin dünyanın müxtəlif ölkələrində tətbiq edildiyi bildirilir.**

Fins.az-ın məlumatına görə, "Whistleblow" (fit verən) pozuntular barədə dövlət qurumlarına və ya ictimaiyyətə məlumat verməyə deyilir. "Whistleblower" isə pozuntu barədə məlumat verən şəxs deməkdir. Bu şəxslər həm də "İnformator" adlanırlar. Bu üsul pozuntuların aşkar edilməsi, o cümlədən vergidən yayınmanın qarşısını almaq üçün ən effektiv mexanizmlərdən sayılır. Bir qayda olaraq belə şəxslər pozuntunun baş verdiyi təşkilatlarda çalışanlar və ya həmin təşkilatlar barədə məlumatı olanlardır. "Whistleblow" mexanizmi bəzi ölkələrdə, o cümlədən ABŞ-da da tətbiq olunur. Burada informatorlar nəinki hökumətə pozuntular barədə məlumat verir, onlar hətta müxtəlif təşkilatlar tərəfindən vəsaitlərin məqsədsiz və səmərəsiz xərclənməsinə görə məhkəmədə onlara qarşı iddia da qaldıra bilərlər. Belə hallarda pozuntuya yol verən şəxsdən alınan vəsaitin bir hissəsi mükafat kimi informatora çatır. Ekspertlərin fikrincə, bir çox hallarda şirkətdə baş verən qanunsuzluqları aşkara çıxaran adamlar şirkətə xəyanət etmiş hesab edilirlər. Şirkət rəhbərləri belə adamları "xain", "xəbərçi" və ya "problem çıxaran" adlandırırlar. Beynəlxalq təcrübədə isə tam əksinə, o adam cəmiyyətdə "nümunəvi vətəndaş" kimi qəbul olunur. Lakin belə adamların başqa şirkətlərdə yenidən iş tapması çox çətin olur. Buna görə yaradılacaq mexanizmlə işsiz qalacaq belə "xainlərin" sosial təminatı da həll olunmalıdır.

Ekspertlərin fikrincə, beynəlxalq təcrübədə bu mexanizm vergi xəbərçiliyi, vergidən yayınma haqqında məlumatın verilməsi ilə yanaşı, vergidən yayınmış və sonradan özü aşkar edib, məlumat verən şəxslərə cərimənin tətbiq edilməməsi kimi də tətbiq olunur. Bəzi ekspertlər bu mexanizmin tətbiqini beynəlxalq praktikada tətbiq edilən bir təcrübənin ölkənin vergi sistemində istifadə edilməsi kimi qiymətləndirirlər. Bəzi ekspertlər isə qeyd ediblər ki, yeni xidmətin tətbiqi büdcənin doldurulmasında yaranan problemlərlə bağlıdır.

Qeyd edək ki, iki gün əvvəl Vergilər Nazirliyi vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin şöbə müdiri Fərid Nəbili nazirliyin vergidən yayınanlar barədə



yeni mexanizmə keçdiyini açıqlayıb. Onun sözlərinə görə, vergidən yayınanlar barədə Vergilər Nazirliyinə xəbər verən şəxslər mükafatlandırılacaqlar. Bu, nazirliyin yeni həyata keçirməyə hazırlaşdığı ictimai məlumatlandırma adlanan mexanizmin tətbiqi ilə reallaşacaq. F.Nəbili bildirib ki, vergidən yayınma hallarına görə xəbər verən şəxslərin mükafatlandırılması onların verdiyi xəbərin önəmindən asılı olacaq. Nazirliyin şöbə müdiri bildirib ki, mükafatın məbləği kifayət qədər yüksək olacaq. Məlumatların nazirliyə çatdırılmasında ənənəvi və yeni olmaqla, bütün əlaqə formalarından istifadə ediləcək. Vergi ilə bağlı müraciət edən şəxslərin müraciətinə 30-60 gün ərzində baxılması planlaşdırılır. Nazirlik rəsmisinin sözlərinə görə, qısa zamanda mexanizmin təfərrüatları dəqiqləşdirildikdən sonra onun tətbiqinə başlanacaq.

**Ekspert Vüqar Bayramov isə musavat.com-a açıqlamasında bildirib ki, bu cür praktika beynəlxalq təcrübədə var:** "Bununla büdcəyə böyük vəsaitin daxil olacağını gözləmirəm. Düşünürəm ki, bu praktikanın tətbiq edilməsi heç də büdcənin dolmaması ilə bağlı deyil. Dünya praktikasında bundan istifadə olunur. Avqustun əvvəlində vergi sisteminin təkmilləşdirilməsi barədə verilən sərəncamda bu praktikanın tətbiq edilməsi nəzərdə tutulub. Üç ay ərzində Vergilər Nazirliyinə vaxt verilmişdi. Həmin vaxt ərzində digər bir neçə beynəlxalq praktikada tətbiq edilən təcrübənin Azərbaycanda istifadə edilməsinə başlanacaq. Bu, beynəlxalq vergi sisteminə tətbiqinin nəzərdə tutulması deməkdir".

**Ekspert Elşad Məmmədov isə musavat.com-a açıqlamasında qeyd edib ki, yeni qaydaların tətbiqi daha çox büdcənin icrası ilə bağlı yaranmış problemlərlə izah oluna bilər:** "Son dövrdə büdcənin formalaşmasında iqtisadi böhranla əlaqədar olaraq sistemli problemlər əmələ gəlib. Lakin hesab etmirəm ki, bu yolla büdcənin doldurulması mümkün olacaq. Yəni bu qaydanın effektiv olacağına inanmıram. Hesab etmirəm ki, bunun dayanıqlı, müsbət və uzunmüddətli nəticələri olacaq. Daha yaxşı olardı ki, hökumətin iqtisadi bloku ölkədə həm vergi yığımı baxımından, həm investisiya mühitinin formalaşması baxımından münbit şərait yaradardı və vergi ödəyiciləri vergilərdən yanınmağa səbəb tapmazdılar. Bilirik ki, son dövrdə ölkə iqtisadiyyatının əsas problemləri iqtisadi struktur disbalansla bağlıdır. Yəni bu, fundamental əsaslar formalaşdırılarkən ölkədə 90-cı illərdən başlayaraq ciddi struktur, iqtisadi problemlər mövcud olub. Problem vergilərin yığımı ilə izah olunmamalıdır, daha köklüdür, daha əsaslıdır və ölkə iqtisadiyyatının birbaşa xammal ixracından kəskin şəkildə asılıdır. Ona görə hesab edirəm ki, iqtisadi blok daha çox fundamental iqtisadi problemlərlə məşğul olmalıdır. İqtisadiyyatın diversifikasiyası, real sektorun inkişafı, ölkədə istehsal prosesinin formalaşdırılması, milli istehsalın iqtisadiyyatın bütün mərhələlərində dayanıqlı şəkildə qurulması kimi iqtisadiyyat üçün aktual məsələlər var. Bunun əvəzində biz görürük ki, Vergilər Nazirliyi iri ticarət müəssisələrində yoxlamaların sayını artırmaqla, iri ticarət şəbəkələrinə qarşı vergilərin sərtləşdirilməsi, yaxud digər texniki və hüquqi şəxslərin vergiyə cəlb olunmasının artırılması ilə büdcənin doldurulması məsələlərinin həllinə nail olmağa çalışır. İqtisadi böhran şəraitində daha çox iqtisadi subyektlərin sıxışdırılması, vergi inzibatçılığının artırılması müşahidə olunur. Hesab etmirəm ki, vergi inzibatçılığının sərtləşdirilməsi indiki halda hansısa bir strateji müsbət effekt verə bilər. Bu hallar işgüzar fəallığın artırılmasına mane olacaq. Ona görə düşünürəm ki, bu son addımlar ola bilər taktiki baxımdan qısamüddətli dövrdə hansısa vergi yığımı göstəricilərinə təsir etsin. Ancaq uzunmüddətli perspektivdə ölkədə işgüzar fəallığın, real sektorun, milli istehsalın formalaşdırılmasına nail olmadan hansısa bir uzunmüddətli dayanıqlı iqtisadi artıma nail olmaq mümkün olmayacaq. Ona görə hökumətin iqtisadi bloku sistemli tədbirlərlə ölkədə milli iqtisadiyyatın, istehsal prosesinin formalaşdırılmasına nail olmalıdır. İnzibati addımlara gəldikdə isə Vergilər Nazirliyi aparatının çox geniş struktura malik olması əsas verməli idi ki, özü bu funksiyaları həyata keçirsin. Vergi inzibatçılığı ilə bağlı birbaşa dövlət qarşısında olan öhdəliklərini yerinə yetirsin. Vətəndaşları bu prosesə cəlb etmək məqsədəuyğun deyil. Vergilər Nazirliyi qarşısında dövlət tərəfindən qoyulan məqsədlərlə də uyğunlaşmır".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 194 (6515) 2 sentyabr 2016

# Vəkilindən həbsdəki MTN generalı haqda şok xəbərlər




# General Çovdarovun "xarikiri"sı: yemir, yeriyə bilmir, dərman içmir

**Vəkil Sadiq Rəsulov:** "Öləndən sonra kimin cavabdehlik və məsuliyyət daşıdığını özləri müəyyən edərlər"; Üç general Eldar Mahmudovun əleyhinə ifadə verib-onları sabiq nazirləri ilə təcridxanada görüşdürmək mümkün olacaqmı?

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general Akif Çovdarov ölə bilər. Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi rəsmilərinin generalın səhhəti ilə bağlı açıqlamalarına rəğmən, onun vəkili Sadiq Rəsulov deyib ki, müvəkkili avqustun 19-dan başlatdığı aclıq aksiyası səbəbindən ölə bilər. Akif Çovdarovun ətrafında cərəyan edən hadisələr sabiq idarə rəisinin ölümündə maraqlı qüvvələrin olmasına dəlalət edirmi? Bu və digər suallarla onun vəkili Sadiq Rəsulova müraciət etdik. Onun ilk sözü belə oldu:**

-Akif Çovdarovun vəziyyəti çox pisdir, hər gün çəki itirir. Artıq 13 kiloqram arıqlayıb. Avqustun 19-dan bu günə qədər aclığı davam etdirir, dərmanları da qəbul etmir. Bu gedişlə çox ağır fəsadlar ola bilər.

**- Ədliyyə Nazirliyi Tibb Baş İdarəsindən Çovdarovun keçirdiyi aclıq aksiyasının qeydə alınıb-alınmaması ilə bağlı suala konkret cavab verilməyib. Onun aclıq etməsi ilə bağlı müraciətləriniz olub?**

- Akif müəllimin aclıq aksiyasının qeydə alınması ilə bağlı rəsmi şəkildə müraciət etmişik. Bu müraciət dəftərxanada qeydiyyatdan keçirilib, həmin ərizənin qeydiyyatdan keçirilmiş surəti məndə, Akif Çovdarovun ailə üzvlərində var və prokurorluğa da yollamışıq. Bu haqda protokola da qeyd vermişik. Akif müəllim cinayət işinin materialları ilə tanış olmaqdan imtina etdi, bildirdi ki, ona az vaxt verilməsini qanunsuz hesab edir. Cinayət işinin materialları ilə tanış olmaqdan imtina ilə bağlı ərizəni də müstəntiqə təqdim etmişik.

**-Hər iki ərizənin surətini mətbuata təqdim edə bilərsiniz?**

- Onun yazdığı ərizələrin hər birini ailə üzvlərinə təqdim edirəm. Ailəsi lazım bilsə, mətbuata verə bilər.

**- Çovdarovla sonuncu dəfə nə vaxt görüşmüsüz?**

- Avqustun 31-də.

**- O, görüşə özü sərbəst şəkildə gəldi?**

- O, kənar şəxslərin köməkliyi ilə görüşə gətirilir. Yəni sərbəst gələ bilmir. Ona görüşə gəlməyə 2 müəssisə əməkdaşı köməklik edir.

**- Yəni özünün ayaqları üstündə dayanmağa taqəti qalmayıb?**

- 12 gün qida qəbul etməyən şəxsin taqəti necə ola bilər? Vəziyyəti ağırdır.

**- O, quru aclıq keçirir?**

- Bəli, aclığa başlayandan sonra mayeni şənbə-bazar gününə qədər qəbul edib. O, bununla bağlı BİT rəhbərliyinə də müraciət edib. Artıq maye də qəbul etmir.

**- Əgər aclıq aksiyası uzun müddət davam edərsə və Akif Çovdarovun səhhəti kəskin pisləşib hətta ölümü ilə nəticələnərsə, bunun məsuliyyəti kimin üzərində olacaq?**

- Konkret nəsə deyə bilmərəm. Öləndən sonra kimin cavabdehlik, məsuliyyət daşıdığını özləri müəyyən edərlər. Akif Çovdarov aclıq edir və nəyə etiraz etdiyini də aydın şəkildə yazıb. Öləcəksə, buna görə məsuliyyət də konkret şəxslərin üzərində olacaq. Mən ad çəkmirəm.

**- Akif Çovdarovun aclıq aksiyası keçirməsinə səbəb yalnız iş materialları ilə tanış olmasına istədiyi qədər vaxt verilməməsi ilə bağlıdır, yoxsa başqa səbəb də var?**

- O deyir ki, cinayət işinin materialları ilə tanış olmasına qəsdən imkan vermirlər, hüquqlarını pozurlar. Buna görə aclıq edir. Bir də Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin hərəkətlərinə qarşı da etiraz edir. Bununla bağlı da müvafiq ərizə ilə müraciət edib. Çünki Tibb Baş İdarəsi onu yoxlamadığı bir vaxtda, heç kim onu müayinə etmədiyi halda prokurorluğa məktub veriblər ki, Akif Çovdarovun səhhəti normaldır və o, iş materialları ilə tanış ola bilər. Təbii ki, Akif Çovdarov bunu biləndən sonra da bu qanunsuzluğa da etiraz etdi, müvafiq ərizə yazdı. Göstərdi ki, heç bir müayinədən keçirilməyib, heç kim onunla səhhəti ilə bağlı danışmayıb.

**- Akif Çovdarov aclıq keçirən dustaq kimi digər dustaqlardan ayrı saxlanılır?**

- Yox, sadəcə, onu tibb-sanitar hissəsində saxlayırlar.

**- Ailəsi ilə görüşdən imtina etməsi haqda məlumatlar yayılmışdı. Doğrudur?**

- Akif Çovdarov Bakı İstintaq Təcridxanasında oğlu ilə görüşə bilir, həyat yoldaşı və qızı ilə telefonla danışa bilir. Bu məlumatları kimin yaydığını bilmirəm, yalandır.

**- Borçalıdan bir neçə şəxsin Akif Çovdarovla bağlı yayılmış müraciətinin onun özünün xahişi ilə tərtib edildiyi, yayılması haqda xəbərlər var.**

- Akif müəllim həmin müraciəti necə yaydıra bilərdi ki, özü həbsdədir. Biz də həmin müraciəti mətbuatdan oxuduq.

**- Akif Çovdarov belə bir müraciət yayılmasını vəkili, oğlu və digər yaxınları vasitəsi ilə təşkil edə bilərdimi?**

- Akif müəllimlə bağlı həmin müraciəti yəqin ki, onunla həbsdən əvvəl münasibəti olan şəxslər yayıb. Orada ziyalılar, professorlar var. İnsanlar fikirlərini bildiriblər.

***

Qeyd edək ki, A.Çovdarovu və digər MTN generallarını qurumdakı məlum "təmizləmə"lərdən sonra həbsə alıblar. Bu gün Bakı İstintaq Təcridxanasında (BİT) A.Çovdarovdan savayı keçmiş MTN-in Antiterror Mərkəzinin sabiq rəisi, general-mayor Elçin Quliyev və başqaları saxlanılır.

Azpolitika.info-nun yaydığı xəbərə görə, E.Quliyev bugünlərdə Akif Çovdarovla üzləşdirilib. Məlumatda qeyd olunur ki, üzləşməyə səbəb bu iki şəxsin istintaqa bir-birilərinin əleyhinə verdikləri ifadə olub. Sayta daxil olan məlumatda isə bildirilir ki, hər iki general istintaqa, həmçinin sabiq MTN başçısı Eldar Mahmudov və onun müavini Hilal Əsədovun da əleyhinə ifadə veriblər. Elçin Quliyev isə həbsinin ilk günlərində ifadə verməkdən qətiyyətlə imtina etsə də, daha sonra fikrindən daşınıb və istintaqla əməkdaşlıq yolunu tutub. Ümumiyyətlə, açıq görünür ki, "MTN işi" çərçivəsində həbslərin əsas məqsədi Eldar Mahmudovun əleyhinə ifadə toplamaq olub. Bu, hansısa mərhələdə Eldar Mahmudovu həbs etmək, yoxsa sadəcə onu gərginlik altında saxlamaq niyyətinə xidmət edib, demək çətindir. Lakin artıq bir məsələ qəti şübhə doğurmur ki, MTN-dəki həbslərin, zahirən göründüyü kimi, burada törədilən çoxsaylı cinayətlərlə - qətllər, şantaj, soyğunçuluq, mənimsəmə kimi hallarla qəti əlaqəsi olmayıb. Əks halda, aylardır aparılan istintaq çərçivəsində həbslər davam edər, ilk dalğada saxlanılan 21 nəfərdən başqa da kimlərsə məsuliyyətə cəlb olunar, KİV-lərdə çoxsaylı cinayətləri haqda danışılan digər generallar da Akif Çovdarov, Elçin Quliyev və digərlərinin yanında oturardı. Məsələn, MTN Baş İstintaq İdarəsinin sabiq rəisi Mövlan Şıxəliyevin əleyhinə onlarla ifadə verən, onun ağır cinayətlərini ifşa edən tapılsa da, bu adam məsuliyyətdən kənarda saxlanıldı. MTN-də həbslərin ilk dalğasından sonra yalnız bir nəfər - Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev həbs olundu ki, bu da istintaqın hansısa faktlar toplaması ilə bağlı yox, onun özünün dinc oturmaması, keçmiş müavini İlqar Quliyevin həbsdəki intiharına görə kimlərisə suçlamağa cəhd etməsinə görə idiE Həbslərin davam etməməsi həm də onu sübut etdi ki, "içəridəkilər"dən kifayət sayda adam istintaqa lazım olan ifadəni verib deyə, əlavə şahidlərə ehtiyac qalmayıb. Qeyd edək ki, bir müddət əvvəl hazırda ev dustaqlığında olan digər MTN generalı Natəvan Mürvətovanın da Eldar Mahmudovun əleyhinə ifadə verdiyi məlum olmuşdu. Beləliklə, sabiq nazirin əleyhinə ən azı 3 generalın ifadə verdiyi artıq dəqiqləşməkdədir. Lakin istisna deyil ki, onların sayı daha çoxdur. Bu da onu deməyə əsas verir ki, Eldar Mahmudovun referendum ərəfəsi qandallanması mümkündür. Əgər Çovdarov o zamanadək özünəməxsus "xariki" edib aclıqla özünü öldürməsə, sabiq naziri ilə hələ təcridxanada görüşə də bilər...

❑ **E.MƏMMƏDƏLİYEV**

# Əcnəbi jurnalist hasararxası Bakını necə gördü, necə göstərdi



**Xalid KAZIMLI**

**Bu günlərdə rusiyalı fotoreportyor İlya Varlamov öz bloqunda Bakımız haqqında üç fotosessiya təqdim edib. Qısa şərhlərlə müşayiət olunan fotosessiyanın birincisi "Yaxşı Bakı", ikincisi "Pis Bakı", üçüncüsü "Azərbaycanlılar qonaqları necə axmaq yerinə qoyur" adlanır.**

Birinci fotosessiyada Varlamov Bakının gözəlliklərini, geniş, işıqlı prospektlərini, möhtəşəm tikililərini çəkib göstərir, onu müasir Avropa şəhəri adlandırır, bəzi yerlərinin Parisi andırdığını qeyd edir.

İkinci fotosessiyada o, şəhərin pərdəarxası, daha dəqiqi, hasararxası durumunu, gecəqondularını, dar-düdük küçələrini, yastı-yapalaq evlərini təqdim edir. Bunlar elə şəkillərdir ki, burdan-bura öz fotoreportyorlarımız çəkməyiblər. Söhbət "Şanxay" kimi tanınan yaşayış massivindən getmir, ordan bütün sayt və qəzetlər şəkilli materiallar hazırlayıblar. Ancaq Bakıda "Şanxay" tipli yaşayış məskənləri çoxmuş. Varlamov onları da çəkib və öz oxucuları ilə paylaşıb.

Üçüncü fotosessiya isə başlığından da göründüyü kimi, bizim şəhər rəhbərlərinin eybəcər mənzərələri gözəl görüntülərlə pərdələyərək, şəhərin qonaqlarını aldatmaq cəhdindən gedir.

Jurnalist möhtəşəm binaların yoldan və arxa həyətdən olan təzadlı görünüşlərini çəkib, üstəlik, mənzillərə artırılmış eyvanları, qədim binaları bəzəyən müasir kondisionerləri çəkib göstərib.

Bəlkə də bu fəndlərlə əksər qonaqların gözünü boyamaq olar, amma Varlamov kimi fotoaparatlı, videokameralı qonaqları aldatmaq mümkün deyil. Onlar gözəllikləri də, eybəcərlikləri də çəkəcək və yüz minlərlə başqalarına təqdim edəcəklər.

Bu, təbii ki, ölkə və şəhər rəhbərliyinin xoşuna gəlməyəcək. Çünki hamı istər ki, onun ölkəsi və şəhəri haqqında yalnız xoş sözlər deyilsin, yaxşı təəssüratlar yaransın.

Nə etmək olar ki, gerçəklik bundan ibarətdir və özünü azad jurnalist sayan Varlamov kimilər həqiqətə göz yummağa borclu deyillər.

Belə "həyasız" qonaqlarla mübarizə aparmaq üçün gərək onları Şimali Koreyada olduğu kimi ölkəmizə buraxmayaq, İranda olduğu kimi, addımbaşı "Ağa, durbini yığışdır, buranı çəkmək olmaz" deyək. Bu da mümkün deyil.

Yeganə çarə ebəcərlikləri məhv etmək, onların yerində gözəlliklər əmələ gətirməkdir. Yoxsa Varlamov kimi jurnalistlər uzaqdan İtaliya və Yunanıstanın ağ fasadlı, qırmız damlı evlərdən ibarət olan şəhər və qəsəbələrinə bənzəyən yaşayış massivlərinin yaxından Bombey və Kəlküttə gecəqondularının eynisi olduğunu çəkib dünyaya göstərəcəklər.

Eybəcərlikləri gözəlliklərlə əvəz etmək bahalı və əziyyətli işdir. Buna milyardlar xərcləmək lazımdır. Milyardlardan başqa bir neçə şey də gərəkdir, məsələn, məsuliyyət, intizam, dürüstlük, kreativlik. Bunlar ona görə lazımdır ki, şəhərin abadlaşdırılmasına, gözəlləşdirilməsinə ayrılan büdcə vəsaiti səmərəli xərclənsin, basılıb yeyilməsin, ortaya ağılla, zövqlə başa gətirilmiş iş qoyulsun.

Fəqət bunlar bizim çatışmayan cəhətlərimizdir. Biz ortada olan beş manat pulun oğurlanmaması üçün xeyli nəzarətçi, təftişçi qurumlar da yaratmalıyıq. Ən pisi odur ki, onlar da gedib o 5 manatı oğurlayanlarla ortaq olurlar. Nəticədə şəhərin ayrı-ayrı səmtlərində eybəcər mənzərə qalır, inşaatçılar, nəzarətçilər, təftişçilər isə şəhərin başqa bir səmtində özləri üçün bahalı villalardan ibarət eybəcər küçə salırlar.

Bizdə hələ də ağıllı-kamallı şəhər salmaq mədəniyyəti yoxdur. Son illər şəhər ətrafındakı boş çöllüklərdə salınmış saysız-hesabsız qəsəbələrə gedib baxaq, hamısının küçələri əsrin əvvəllərində salınmış gecəqondu məhəllələrinin arasına oxşayr, iki maşın üz-üzə gələndə biri mütləq kiminsə darvazasına sürtünüb keçməlidir.

Azdan-çoxdan gedib gördüyümüz məşhur şəhərlərdə nəzərimizi cəlb edən ilk şey küçələrin, prospektlərin genişliyi, müasir tikililərlə qədim binaların harmoniya içində olması olur. Bizdə fışqıran müasirliklə çökən qədimilik elə bir kontrast yaradır ki, qədimliyimiz eybəcərlik kimi görünür. Varlamovlar "Alov qüllələri"nin fonunda o eybəcərliyi hər kəsə nümayiş etdirir.

Ölkəmizin, paytaxtımızın dünyada ad qoymasnı, gözəl sima ilə tanınmasnı istəyiriksə, bu işləri işbilən, çalışqan, dürüst insanlara həvalə etmək lazımdır ki, onlar şəhəri silib-süpürüb təmizləsinlər, abad eləsinlər.

Söhbət büdcəni silib-süpürməkdən getmir.

YENİ MÜSAVAT
N 194 (6515) 2 sentyabr 2016

# Elman Rüstəmovu kim və niyə susdurdu?

## Qubad İbadoğlu: "Belə bir həssas zamanda mətbuata açıq olmaq lazımdır"
## Mehman Əliyev: "Yəqin əsəblərini kontrol edə bilmir, amma məmur həmişə soyuqqanlı olmalıdır"
## Elçin Şıxlı: "Onun devalvasiya ilə bağlı proqnozu yalan çıxıb deyə, görünür, danışmaq istəməyib"

**Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmovun "Baku-2016" 42-ci Şahmat Olimpiadasının açılışından öncə keçirilən mətbuat konfransında iştirak edərkən, jurnalistlərin manatın taleyi ilə bağlı sualını cavabsız qoyaraq zalı tərk etməsi media mənsublarının haqlı narazılığına səbəb olub. Milli valyutanın getdikcə dəyərdən düşməsi, dollarla bağlı yaranmış ajiotaj fonunda baş bankirin susması və medianın suallarından yayınması anlaşılan deyil.**

Digər tərəfdən, Elman Rüstəmovun bu addımı dolların kəskin bahalaşmasına bir mesaj kimi qiymətləndirilib. Bu fikirdə olanlar hesab edir ki, əgər devalvasiya gözlənilməsəydi, E.Rüstəmov hər zaman olduğu kimi, bunu media qarşısında səsləndirərdi. Hesab edirlər ki, E.Rüstəmovun susması dolların kəskin bahalaşmasının əlaməti ola bilər.

**İqtisadçı ekspert Qubad İbadoğlu "Yeni Müsavat"a açıqlamasında bildirib ki, baş bankirin hazırkı situasiyada manatın taleyi ilə bağlı suallara cavab verməməsi yanlış addımdır:** "Bu mövzuda danışmaq səlahiyyəti ən çox Elman Rüstəmova məxsusdur. Onun informasiyası bizimkindən daha çoxdur, eyni zamanda onun Azərbaycanda pul-kredit siyasətinin tənzimlənməsi ilə bağlı məsuliyyəti var. Bu baxımdan, təbii ki, onun manatın taleyi ilə bağlı suallara cavab verməməsini yanlış hesab edirəm. İstənilən məmur mətbuatla təmasa üstünlük verməlidir. Üstəgəl, belə bir həssas zamanda mətbuata açıq olmaq gərəkdir. Mən gözləyirdim ki, Mərkəzi Bankın bəyanatı olacaq. Çünki valyuta bazarında gərginlikdir. Azad şəkildə sərbəst dönərli valyuta almaq olmur, nə dollar, nə də avro almaq mümkündür. Hesablaşma demək olar ki, dayanıb. Belə olan halda, baş bankirin sözünə daha çox ehtiyac yaranır və onun danışması hər bir istehlakçı üçün, o cümlədən biznes mühiti üçün çox əhəmiyyətlidir, faydalıdır".

**Buna baxmayaraq, iqtisadçı ekspert Elman Rüstəmovun bu addımını devalvasiyaya xəbərdarlıq kimi qiymətləndirməyib:** "İnanmıram ki, Elman Rüstəmovun bu susqunluğu birbaşa kəskin devalvasiya ilə əlaqəli olsun. Onsuz da hər gün devalvasiya gedir. Bizim gözlədiyimiz kəskin devalvasiya üçün tələb var, lakin bu, birbaşa Mərkəzi Bankın qərarından asılıdır. İndiki halda AMB məzənnə siyasətini kəskin devalvasiya üzərində də qura bilər, yumşaq devalvasiya üzərində də. Bu, inzibati yolla tənzimlənən bir siyasətdir, burada bazar qüvvələri rol oynamır. Bazarda tələb-təklif müstəvisində baş verənlər belə bir devalvasiyanın baş verməsi üçün əsas yaradır. Lakin qərar vermək bank sistemini idarə edənlərin əlindədir".


Elman Rüstəmov

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev vurğuladı ki, dövlət məmuru olaraq E.Rüstəmov bu suala cavab verməyə borclu idi:** "Elman Rüstəmovun bu addımı doğru deyil. Düzdür, başa düşürük ki, o, əsəbidir. Manatın hazırkı vəziyyətinə görə məsuliyyət daşıyır və görünür, əsəblərini kontrol edə bilmir. Amma mən hesab edirəm ki, belə vəziyyətlərdə məmur həmişə soyuqqanlı olmalıdır. Gördüyü əməllərə görə cavab verməlidir. Bu, onun vəzifəsidir. Ona görə də nəinki jurnalist, sadə vətəndaş da sual verirsə, məmur özünü belə apara bilməz".

**Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı isə xarici media təcrübəsində məmurların cavab verməməsi praktikasının mövcud olduğunu qeyd etdi:** "Bu, adi bir praktikadır. Buna "no komment" deyirlər. Yəni "şərh vermək, danışmaq istəmirəm, deməyə sözüm yoxdur". Gərək Elman Rüstəmov "no komment" deyib gedəydi, ancaq o kəlməni işlətməyib, bəlkə də, sadəcə olaraq, unudub. Təbii ki, manat üçün bu qədər həssas məqamda informasiya verilməlidir. Lakin görünür, bu məsələ təkcə Elman Rüstəmovdan asılı olmadığı üçün o, birmənalı şəkildə cavab verə bilmir. Əgər ondan asılı olsaydı, yəqin ki, cavab verərdi. Bir sıra strukturlarımız var ki, onların uzlaşdırılmış işi və cavabı olmalıdır. Mən belə başa düşürəm ki, uzlaşdırılmış bir siyasət yoxdur. Problem də bundan yaradır. Elman Rüstəmov bir söz deyir, sabah başqa bir iqtisadi strukturun rəhbəri onun dediyinin əksinə hərəkət edir. Nəticədə Elman Rüstəmov yalançı çıxır, ona görə də danışmaq istəmir. Yadınızdadırsa, iki-üç dəfə Elman Rüstəmov devalvasiya ilə bağlı proqnoz verib, hər dəfə də əksi çıxıb. Görünür, ona görə danışmaq istəmir".

❑ **Nərgiz LİFTİYEVA**

# Manat üzüaşağı gedir - proses qaçılmazdırmı...

## Ekspertlər bildirirlər ki, bazar kəskin devalvasiyanı tələb edir...

**Milli valyuta olan manat ucuzlaşmaqda davam edir. Ekspertlər məsələdən narahatlıqlarını bildirməklə yanaşı, bunun qarşısıalınmaz proses olduğunu da vurğulayırlar. Mərkəzi Bankın manatın sentyabrın 1-nə olan məzənnəsi isə avqust ayının 31-i ilə müqayisədə dəyişməyərək 1,6321 manat olaraq qalıb. Avro isə manata nisbətən ucuzlaşıb. Avrozonanın vahid valyutası 0,03 faiz zəifləyərək 1,8204 manat olub. Ekspertlərin sözlərinə görə, manatın daha da ucuzlaşacağı qaçılmaz görünür.**

Ekspert Elşad Məmmədov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, ölkədə milli valyutanın növbəti dəfə devalvasiyaya məruz qalacağı artıq qaçılmaz görünür: "Əslində son aylarda bu proses tədricən baş verməkdədir. Ancaq proseslərin gedişatı bazarın manatın devalvasiyasının Mərkəzi Bank tərəfindən həyata keçirildiyi yumşaq formadan daha kəskin formada həyata keçirilməsini tələb etdiyini göstərir. Dollara olan real tələbat bazarda təklif olunan dollar təklifini son aylarda təxminən 10 dəfə üstələyir. Bunun özü Mərkəzi Bank tərəfindən müəyyən edilmiş məzənnənin inzibati məzmunundan və real iqtisadi durumdan uzaq olmasından xəbər verir. Hesab edirəm ki, növbəti devalvasiyanın ölkənin bank sektoruna, makroiqtisadi göstəricilərə verəcəyi ciddi mənfi fəsadları nəzərə alaraq, Mərkəzi Bank bu prosesə maksimum dərəcədə müqavimət göstərməyə çalışır. Lakin dollar satışının məhdudlaşdırılması, manat kütləsinin azaldılması və bu kimi sərt monetar tədbirlər yalnız çox qısa müddətdə hansısa müsbət effekt verə bilər. Ölkənin tədiyyə balansının durumu, ixracın kəskin azalması, kapital axınının həcminin kritik səviyyədə olması manatın möhkəmlənməsi ehtimalını heçə endirir. Hesab edirəm ki, nə qədər qeyri-neft sektorunun inkişafından, iqtisadiyyatın, o cümlədən ixrac sektorunun diversifikasiyasından danışılsa da, reallıqda bu tədbirlər həyata keçirilsə belə, onların hansısa nəticələri yaxşı halda 3-4 ilə müəyyən dərəcədə hiss oluna bilər. Hazırda isə ölkə hökumətinin iqtisadi blokunun iqtisadi durumun yaxın aylarda sabitləşməsi üçün atmalı olduğu operativ addımlar ilk növbədə ölkədən kapital axınının qarşısının alınmasından ibarət olmalıdır ki, bu istiqamətdə hətta sərt inzibati addımların atılması da artıq fikrimcə, zəruridir. Düşünürəm ki, əks halda, ölkə iqtisadiyyatı növbəti aylarda daha ciddi makroiqtisadi problemlərlə üzləşəcək".



**Ekspert Qubad İbadoğlu isə bildirib ki, artıq manatın rəsmi və qeyri-rəsmi məzənnələri arasında fərq on faizə yaxınlaşır:** "Yenidən valyuta bazarlarında gərginlik var, bir neçə gündür ki, valyuta satışının əsas dövriyyəsi qara bazarlara transfer olunub. Rəsmi və qeyri-rəsmi məzənnələr arasında fərq 10 faizə yaxınlaşır. Azərbaycanda yaranmış dollar qıtlığının başlıca səbəbini FED-in gözlənilən qərarında deyil, milli iqtisadiyyatda, xüsusilə də qeyri-neft ixracatında yaranmış acınacaqlı vəziyyətlə, ölkədən kapital axını və Mərkəzi Bankın mövcud situasiyaya adekvat olmayan yanlış siyasəti ilə izah etmək olar. Gömrük məlumatına görə, bu ilin 6 ayında ümumi ixracat gəlirləri 3 milyard 821 min 500 dollar, ondan qeyri-neft ixracı 584 milyon 500 min dollar olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 27 faiz azdır. Beləliklə də adambaşına son 6 ayda ümumi ixrac 402 dollar, qeyri-neft bölməsinin ixracı isə 61,5 dollar olub. Ölkənin orta aylıq ümumi ixracatı 636,8 milyon, qeyri-neft ixracatı 97,4 milyon dollara bərabərdir. Deməli, əgər neft və qaz gəlirləri olmazsa milli iqtisadiyyatın indiki potensialı ilə valyuta gəlirlərimiz aylıq 100 milyon dollardan da aşağı düşərdi. Halbuki bu ilin ilk 6 ayında ölkəyə idxal mallarını gətirmək üçün 4 milyard, hər ay 666 milyon dollarlıq valyuta xərclənib".

**Ekspertin sözlərinə görə, ixracatdan əldə edilən valyuta gəlirləri heç idxalı maliyyələşdirməyə belə yetərli deyil:** "Bundan başqa, dövlətin, şirkətlərin, bankların borc öhdəliklərini, vətəndaşların cari ehtiyaclarını ödəməyə də əlavə olaraq valyuta qazanılmalıdır. Valyutanı qazanmaq üçün isə rəqabətə dözümlü, yüksək texnologiyalı, innovativ mal və xidmət istehsal etmək lazımdır. Bu isə iqtisadiyyatın modernləşdirilməsi, eləcə də təhsilin səviyyəsindən asılıdır. İqtisadiyyatın modernləşdirilməsi üçün isə ölkəyə xarici sərmayələr gəlməli və əlverişli investisiya mühiti formalaşdırılmalıdır. Təəssüf ki, bu hədəflərə qısa zaman çərçivəsində nail olmaq mümkün deyildir. Bu müddətdə manatı reanimasiyadan çıxartmaq mümkün olmayacaq. Ona görə də vaxt itirmədən islahatlara və iqtisadiyyatda təxirəsalınmaz tədbirlərə başlanılmalıdır".

❑ **RÖYA**

**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun azadlığa çıxmasına 57 gün qalmış əlavə cinayət maddələri ilə ittiham olunmasından 9 gün ötür. Bu günlər ərzində sabiq nazirə qarşı yeni cinayət maddələrinin irəli sürülməsindən daha çox onun həmyerliləri tərəfindən müdafiəsiz qalması gündəm oldu.**

# "Hakimiyyətdə bəzi qüvvələr Əli İnsanovun azadlığa çıxmasını istəmirlər"

## Sabiq nazir Müdafiə Komitəsinin yaradılmasına razılıq verməyib; qərbi azərbaycanlıların onunla bağlı müəmmaları davam edir; "İrəvan" Azadlıq Təşkilatından İnsanova dəstək gəldi

İqtidar düşərgəsini də bu sıraya aid etmək olar. Hakimiyyət təmsilçiləri 12 il nazir işləyən "vurulmuş" bir şəxs barəsində danışmaqdan açıq şəkildə yayındılar. Bu da müəyyən dərəcədə başadüşüləndir. Uzun müddət bir komandada təmsil olunan bir şəxsin əleyhinə fikir səsləndirmək asan olmadığı kimi, müsbətinə danışmaq da çətindir. Amma qərbi azərbaycanlıların qarşısını alan nə oldu? Bu sual hər kəsi düşündürür. Bir daha qeyd edək ki, "Yeni Müsavat" olaraq, nazir işlədiyi dönəmlərdə İnsanova yaxın olan, hətta tez-tez ondan "paket"lər aldıqları iddia olunan şəxslərin İnsanova qarşı yeni maddələrin irəli sürülməsi ilə bağlı münasibətlərini öyrənmək istədik. Maraqlıdır ki, ən çox sabiq nazir barədə danışmağa cəsarət etməyən, onunla adlarının yanaşı çəkilməsini istəməyən də məhz onlar oldu. Yalnız "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı və təhsil eksperti Etibar Əliyevdən başqa. Onların da fikirlərində tənqidi notlar daha çox idi...

İlk günlərdə İnsanovu müdafiə edənlər olmasa da, artıq bəzi həmyerliləri üzə çıxmağa başlayır.

**"İrəvan" Azadlıq Təşkilatının sədri Təbriz Musayev bildirdi ki, Qərbi Azərbaycandan olan və vaxtilə İnsanovla birlikdə hakimiyyətdə təmsil olunan şəxslər bu gün onun barəsində danışmağa cəsarət etmirlər:** "Əli İnsanovu həbsdə olduğu müddətdə təhlükəli bir insan kimi qələmə veriblər. Guya o, azad olunduqdan sonra hakimiyyət əleyhinə çağırışlar edəcək. Bu fikirlərlə razılaşmıram. Çünki onun bu barədə fikrini hələ eşitməmişik. Onun nə fikirləşdiyini tam bilmirik. O, alim, ziyalıdır, 70 yaşı var. Bu yaşdan sonra düşünürəm ki, azadlığa çıxdıqdan sonra yarımçıq qalmış elmi işləri ilə məşğul olacaq. Onun heç bir hakimiyyət davası ola bilməz. Çünki elə bir siyasi qurumu da yoxdur ki, hakimiyyətlə mübarizə aparsın. Ona qarşı azadlığa çıxmasına iki ay qalmış 3 əlavə cinayət maddəsinin irəli sürülməsi böyük haqsızlıqdır. Belə vəziyyətlərdə regionçuluğu qabartmaq dövlətçiliyimizə böyük zərbədir. İstər qərbi azərbaycanlılar, istərsə də başqa bölgələrdən olan şəxslər bu məsələdə ədalətli mövqe ortaya qoymalıdırlar. İnsanov hakimiyyətdən "vurulmuş" şəxsdir. Onu cəmiyyətdə kimlər müdafiə edəcəksə, hakimiyyət tərəfdən təzyiqlərlə üzləşə bilər. Ona görə də İnsanovu sevənlər və sevməyənlər bu barədə danışmağa çəkinirlər. Üç əlavə cinayət maddələri irəli sürüləndən sonra bizim tərəfdən müdafiə istiqamətində bəzi addımlar atıldı. Biz onun fikirlərini öyrəndik. O, Müdafiə Komitəsinin yaradılmasının əleyhinədir. Ona görə də düşünürəm ki, İnsanovu müdafiə edənlər bunu nəzərə alıb müdafiə xarakterli addımlar atmaq istəmirlər".

**T.Musayev sabiq naziri ən çox müxalifətin müdafiə etməsinin səbəblərinə də aydınlıq gətirdi:** "Müxalifət ölkədə aparılan səhv siyasətə qarşı daim çıxış edir. İnsanovun yüksək postda çalışdığı zamanlarda müxalifətə qarşı sərt mövqeyi, vurulduqdan sonra müxalifətin onu müdafiə etməsi insan haqlarını qoruduğunu göstərir. İstənilən məhbus üçün müdafiə böyük önəm daşıyır. Bu gün Əli İnsanovu təkcə qərbi azərbaycanlılar yox, digər insan haqlarını qoruyan insanlar da müdafiə etməlidir. Hakimiyyətin sifarişi ilə onunla bağlı gedən prosesləri izləyirik. Bir çox beynəlxalq təşkilatlara təşkilatımız adından müraciətlər edəcəyik".

**"İrəvan" Azadlıq Təşkilatının sədri sabiq nazirin azadlığa çıxmaq üçün nə etməli olduğunu da qeyd etdi:** "Hər bir insanın həyata öz baxışları var. Bildiyimiz kimi, zamanında Əli bəy ərizə yazmaq yolu ilə azadlığa çıxmaq istəmirdi. Bu günləri o yenə də öz fikrində qalır. Özünün hər hansı bir formada azadlığa çıxmasını istəmir. Onun azadlığa çıxmasına iki ay qalmış bu hadisələr baş verdi. Hələ üç ay öncədən İnsanova qarşı bir təbliğat başlamışdı ki, guya o, həqiqətən cəza çəkdiyi müəssisədə müqavimət göstərir. Bunun hamısı aydın məsələdir ki, ictimaiyyətin rəyini öyrənmək üçün edilirdi. Onlar üçün maraqlı idi ki, cəmiyyətin məsələyə mövqeyi necə olacaq. Əli İnsanov yenə də öz mövqeyində qalacaq. O, çəkdiyi cəzanı ərizə formasında başa vurmasına razılıq verməyəcək. Onun bu günə qədər həbsxanada apardığı mübarizə onu təsdiqlədi ki, cəzası başa çatana qədər hansısa formada azadlığa çıxmaq istəmir. Onun azadlığa buraxılması üçün Avropa Məhkəməsinin qərarları var. Siyasi məhbus kimi tanınıb. Amma hakimiyyət bunları nəzərə almır. Mövcud hakimiyyətdə bəzi qüvvələr var ki, Əli İnsanovun azadlığa çıxmasını istəmirlər. Bu da başadüşüləndir. Ola bilsin ki, onlar Əli İnsanovdan çəkinirlər, azadlıqda olanda daha təhlükəli rəqib olacağını düşünürlər".

❑ **Cavanşir ABBASLI**



# Əli İnsanovun Etibar Əliyevin bülletenini ləğv etdirməsinin pərdəarxası

## "Misir Mərdanov səhiyyə naziri ilə münasibətlərindən istifadə edərək məhkəməyə saxta rəy verdirmişdi"

**Hazırda həbsdə olan keçmiş səhiyyə naziri Əli İnsanova yenidən cinayət işinin açılması mətbuatda bəzi müzakirələrə yol açdı. Müxtəlif şəxslər Ə. İnsanovla bağlı fikirlər bildirib, bu hadisəyə münasibətlərini ortaya qoyublar.**

Təhsil eksperti Etibar Əliyevin də Əli İnsanov və sabiq təhsil naziri Misir Mərdanovla aralarında yaşanan olaydan bəhs etməsi rezonans doğurdu.

E. Əliyevin sözlərinə görə, zamanında sabiq təhsil naziri Misir Mərdanov onu işdən çıxaranda Əli İnsanov buna hüquqi don geyindirmək üçün poliklinikadan ona verilən qanuni bülleteni ləğv etdirib. Məsələyə daha detallı aydınlıq gətirmək üçün Etibar Əliyevlə əlaqə saxladıq. O bildirdi ki, olay 2002-ci ilin aprelində baş verib:

"Həmin vaxt mən Təhsil Nazirliyində aparıcı mütəxəssis vəzifəsində çalışırdım. Misir Mərdanov qanunsuz şəkildə mənim əmək müqaviləmə xitam vermişdi. Halbuki onda xəstə idim və bülletenə çıxmışdım. Protokol tərtib etmişdilər, guya ki, mənin məhsuldarlığım az olub. Amma araşdırma zamanı məlum olmuşdu ki, o dövrdə idarədə ən çox sənəd icra edən mən olmuşam. Əlimdə qanuni bülleten ola-ola mənə əmr verilmişdi ki, işdən çıxım. Mən də buna görə Təhsil Nazirliyini məhkəməyə verdim. İşimi verəndə bunlar hərəkətə keçdilər. Misir Mərdanov Səhiyyə Nazirliyi ilə münasibətlərindən istifadə edərək məhkəməyə rəy verdirdi ki, guya mən uzun müddətdə xəstə olmamışam.



Etibar Əliyev

Bülleteni isə Qaraçuxur qəsəbəsində yerləşən poliklinikadan almışdım. Səhiyyə Nazirliyindən məhkəməyə daxil olan məktub əsasında mənim bülletenim ləğv olundu. Hətta poliklinikanın baş həkiminə elə divan tutmuşdular, mənə yalvarırdı ki, "siz bu məsələni heç qaldırmayın". Onu da cəzalandırmışdılar ki, sən niyə buna bülleten vermisən. Beləliklə, Səhiyyə Nazirliyi heç bir qanuni əsası olmadan bülletendə olan bir şəxsin bülletenini ləğv edib. Səhv etmirəmsə, o məktubda nazirin birinci müavininin imzası var idi. Şübhəsiz ki, bu, nazirin məsələyə müdaxiləsi əsasında baş verə bilərdi".

**Bəs görəsən, xəstənin bülleteni nə zaman ləğv oluna bilər?**

**Tibb elmləri doktoru, professor Adil Qeybulla sualımıza bu cür aydınlıq gətirdi:**

"Poliklinikaya təqdim etmək üçün xəstəyə iş yerindən və ya yaşayış yerindən bülleten verilir. Əgər xəstə birbaşa işə çıxacaqsa ona bir neçə günlük ev şəraitində bülleten verilir, sonra işə çıxır, həmin bülleteni də təqdim edir. Əgər yox, onun müalicəsi ambulator şəraitdə davam edirsə, poliklinikaya o bülleteni təqdim edir və onun müddəti uzadılır. Amma poliklinika daim xəstənin vəziyyətinə nəzarət etməlidir. Xəstə bülleteni verib bir aydan sonra yoxa çıxırsa, bu xəstəyə nəzarət edilə bilinməzsə onun bülleteni ləğv edilə bilər".

❑ **Xalidə GƏRAY**



Afqan Ala

# Türkiyə daxili işlər nazirini istefaya nə vadar etdi?

## Diyarbəkr valilərinin cəzlandırılmasının ilginc səbəbi

**Avqustun 31-də axşam saatlarında Türkiyənin daxili işlər naziri Afqan Ala gözlənilmədən vəzifəsindən istefa verib. Hadisə hətta Ankara siyasi kuluarları, media üçün də gözlənilməz olub. Hətta nazirin özü üçün də.**

Məsələ burasındadır ki, həmin gün Ala gündüz iş başında olub, Azərbaycanın daxili işlər naziri Ramil Usubovla görüşüb, birgə mətbuat konfrasnı keçirərək FETÖ-yə birgə mübarizə barədə açıqlama verib. Axşam saatlarında isə A.Ala baş nazir Binali Yıldırımla bilrikdə Prezident Sarayına gedib, burda ölkə başçısı ilə 3-lü görüş olub. Görüşdən sonra açıqlama verən Binali Yıldırım A.Alanın istefasını açıqlayıb. Yeni daxili işər nazirinin adı da məlum olub. Bu posta əmək və sosial müdafiə naziri, Trabzon millət vəkili Süleyman Soylu təyin olunub. Yeri gəlmişkən, Soylu 15 iyulda cəsarətli açıqlamaları ilə seçilib, qiyamdan dərhal sonra isə Türkiyə hökuməti içərisində qiyamın arxasında ABŞ-ın dayandığını açıqlayan yeganə nazir olub.

Ancaq hər kəsin diqqəti Alanın üzərindədir. 2013-cü ildən daxili işlər naziri postunu tutan A.Ala daha əvvəl vali olaraq bir sıra bölgələrdə, o cümlədən Diyarbəkrdə çalışıb. A.Ala hakimiyyətin ən etibarlı kadrlardan biri hesab olunurdu və Prezident Ərdoğan onun fəaliyyətindən narazı deyildi, yəni ən azı açıq narazılıq yox idi. Üstəlik DİN strukturları, polis qiyam zamanı sınaqdan yaxşı çıxmışdı. İndi isə Alanın belə qəfil işdən çıxarılmasının və ya istefa verməsinin səbəbləri ilə bağlı bir sıra ehtimallar ortaya atılıb.

İlkin olaraq prezident Ərdoğanın FETÖ ilə mübarizənin aparılması çevrikliyi, eləcə də qurumlar arasında koordinasiyadan narazı olduğu vurğulanır. O cümlədən Milli Kəşfiyyat Təşkilatının rəhbəri Hakan Fidanla aralarının olmadığı haqda şayiələr yayılıb. Bir qədər A.Alanın yaydığı məlumatda 17-25 dekabr 2013-cü il hadisələri zamanı 81 vilayət polis rəisindən 74-nün FETO üzvü olduğu, bölmə rəislərinin hamısının, eləcə də 7 min polis kəşfiyyatının 6500-nün FETO üzvü olduğu qeyd olunurdu.

Afqan Alanın işdən çıxarılması ilə bağlı daha bir versiya ona qiyam gecəsi "əl çatmadığı" ilə bağlı idi. Həmin vaxt ölkə prezidenti də etiraf etmişdi ki, daxili işlər naziri ilə telefonla danışa bilməyib. A.Ala özü isə sonradan bildirmişdi ki, həmin gecə Ərzurumda olub və Ankaraya gəlməyə çalışıb.

Türkiyə mətbuatında yer alan Afqan Alanın vəzifədən getməsi ilə bağlı versiyalardan biri də onun Dolmabahçe sarayında HDP ilə anlaşma imzalayan 5 yetkili dövlət rəsmisindən biri və sonuncusu olmasıdır. 5 nəfərdən hazırda sonuncu vəzifədə qalan şəxs Ala idi.

Alanın vəzifədən getməsi ilə bağlı daha bir maraqlı iddia onun "Diyarbəkr bağlantısı" haqdadır. Türkiyə mediasının yazdığına görə, Ala 2004-2007-ci illərdə Diyarbəkr valisi olaraq çalışıb. Maraqlıdır ki, Ala kimi 2000-ci illərdə Diyarbəkrdə vali vəzifəsini tutmuş iki nəfər Hüseyn Avni Mutlu və Cahit Kıraç FETO istintaqı çərçivəsində həbs olunub. Eyni zamanda Diyarbəkrdə Gülən camaatına məxsus çoxlu sayda məktəb, dərnək, vəqf, hazırlıq kursu qapadılıb. Bu isə FETÖ-nün Diyarbəkrdə güclü olması, valilərin də bu təşkilat ilə bağlarının olması ilə əlaqələndirilir. Ancaq hələlik Alanın da məhz əvvəlki iki vali kimi bu bağlantıdan həbs olunduğu, yoxsa başqa bir səbəbin olması dəqiq deyil.

Yeri gəlmişkən, kulislərdə Alanın bugünlərdə millət vəkilliyindən istefa edəcəyi və hökumətin qurmağa hazırlaşdığı FETÖ-yə qarşı mübarizə mərkəzinə rəhbər təyin olunacağı, yaxud da ümumilikdə hökumətin FETÖ-yə qarşı mübarizəsini koordinasiya edəcəyi ilə bağlı iddialar da var. Hər halda, bütün bunlara qarşıdakı günlərdə aydınlıq gətiriləcək.

Lakin ortada bir maraqlı nüans da var ki, hələlik təmizləmələr siyasi hakimiyyətə gəlib çatmayıb. Çünki hər kəsə məlumdur ki, Türkiyədə dövlət və ictimai sektorun bütün qatlarında olduğu kimi siyasi hakimiyyətdə də Gülən camaatına yaxın şəxslər var. Bu günə qədər mediada və ayrı-ayrı şəxslərin dilindən "camaat bağlantılı" şəxslər haqda məlumatlar tirajlansa da, bütövlükdə hakim partiya daxilində ifşa prosesi getməyib. Alanın istefası bu prosesin başlanğıcı da ola bilər. Çünki gələn bilgilərə görə, hakimiyyət artıq bir sıra nüfuzlu şəxslərin də daxil olduğu böyük bir qrupu ifşa etməyə və partiyadan çıxarmağa hazırlaşır. Bu mənada Alanın istefası bu prosesin başlanğıcı ola bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Konstitusiyaya əyləncə qatırlar

Zamin HACI
zaminhaci@gmail.com

**Söz verdiyim kimi, konstitusiyaya dəyişiklik üzrə referenduma dəstək movqeyimi açıqlamaq istəyirəm. Öncə müxalifət adlanan qüvvələri bu dəyişiklərin (ya da dəyişikliklərin - zəhləm gedir belə sözləri yazmaqdan) əleyhinə çıxmaqda qınayıram. Hələ deyir mitinq qayıracağıq, "Məhsul" stadionunda toplaşıb bir-iki ağız "Rədd olsun referendum!", "Hava yaman bürküdür, ermənilər tülküdür!", "Vitse-prezident müxalifətdən olsun!" şüarları bağıracağıq.**

Qardaşlar, vallah bunların hamısını türməyə salmaq lazımdır, sadəcə, hökumət ayrı müxalifət istəmir, deyir bunlar yenə qışqırıb doyublar, təzə müxalifət gəlsə qulağımız ağrıyar.

Mən bir dəfə hesablamışdım, əgər bunlar vaxtında bir-biri ilə yola getsəydilər müstəqillik qazandığımız 25 ildə İsa Qəmbər və Əli Kərimlinin hərəsi 2 dəfə, Cəmil müəllim 1 dəfə prezident olardılar, hətta arada Rüstəm müəllimi də məzə üçün bir neçə illik dövlətciyimizə şef qoyardıq. Yola getməyiblər, ya da yola getmədikləri görüntüsü yaradıblar - hər nədirsə, sükan başqa əllərdədir, millət isə narazı görünmür, bir az çətinliyi olanda uzağı çıxıb körpüdən tullanır.

Sözümün canı odur ki, onsuz sizdə dəyişiklik eləməyə "dövlət təminatı" (o qədim teletamaşada deyilən kimi) yoxdur, imkan verin iqtidar müəllim özü nəyisə dəyişsin. Konstitusiyanı dəyişir, əcəb edir, formal olaraq istənilən dəyişmə hərəkət sayılır. Geriyə, qabağa, yana, yuxarı - fərqi yoxdur. Təki hərəkət olsun, millətimiz bataqlıqda çürüyüb gedir.

Xüsusilə bu referendumda vitse-prezident vəzifəsinin yaradılması ilə bağlı maddələr mənə ləzzət elədi. Buyurun, siz də oxuyun: "Əgər prezident vəzifəsini icra eləyə bilməsə, vəzifə səlahiyyəti birinci vitse-prezidentə, o da icra edə bilməsə, vitse-prezidentə, ona da nəsə olsa, baş nazirə, lap axırda deputatxana müdirinə və nəhayət, Azərbaycan xalqına verilə bilər". Bəh-bəh... Burdakı "icra edə bilməsə" ifadəsinin özü elə nəyə desən dəyir. İmkan verin, bir az xəyal quraq da bə!

Yaxud təzə maddəyə görə prezidentin deputatxanadan xoşu gəlməsə onu rədd eləmək ixtiyarı vardır. Prinsipcə, böyük dəyişiklik yoxdur, qabaqlar ixtiyarı vardı deputatları təyin etsin, eyni zamanda bir-bir kiməsə şapalaqlatdırıb qovdura bilirdi. İndi isə topasını qova biləcəkdir. Vallah, çox əla maddədir, onsuz hamımızın deputatxanadan zəhləmiz gedirdi. Qoy indi hərdən prezident bunları qovsun, biz də tamaşaya baxıb həzz alaq. Nəyi pisdir sən allah? Yoxsa istəyirsən onlar 5 il zəhləmizi töksünlər?

Bu yenilik məhlədaxili yolların yamanması, deputatlığa namizəd qazların yolunması, hansısa namizədin zəhmətkeşə ət, başqasının qatıq, üçüncüsünün pendir paylaması imkanlarını da artırır. Qabaqlar məhləyə yamaq vurmaq üçün gərək 5 il gözləyəydin. İndi isə de-fakto hər ayın başında deputatları qovub, növbəti deputatxana seçkisi elan edilə bilər. Alqışlanası haldır. Dünyanın heç bir yerində belə mütərəqqi, zəhmətkeşi düşünən hökumət, konstitusiya yoxdur, olmayıb, olmayacaqdır!

Mən yenə xüsusi qeyd edirəm, bu referendum ancaq iqtidarın dəyişiklik, islahat arzusundan doğmuşdur. Qınamaq olmaz, yazıqlar 23 ildir dövləti idarə edirlər, görürlər nə millət, nə müxalifət dəyişmək istəyir, hamısı pas atıblar, çürüyürlər. O üzdən darıxırlar, arada heç olmazsa konstitusiyanı dəyişdirirlər ki, ölkə bir az maraqlı olsun. Yoxsa adamın ürəyi sıxılır bura baxanda... Həmişə Parisdə, Alplarda, Arbatda, Laciverd sahildə, nə bilim, Trafalqar meydanında gəzmək olmur ki. Məcbursan hərdən burada da gəzib-dolaşasan. Maşallah, təzə bulvarlar qayırılıb, 3 Pinqvin binası ucaldılıb, ancaq bunlar gözü sevindirir, könlü sevindirmək üçün konstitusiyaya da mərmər üzlük çəkilməlidir, ortasında fəvvarə vurulmalıdır. Yoxsa ki, Artur müəllim baş nazir oldu, ya vitse-prezident - bunun qara camaata heç bir dəxli yoxdur.

Təşəkkür edirik ki, bizi yada salıb referenduma çağırıblar. Yoxsa biz heç bilmirik "dəyişiklikikik" necə yazılır.

# Ermənistanda bələdiyyə seçkiləri - Serj Sərkisyan iqtidarı yeni saxtakarlıqlara hazırlaşır

## Erməni siyasətçilər və dövlət adamları bir-birini ən ağır ifadələrlə təhqir edir

**Ermənistanda yaxınlaşan bələdiyyə seçkiləri öncəsi hakimiyyət və müxalifət arasında dərin ziddiyyətlər yaranıb. Musavat.com-un Ermənistan və xarici mediaya istinadən verdiyi xəbərə görə, erməni müxalifəti hakimiyyətin onlara "atdığını" düşünür. Çünki hakimiyyət seçki öncəsi seçki məcəlləsində vəd etdiyi dəyişiklikləri həyata keçirmir.**

Qeyd olunur ki, hələ bu ilin iyun ayında hakimiyyət, müxalifət və vətəndaş cəmiyyətinin nümayəndələri arasında, 4+4+4 formatında aparılan danışıqlar nəticəsində seçki prosesi üzərində nəzarətin təmin edilməsi məqsədilə mexanizmlərin tətbiq olunması ilə bağlı bəyanat imzalanmışdı.

Həmin razılaşmaya görə, partiyalara seçki siyahılarına nəzarət edilməsi ilə bağlı geniş hüquqlar verilməsi nəzərdə tutulurdu. Bundan başqa, seçicilərin sadəcə onlara verilən vəsiqələr üzrə səs verməsi, habelə onların on barmağının hamısının izlərinin yoxlanılması və seçki məntəqələrinin hamısına kameralar quraşdırılması kimi düzəlişlər gətirilməsi nəzərdə tutulurdu.

Lakin son gəlişmələr Sərkisyan iqtidarının bu düzəlişləri həyata keçirməkdə o qədər də həvəsli görünmədiyini göstərir. Sərkisyan iqtidarı bu düzəlişləri həyata keçirmək üçün əllərində maliyyə imkanlarının olmadıqlarını deyir.

Erməni mətbuatının yazdığına görə, seçki məcəlləsində düzəlişləri həyata keçirmək üçün tələb olunan 16 milyon dolları hökumət vermək istəmir.

Maraqlıdır ki, tələb olunan pulların hamısı heç də hökumətin cibindən getməyəcək. Ermənistan parlamentinin deputatı , "Çiçəklənən Ermənistan" partiyasının sədri Naira Zohrabyanın dediyinə görə, hökumətdən tələb olunan pulun miqdarı sadəcə 4,5 milyon dollardır. Qalan 11, 5 milyon isə beynəlxalq donorlar tərəfindən verilir.

Niara Zohrabyan isə əldə olunan razılaşmaların səmərəli olmasının seçkilərdə pozuntu törədən şəxslərin sərt şəkildə cəzalandırılmasından keçdiyini qeyd edib



Hakim Respublika Partiyasının parlament fraksiyasının rəhbəri Vaqram Baqdasaryanın tələb olunan maliyyə üçün hökumətin əlindən gələni edəcəyini bəyan etməsinə rəğmən, Ermənistan hökumət aparatının rəhbəri David Arutunyan dövlətin bu pulu ödəməyə gücü olmadığını bildirib.

Ermənistan parlamentinin spikeri Qalust Saakyan isə əl izlərinin yoxlanılması ilə bağlı avadanlığın hələ yanvarda gələcəyini bəyan edərək, onun bələdiyyə seçkilərində tətbiqinin mümkün olmadığını bəyan edib: "İstənilən halda, onsuz da müxalifət həmişə narazı qalacaq: aldatdılar, seçiciləri pulla aldılar, Seçki Məcəlləsini pozdular və s.", deyə Ermənistan parlamentinin spikeri Qalust Saakyan mətbuata bildirib.

Bu səbəbdən müxalifət bütün günahı iqtidarın üzərinə yıxaraq əldə olunan razılaşmanın etibarsız olduğunu bəyan edib.

Müxalifət yenə də Qərbə ümidlidir. Ermənistanın "Məlumatlı vətəndaşlar birliyi" ictimai təşkilatının sədri Daniel İoannisyanın bildirdiyinə görə, seçkilər üzərində nəzarət mexanizmlərinin tətbiq edilməməsi Qərbdə böyük məyusluq doğuracaq və müvafiq reaksiyanı özü ilə bərabər gətirəcək.

Ermənistanın müxalifyönümlü mətbuatı və ictimai fikir xadimləri isə siyasi müxalifətin böyük bir bölümü ilə bağlı məyusluğunu gizlətmir. Onlar son proseslərdə müxalifətin hakimiyyətin əlinə oynadıqlarını düşünürlər.

Məsələn, müxalifyönümlü armenianreport qəzetinin yazarı Qraçya Qalustyan Ukraynadan nümunə gətirərək Ermənistan müxalifətinin düşüncə tərzinə görə iqtidardan fərqli olmadığını bildirir: **"İnqilabdan sonra ölkədə qaydaların dəyişəcəyi ilə bağlı bəslənilən illüziyaların nə qədər təhlükəli olduğu görünür... Haradan bilək ki, Serj Sərkisyanı devirdikdən sonra biz yeni qarətçi qrupunu əldə etməyəcəyik... Bunun üçün təkcə hakimiyyəti qəsb edən hakimiyyəti yox, oğurluq, qarət, məğlubiyyətləri özü ilə bərabər gətirən sistem yox edilməlidir. Pul axınlarının üstündə oturanlar onsuz da könüllü surətdə getməyəcəklər. Ona görə Ermənistanda yeni iyullar və "Sasna tsrerlər" lazım gələcək".**

Ermənistan parlamentinin "Çiçəklənən Ermənistan" fraksiyasından olan deputat Mikael Melkumyanın fikrincə isə hazırkı mərhələdə mübarizə hakimiyyət və müxalifət arasında deyil, müxalifətin öz içində gedir: **"Hakimiyyətə yaxın qiyabi məktəbləri bitirən, bir-birlərinin üstünə qusmaqdan başqa əlindən bir şey gəlməyən bəzi müxalifətçilərin ürəyindən Göyçə foreli keçir. Lakin onlar ancaq süni göllərdə yetişən forellərlə kifayətlənməli olurlar. Ona görə onların qida sistemi pozulub. Bu adamlara ona görə pul da verirlər".**

❑ **Vaqif HÜSEYN**

# Ara Papyan: "Azərbaycanın Rusiyaya təsir gücü artır"

**Qarabağ məsələsində Rusiyanın aparıcı rolu Ermənistan üçün müsbət hal olmayacaq. Virtualaz.org "Ermənistan Xəbərləri" portalına istinadən bildirir ki, bu barədə sentyabrın 1-də keçirdiyi mətbuat konfransında diplomat, "Modus Vivendi" analitik mərkəzinin rəhbəri Ara Papyan deyib.**

Onun sözlərinə görə, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədrləri arasında yeganə ölkədir ki, münaqişə tərəflərinə silah satır.

"Ermənistanın müttəfiqi olaraq, Rusiya müttəfiqinin düşməninə silah satır. Bu, dünya tarixində görünməmiş haldır", - Papyan qeyd edib.




"Təbii ki, bizim üçün Rusiyanın aparıcı rolu müsbət hal olmayacaq, - o fikirlərinə davam edib. - Nəzərə alsaq ki, ələlxüsus Bakıda avqustun 8-də Rusiya, İran və Azərbaycan prezidentlərinin görüşündən və dəmir yolu barədə razılaşmadan sonra Azərbaycanın Rusiyaya təsir gücü artmaqdadır".

"Bizim üçün mümkün qədər çox vasitəçinin bu məsələyə cəlb edilməsi müsbət hal olardı, belə olan halda, biz fikir ayrılıqları üzərində manipulyasiya edə, balansı qoruya və düzgün siyasət hesabına hər hansı müsbət nəticəyə nail ola bilərik", - Papyan fikrini yekunlaşdırıb.



# Serj Sərkisyan işğal olunmuş Azərbaycan ərazilərinə gedib

**Ermənistan prezidenti Serj Sərkisyan işğal olunmuş Azərbaycan ərazilərinə gedib. APA-nın xəbərinə görə, bu barədə onun mətbuat xidməti məlumat yayıb. Bildirilir ki, səfərin məqsədi separatçı rejimin 25 illiyi ilə bağlı mərasimlərdə iştirak etməkdir.**

YENİ MÜSAVAT
N 194 (6515) 2 sentyabr 2016

## Deputat nazirin Ankara səfəri ilə bağlı sensasion bilgilər verdi

# "Ramil Usubov Türkiyədən yeni dosye ilə dönə bilər"

### Millət vəkili Zahid Orucdan daxili işlər nazirinin qardaş ölkədə keçirdiyi görüşlərlə bağlı mühüm anonslar; "Hörmətli nazirin Türkiyəyə səfəri Azərbaycanın təhlükəsizliyi üçün də çox əhəmiyyətli idi"


Zahid Oruc

**Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov iki gün öncə Ankaraya səfər edib. O, türkiyəli həmkarı əfqan Ala ilə görüşüb. Bu görüşdə R.Usubov bildirib ki, FETÖ ilə mübarizədə Azərbaycan Türkiyənin yanındadır. Ramil Usubov birgə mətbuat konfransında bəyan edib ki, FETÖ-nün Azərbaycanda təşkilatlanmasına qarşı bundan sonra da lazımi addımlar atılacaq. Bunun qarşılığında əfqan Ala deyib ki, Türkiyə ilə Azərbaycan qarşıdakı dövrdə də məlumat və kəşfiyyat bilgilərinin mübadiləsi, görüləcək tədbirlər məsələsində tam iş, fikir birliyində olacaq.**

İkinci maraqlı hadisə odur ki, azərbaycanlı nazirlə görüşdən bir neçə saat sonra əfqan Alanın istefa verdiyi barədə baş nazir Binəli Yıldırım açıqlama yaydı və dərhal da Türkiyənin yeni daxili işlər naziri təyin edildi.

R.Usubovun Türkiyə səfərini, orada verilən açıqlamaları, gözləntiləri **deputat Zahid Oruc** "Yeni Müsavat"a şərh edib. Bildirib ki, son iki ayda gedən həbslər və hadisələr fonunda göründü ki, Türkiyə nə qədər güclü bir qüvvə ilə üz-üzə qalıb. Darbə uzun illər ərzində Türkiyəni içdən ələ keçirmək, hakimiyyətə səssiz bir şəkildə sahib durmaq və xalqı kənar paytaxtlardan idarə etmək planının tərkib hissəsi idi. Azərbaycan dövləti isə bu illər ərzində özünün xarici siyasətini, xüsusilə də qardaş Türkiyə ilə münasibətlərini yüksək səviyyədə qurarkən etibarlı tərəfdaş olduğunu dəfələrlə sübuta yetirib: "Cənab nazir Ramil Usubovun da səfəri bunun bir sübutu oldu. Hörmətli Ramiz Mehdiyev prezident İlham Əliyevin xarici siyasətini qiymətləndirərkən mühüm bir termindən istifadə etmişdi: "Kişi sifətli xarici siyasət". Bu gün ayrı-ayrı ölkələr arasında maraq və mənafelər uğrunda savaş elə bir səviyyədədir ki, qeyd olunan terminlərə uyğun siyasət yürüdənlər tapmaq çətindir. Bu mənada Azərbaycan bütün risklərə baxmayaraq, Gülən hərəkatının uzun illər Türkiyəni içəridən gəmirən, nəinki paralel hakimiyyət, az qala bütövlükdə hakimiyyətə çevrilən qüvvələrə qarşı öz siyasi mövqeyini göstərərkən bunun davamı da gəlməli idi. Ramil Usubov Azərbaycan dövlət idarəçiliyində yüksək vəzifə tutmasına rəğmən kifayət qədər nüfuzlu şəxsiyyətdir. O, Heydər Əliyev hakimiyyətinin ən ağır dönəmlərində prinsipial mövqeyi ilə tanınıb. Belə bir şəxsin Türkiyəyə səfərə getməsi və görüşlər keçirməsi, rəmzi mənada bir daha Ərdoğanın, onun yürütdüyü siyasətin müdafiə etdirilməsi anlamından daha yüksək məna daşıyır. Görünür, Azərbaycan bütövlükdə FETÖ-çü hərəkatın və onların bu dövr ərzində maliyyən-bank sektorundan təhsil məkanına qədər sızmasının təhlükələrini real olaraq görür və bu yöndə addımlar atmaq qərarındadır. Hörmətli Ramil müəllimin dilindən orada bəyan edildi ki, Azərbaycanda bu yöndə tədbirlər həyata keçiriləcək".

**Deputatın sözlərinə görə, məlum "Balyoz əməliyyatı" "Eergenekon" həbsləri və sair addımların indi tam mahiyyəti açılır ki, istər polis orqanlarında, istər xəfiyyə strukturlarında, istərsə də məhkəmə, prokurorluq təsisatlarında yer alan Gülənçilər mahiyyət etibarilə Ərdoğanı sadiq silahdaşlarından məhrum etmək, Türkiyəni sevənləri zərərsizləşdirməklə ən sonda da Ərdoğanı aradan götürərək Türkiyəyə sahiblənmək planı üzərində işləyiblər:** "Bu yöndə şəxslər Azərbaycana nə qədər yansıyıb, bu məlumatları dövlətin mühüm şəxsləri bilərlər. Parlament üzvü olaraq kənardan biz yalnız müşahidələrimizdən danışa bilərik. Ramil Usubov özünün xarakteri etibarilə daxili işlər naziri olaraq bu dövr ərzində dövlət mənafeləri məsələsində prinsipiallığı ilə tanınmasına rəğmən, imkan verməz ki, kimsə əsassız yerə damğalansın, suçlandırılsın, günahı olan kimsə də kənarda qalsın. Ötən on illərdə dövlət çevrilişinə cəhdlərin qarşısında dayanan ən mühüm dövlət strukturlarından biri Daxili İşlər Nazirliyidir. Hesab edirəm ki, nazirin Türkiyəyə səfəri Azərbaycanın təhlükəsizliyi üçün də çox əhəmiyyətli idi. Bir daha onu vurğulamaq yerinə düşər ki, söhbət təkcə yaşlı bir adamın Pensilvaniyadan yüz minlərlə insanı yönləndirməsindən, milyardlarla dollar vəsaiti

> **"Ramil Usubov dərin dövlət adamıdır, ölkə rəhbərinə sədaqətlidir və prinsipialdır, heç kəsə qarşı süni şəkildə ittihamlara yol verilə bilməz, eyni zamanda gülənçi olduğu sübuta yetirilən heç kəsə də güzəşt edilməz"**

üzərindən ayrı-ayrı ölkələrə paylatdırmasından getmir. Gülənin arxasında dayanan güc mərkəzləri var. Bu, zamanında sınaqdan keçirilmiş modellərdir, bir çox ölkələrin içərisinə yeridilib. Azərbaycanda da siyasi islam anlayışı ilə vətəndaşların inancına sahib durmaq və bu siyasi ekstremizm vasitəsilə hakimiyyəti ələ keçirmək planları olub. Bəli, burada çox dəqiq sərhədlər qoymaq lazımdır ki, təhsil məkanında uğur qazanan və yaxud bu sistemdən keçənlərin hamısını gülənçi elan etmədən Azərbaycan bu məsələdə öz təhlükəsizlik maraqlarını düzgün müəyyənləşdirməyi bacarmalıdır".

**O ki qaldı Azərbaycanın daxili işlər nazirinin Türkiyənin daxili işlər nazir Əfqan Ala ilə görüşdən bir neçə saat sonra Ə.Alanın vəzifədən istefa verdiyinin açıqlanmasına, Z.Oruc qeyd edib ki, Ə.Ala R.T.Ərdoğanın ən yaxın komanda üzvlərindən biri olub, dövlət çevrilişinə cəhd edənlərin qarşısına çıxanlardan və gülənçiləri hakimiyyət strukturlarından təmizləməkdə davamlı olan şəxslərdən biri kimi tanınıb:** "Lakin müxtəlif iddia və versiyalar var. Kimi onun istər polis, istər digər strukturlarda mövcud olan gülənçilərin sayının minlərlə olduğunu vurğulamağını əsas götürür, kimiləri fərqli fərziyyələrdən danışır. Hər halda, rəsmi açıqlama verən baş nazir bu yöndə heç bir fikir söyləmədi, həmçinin Əfqan Alaya ehtiramını ifadə etdi. Ona görə də nazirin Türkiyədə belə qeyri-sabit dövrdə və hökumətdə kəskin dəyişikliklər zamanında vəzifəsindən getməsi bizim ölkəmizlə münasibətlərə və səfər zamanı nəzərdə tutulan planların həyata keçirilməsinə mane ola bilməz. Oturuşmuş dövlətlərdə hər şey yalnız bir məmurdan asılı olmur. Düşünürəm ki, bizim üçün Azərbaycan dövləti olaraq bu yöndə Türkiyə ilə əlaqələrimizi dərinləşdirərkən, həmçinin xəfiyyə-kəşfiyyat məlumatlarının mübadiləsini apararkən, şəxslərlə deyil, Türkiyə dövləti ilə işləməkdir. Qardaş ölkənin hakimiyyət orqanlarında kardinal dəyişikliklər həyatakeçirilməkdədir. Şükürlər olsun ki, Azərbaycanın hüquq-mühafizə orqanları, Dövlət Təhlükəsizlik Xidməti də Eldar Mahmudovun cinayətkar generallarından azad olunub. Rahat bir şəkildə FETÖ məsələsində kimin həmin təsirlərə yuvarlandığını, hansısa maraqların subyektinə çevrildiyini, ölkədə qeyri-qanuni fəaliyyət həyata keçirdiyini yaxşı bilərlər. Ramil Usubovun mühüm dövlət adamı kimi keçmişdə Azərbaycan əleyhinə olan fəaliyyətlərin qarşısında dayanmasına rəğmən, məhz onun Türkiyədə belə bir səfərdə bulunması tamamilə məntiqli hadisə idi. Düşünürəm ki, bu səfərdən sonra da Türkiyə və Azərbaycan öz maraqlarını birgə qorumaq işini davamlı etdirəcək".

**Z.Oruc onu da bildirib ki, nazirin səfərindən sonra Azərbaycanda yeni FETÖ-çülərin ortaya çıxarılması mümkündür. Dövlətin gücü ondan ibarətdir ki, mediaya sızan, mətbuatda yayılan məlumatların nə qədər doğru olduğunu sübuta yetirsin:** "Azərbaycanda nə qədər gülənçilər var, onlar hansı səbəbdən bu fəaliyyətə yuvarlanıblar, məqsəd siyasi hakimiyyət uğrunda mübarizə olub, yoxsa yalnız özünün iqtisadi, maliyyə güclərini genişləndirmək üçünmü, yoxsa şantaj qarşısında bu yola gediblər, bütün bunlar dövlətin müvafiq orqanlarında analiz olunmalıdır. Ramil Usubov dərin dövlət adamıdır, ölkə rəhbərinə kifayət qədər sədaqətlidir, millətimizin təhlükəsizliyi və hüzulu yaşaması məsələsində sərt və dönməz xarakteri ilə seçilən şəxsiyyətdir. Əslində burada qətiyyətliliyin nə qədər vacib olduğunu hər kəs yaxşı başa düşür. Razılaşın ki, 20 il öncə Azərbaycanda dövlətə qarşı xəyanət planlarını həyata keçirənlərlə müqayisədə hazırda Türkiyədə terror hörgütü kimi qəbul olunan "Hizmət" hərəkatı heç də az təhlükəli deyildir. Ona görə də yalnız siyasi bəyanatlarla deyil, mühüm kəşfiyyat məlumatları ilə həmin şəbəkəni ifşa etmək gərəkdir, lakin bu zaman heç kəsə qarşı süni şəkildə ittihamlara yol verilə bilməz, eyni zamanda gülənçi olduğu sübuta yetirilən heç kəsə də güzəşt edilməz. Başlıca məsələ, burada dəqiq hərəkət etməkdir, elə addımlar atmaqdır ki, bu məsələ Azərbaycan dövlət idarəçilik sistemini zədələməsin, parçalanma və kompromat savaşlarına rəvac verməsin. Əslində həbsə məruz qalanlar da bizim öz vətəndaşlarımızdır. Biz bilməliyik ki, onlar hansı səbəbdən belə fitnəyə gediblər. Onun fərqindəyik ki, Azərbaycan informativ, diplomatik, siyasi olaraq gülənçi hərəkatın, onu müdafiə edənlərin hədəfində olub. Rəsmi Bakını sevməyən və bu ölkəni neft çəlləyində boğacaqlarını bildirən "camaatçılar"ı əldə saxlayan xarici kəşfiyyat-siyasi mərkəzlərin bütün təzyiqlərinə və Türkiyədəki son çevrilişi demək olar ki, müdafiə etmələrinə baxmayaraq, bizim ölkəmiz özünün həyati maraqları naminə Gülən sisteminin dağıdılmasında qərarlıdır. Ondan ötrü də dövlətin əsas vəzifə sahibləri bütün bu məqamları hesablayır, lakin Türkiyənin müdafiəsində tərəddüd, ikili mövqe ola bilməz. Daxili işlər nazirinin qardaş ölkəyə səfəri də Azərbaycanın yüksək səviyyədə Türkiyəni müdafiə etməsi anlamına gəlir".

**R.Usubov Azərbaycana döndükdən sonra ölkədə yeni həbslərin olub-olmayacağı barədə suala Z.Oruc belə cavab verib:** "Hər halda, iki ölkənin daxili işlər naziri arasındakı görüş informasiya mübadiləsi ilə müşayiət olunub. Bunu birgə mətbuat konfransında nazirlər də dedilər. Türkiyə bütün miqyası ilə məlum hədəfə qarşı əməliyyatlarını dərinləşdirməkdədir və hər hansı nazirlərin görəvdən getməsi halında belə, mübarizəni dayandırası deyil. Ona görə də Azərbaycana təqdim oluna biləcək sənədlərin miqyası haqqında yalnız təxminlərimizi bölüşə bilərik. Güman ki, bəzi dəqiqləşdirmələr olub. Unutmayın ki, DİN məxfi xidmət və kəşfiyyat məlumatları ilə işləyən mühüm dövlət qurumudur. Bu mənada hörmətli Ramil müəllimin Azərbaycana gəldikdən sonra kimlərinsə həbs olunacağını demək mənim üçün çətindir. Lakin istisna etmirəm ki, hörmətli nazir ölkəyə FETÖ-nün Azərbaycan uzantısı ilə bağlı sözün birbaşa və siyasi mənasında müəyyən məlumat dosyesi ilə dönsün. Bu, o anlama gəlməsin ki, biz dövlət olaraq hətta özümüzə qardaş saydığımız Türkiyə Cümhuriyyətinin verdiyi siyahı ilə hərəkət edirik. Əsla. Söhbət yuxarıda bəhs etdiyimiz informasiya, kəşfiyyat məlumatlarının paylaşılmasından gedir. Lakin bütün hallarda yüksək dövlət adamı kimi nazir bu məlumatları ölkənin birinci şəxsi ilə bölüşür və prezidentin tövsiyəsi ilə gələcək qərarlar müəyyənləşir".

❑ Etibar SEYİDAĞA

# "Azərbaycana qarşı sanksiya çağırışını Avropa Parlamenti etməyib"

**Yeganə Hacıyeva:** "Dinləmələrdə rəsmi Bakı ilə bağlı sanksiya mövzusunun gündəmə gətirilməsi təklifi iştirakçılardan birinin şəxsi mövqeyi idi"


Yeganə Hacıyeva

**Avqustun 31-də Avropa Parlamentinin İnsan Haqları Alt Komitəsi "Korrupsiya və insan haqları" mövzusunda insan haqları institutlarının nümayəndələrinin iştirakı ilə dinləmə keçirib. Dinləmədə ümumilikdə korrupsiyanın insan haqlarına təsiri, həmçinin Avropa Birliyinin korrupsiya və insan haqları sahəsindəki siyasəti və bu siyasətin həyata keçirilməsi tədbirləri və səmərəliliyi müzakirə edilib. Bir sıra media orqanlarında isə dünən yayılan məlumatda deyilirdi ki, dinləmədə Avropa Parlamenti tərəfindən Azərbaycana sanksiyalar qəbul edilməsi qaldırılıb.**

Dinləmələri internetdə onlayn canlı izlədiyini bildirən **Gənc Demokratlar İnstitutunun başqanı Yeganə Hacıyeva** isə "Yeni Müsavat"a açıqlamasında deyib ki, dinləmədə Azərbaycanla bağlı səslənən fikirlər Avropa Parlamentinin rəsmi mövqeyi deyil, iştirakçılardan birinin fərdi fikirləri olub. Xüsusilə Azərbaycanla bağlı hədəfli sanksiyalara çağırışın səslənməsi, rəsmi Bakı ilə bağlı sanksiya mövzusunun yenidən gündəmə gətirilməsi təklifi iştirakçılardan birinin-idman tədbirləri fonunda insan haqları uğrunda koalisiyada olan və QHT fəaliyyəti göstərən ekspertlərdən birinin fikri olub: "Bunu Avropa Birliyinin və ya Avropa Parlamentinin rəsmi mövqeyi kimi qələmə vermək doğru deyil. Ümumiyyətlə isə fikrimcə, hazırda Avropa Birliyinin durumu, özlüyündə köklü həll tələb edilən məsələlər, qurumun özü üçün aydın olmayan bir necə böhranlı vəziyyət üzündən çoxlu suallar doğurur. Buna misal olaraq üzv ölkələrin artan borclanması fonunda avro maliyyə zonasının inkişaf edən böhranı, artan terror, silahlı münaqişələr və qaçqın böhranı qarşısında AB-nin acizliyi, Şengen zonası və AB-nin struktur böhranı və bütün yuxarıda sadaladığım böhranın nəticəsi kimi Avropa Birliyində baş tutan ilk parçalanmanı göstərmək olar. Xüsusi narahatlıq kimi qurumun gələcək, sabit iqtisadi dayanıqlığının artırılması üçün Avropa İttifaqı və ABŞ arasında Azad Ticarət Zonasının yaradılması, həmçinin Transatlantik Ticarət və İnvestisiya Tərəfdaşlığı danışıqlarının uğursuzluqla nəticələnməsini göstərə bilərik. Bütün bu sadalananların fonunda Avropa Birliyinin Avropanın enerji təhlükəsizliyi iştirakçı ölkələrindən biri olan, güvənli enerji və təhlükəsizlik tərəfdaşı olan Azərbaycanla bağlı qarşılıqlı münasibətlərdə narahatlıq gətirə biləcək hər hansı neqativ addımı atacağı məndə şübhə doğurur".

**Y.Hacıyeva onu da qeyd etdi ki, Azərbaycan Avropa Birliyi ilə mövcud əməkdaşlıq mexanizmləri çərçivəsində danışıqları bərpa edir:** "Məlumat üçün deyim ki, Avropa Birliyi ilə münasibətlər beş əsas istiqamət - qanunvericilik, nəqliyyat, struktur dəyişikliyi, enerji və mübadilə və s. proqramlar üzrə qurulur. Azərbaycan 2013-cü ildə AB-nin Assosiasiya sazişi təklifini qəbul etməyib, bunun əvəzində AB-yə bərabər tərəfdaşlıq və qarşılıqlı faydalılıq prinsipləri əsaslanan strateji tərəfdaşlıq sazişi təklif edib. 2014-cü ildə isə Brüssellə danışıqlar ümumiyyətlə dayandırılmışdı. Bu ilin sentyabr ayında altkomitələr işini bərpa edəcək, oktyabrda Avropa Birliyi ilə strateji tərəfdaşlıq sazişinə dair danışıqların başlanmasına dair mandat veriləcək və oktyabr-noyabr aylarında isə ticarət, energetika, nəqliyyat, ekologiya, təhlükəsizlik, insan haqları, təhsil və digər sosial məsələlər üzrə altkomitələr iclaslarına başlayacaqlar. Beləliklə, Avropa Birliyi-Azərbaycan arasında mövcud əməkdaşlıq mexanizmləri çərçivəsində fəaliyyət tam bərpa olunacaq. Strateji Tərəfdaşlıq haqda sazişin imzalanması isə Azərbaycanla Avropa Birliyi arasında əməkdaşlığı daha yüksək səviyyəyə qaldıracaq. Strateji Tərəfdaşlıq Sazişi özlüyündə Azərbaycan qanunvericiliyinin və prosedurlarının AB-nin standartlarına, beynəlxalq ticarət normalarına uyğunlaşdırılması, siyasi, təhlükəsizlik dialoqunun aparılması, yüksək səviyyədə iqtisadi inteqrasiya, Azərbaycan mallarının AB bazarlarına daxil olmasını asanlaşdırmasını nəzərdə tutur".

❑ Etibar SEYİDAĞA

# Zəngin həyatdan dəmir barmaqlıqlar arxasına...

**Cahangir Hacıyev 14 il Azərbaycanın ən böyük banklarından biri olan Azərbaycan Beynəlxalq Bankına (ABB) rəhbərlik edib. Sabiq bankir hazırda dəmir barmaqlılqar arxasındadır. O, rəhbərlik etdiyi dönəmdə bankda baş verən qanunsuzluqlarda, ayrılan milyonlarla kreditlərin geri qaytarılmamasında günahlandırılır.**

## Cahangir Hacıyev necə bankir və milyarder oldu...




Cahangir Hacıyevlə bağlı mətbuatda çox yazılıb, haqqında çox danışılıb. Onun kim olması, bu vəzifəyə necə təyin olunması yəqin ki, çoxları üçün maraqlıdır.

Musavat.com olaraq C.Hacıyevin ölkənin ən böyük banklarından birində rəhbər postuna necə gəlməsi, bu dönəmə qədər hansı vəzifələrdə çalışması və ümumi fəaliyyəti haqda araşdırma apardıq.

İlk olaraq nəzər saldığımız vikipediyada qeyd edilir ki, C.Hacıyev Azərbaycan Dövlət Universitetində təhsil alıb və təhsilini 1986-cı ildə başa vurub.

Onun 1993-cü ildə Austində - Texas Universitetində MBA dərəcəsinə və Rusiya Elmlər Akademiyasının nəzdində İqtisadiyyat İnstitutunda Beynəlxalq İqtisadiyyat üzrə doktorluq pilləsinə yiyələnməsi də vikipediyada yer alan məlumatlar siyahısındadır.

Hacıyev 1993-1995-ci illər arasında Azərbaycanın Xarici İqtisadi Əlaqələr Nazirliyində işləyib. Onun Beynəlxalq Bankdakı fəaliyyəti isə 1995-ci ilə təsadüf edir. Lakin onun bankda ilk olaraq hansı vəzifəni tutması haqda dəqiq məlumat yoxdur.

**Həbsdəki bankirin fəaliyyəti haqda məlumatlı olan iqtisadçı ekspert Əkrəm Həsənov musavat.com-a deyib ki, C.Hacıyev həmin ərəfədə bankda şöbə müdiri vəzifəsində çalışıb:** "Dəqiq xatırlamıram, ancaq şöbə müdiri vəzifəsində idi. Heç bankın İdarə Heyətində də təmsil olunmurdu. Sonra birdən-birə rəhbər təyin edildi. O zaman mən də Beynəlxalq Bankda yeni fəaliyyətə başlamışdım".

**Ə.Həsənov həmin ərəfədə yaşanan maraqlı bir olayı da xatırlatdı. Ekspert deyir ki, o zaman bankın sədri olan Fuad Axundov bütün işçilərin vəzifəsindən azad edilməsi haqda qərar veribmiş:** "Bütün bank işçiləri tutduğu vəzifədən azad edildi. Onlar vəzifələrinin icraçısı olaraq qalırdılar. Bütün işçilərin dəyişdirilməsi planlaşdırılırdı. Ancaq birdən belə bir qərar verildi. Yeni sədr təyin edildi".

Cahangir Hacıyev 2011-ci ildə Beynəlxalq Bankın İdarə Heyətinin sədri olub.

Vikipediya məlumatlarında yazılır ki, 18 may 2012-ci ildə "EMEA Finance" jurnalı C.Hacıyevi "İlin lideri" və "2011-ci ilə qədər Mərkəzi və Şərqi Avropada və MDB məkanında ən yaxşı Baş İcraçı Direktor" adlandırıb.

C.Hacıyevin 18 mart 2015-ci ildə vəzifədən çıxarılmasının səbəbi olaraq isə vikipediyada qeyd edilir ki, o, səhhətinə görə bankın Müşahidə Şurasının qərarı ilə vəzifəsindən azad edilib.

### C.Hacıyev Azərbaycanın bank sektorunda "patron"lardan birinə necə çevrildi?

Cahangir Hacıyev ABB-nin rəhbəri olduğu dönəmdə yuxarı qurumlarla hesablaşmırmış. Bu barədə bank sektorunda çalışan ekspertlər də danışır. Azərbaycan Mərkəzi Bankı (AMB) ilə hesablaşmayan Cahangir Hacıyev ölkədə bank sektorunun "patron"larından biri kimi tanınırdı.

İqtisadı ekspert Əkrəm Həsənov musavat.com-a deyib ki, Azərbaycan Mərkəzi Bankı digər bankların filiallarını bağlayanda, cərimələyəndə, lisenziyalarını geri alanda Beynəlxalq Bankda yoxlama apara, heç bir sanksiya tətbiq edə bilmirdi. Beynəlxalq Bankın filial rəhbərlərini belə illik attestasiyadan keçirə bilmirdilər.

C.Hacıyevin AMB rəhbəri Elman Rüstəmova qarşı saymazyana münasibətinin olması, onunla hesablaşmaması ilə bağlı fikirlər səsləndirilsə də həbsdə olan bankir məhkəmədə verdiyi ifadələrdə baş bankirlə bağlı müsbət fikirdə olduğunu qeyd edib.

İfadələrindən birində Azərbaycanda baş verən devalvasiyada maliyyə naziri Samir Şərifovu suçlayan C.Hacıyev Elman Rüstəmovu günahlandıranları qınamışdı. Həbsinin yeganə səbəbi kimi maliyyə nazirini göstərən Cahangir Hacıyev Samir Şərifovun da onun yanında əyləşdirilməsini istəyir.

Hacıyevin ölkənin maliyyə bazarında əsas fiqurlardan birinə çevrilməsində ləğv edilmiş MTN generalı Eldar Mahmudovla əlaqələri də əsas rol oynayıb. Uzun illər yaxın münasibətdə olan Hacıyev və Mahmudov bu əlaqələrini quda olmaqla daha da möhkəmləndirdilər. 2004-cü ildən MTN rəhbəri olan Eldar Mahmudovla dost olan Cahangirov 2012-ci ildə onunla quda oldu. Bu yaxın qohumluq əlaqəsi onun imkanlarını və bank sektorundakı nüfuzunu daha da möhkəmləndirdi.

Lakin hər iki şəxsin, Mahmudov və Hacıyevin ulduzu eyni vaxtda söndü. Eldar Mahmudovun gedişi ilə Cahangir Hacıyevin də dəmir barmaqlıqlar arxasındakı yolu göründü. İndi o, 7 nəfər yaxın adamı ilə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim qarşısına çıxarılır.

❑ Musavat.com

# Hökumət bahalaşmanın qarşısını ala biləcəkmi?

## Ekspertlər səbəblər göstərirlər, qiymət artımı payızda da davam edəcək...

**Ölkədə yeni bahalaşma dalğası gəlir. Bir neçə gün əvvəl siqaretin qiymətinin artmasından sonra ərzaq məhsullarında da bahalaşma müşahidə olunub. Ekspertlər bahalaşmanın davamlı olacağını və payızda da müşahidə ediləcəyini vurğulayırlar. Bildirilir ki, əslində hökumət bir müddət əvvəl işığın və suyun qiymətində artıma gedərək indiki bahalaşmalar üçün əsas yaradıb. Bu səbəbdən də hökumətin qiymət artımının qarşısını alacağı ağlabatan deyil.**



Ekspertlərin fikrincə, manatın devalvasiyası şəraitində yeyinti məhsullarının idxalının artımı, suyun və elektrik enerjisinin tariflərinin bahalaşması inflyasiyanın artımını şərtləndirəcək.

**Ekspert Fikrət Yusifov** isə məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bazarda mal və məhsulların qiymətlərinin artmasının yeganə səbəbi manatın məzənnəsində baş verən ucuzlaşmadır: "Bəllidir ki, bir çox ərzaq məhsulları və bəzi yerli istehsal məhsullarının müəyyən komponentləri xaricdən alınıb gətirilir. Xaricdən alınıb gətirilən məhsullar və ya komponentləri xaricdən alınıb gətirilərək istehsal olunan yerli məhsullar daxili bazarda milli valyuta ilə satılır. Bu satışdan əldə olunan manatla ticarət dövriyyəsini normal şəkildə davam etdirmək və bu zaman ziyana düşməmək üçün iş adamları malların qiymətlərini bu şəkildə qaldırmaqla özlərini sığortalamış olurlar. Bu gün xaricdən mal alıb gətirib bazarda onu satan tərəf 10-15 gündən sonra manatın məzənnəsində nə dəyişikliyin baş verəcəyini müəyyən edə bilmir və bu səbəbdən də "hər ehtimala qarşı" qiymətləri manatın bugünkü ucuzlaşma səviyyəsindən bir qədər də artıq qaldıraraq özünü sığortalayır. O hesab edir ki, gətirdiyi malları satıb xaricdən yenidən mal gətirməyə qədər olan vaxtda manat bir qədər də ucuzlaşa bilər və bu səbəbdən ziyana düşə bilər. Yaranmış durumda bu adamları müəyyən qədər başa düşmək olar. Ancaq yerli xammal əsasında yerli məhsul istehsal edən bir sıra iş adamlarının da bu cərgəyə qoşularaq qiymətləri qaldırması başadüşülən deyil. Yaranmış vəziyyətin tənzimlənməsinin yeganə yolu ölkəyə xarici valyuta axınını təmin edə biləcək ixracyönlü istehsal sahələrinin sürətli inkişafını təmin etməkdir. Bu yolun alternativi yoxdur. Tədiyyə balansındakı mənfi saldo mövcud olduqca, manatın ucuzlaşması davam edə bilər. Bu isə öz növbəsində idxal mallarının qiymətlərinin artmasının əsasını təşkil edən amildir".

Ekspertlər ərzaq məhsulları ilə yanaşı, nəqliyyat xərclərinin, gediş haqqının artırılacağını da ehtimal edirlər. Ekspertlər qeyd edirlər ki, elektrik enerjisinin qiymətlərinin artırılmasının fəsadları artıq özünü göstərir. Yəni ölkədə istehsal olunan əksər əmtəə və xidmətlərin formalaşmasında elektrik enerjisinin xüsusi çəkisi əhəmiyyətli rol oynayır və bu baxımdan, qiymət artımına səbəb olub.

❑ RÖYA

YENİ MÜSAVAT
N 194 (6515) 2 sentyabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Sentyabra bağlanan sülh ümidləri - payız dönüşə, yoxsa döyüşə gətirəcək?



## Bu ay Qarabağ danışıqlarında çoxdan gözlənilən həlledici mərhələnin başlayıb-başlamayacağına aydınlıq gələcək; seçim yenə işğalçı ölkənindir; **rusiyalı politoloq:** “Zaman Ermənistanın əleyhinə işləyir...”

**Sentyabr ayının başlaması ilə Qarabağa dair danışıqların intensivləşməsi meyli müşahidə edilməkdədir. Dünən Almaniyanın Potsdam şəhərində ATƏT XİN başçıları Şurasının qeyri-formal toplantısında Dağlıq Qarabağ konflikti də diqqət mərkəzində olub. Ondan bir gün qabaq Rusiya XİN başçısı Sergey Lavrov erməni həmkarı Edvard Nalbəndyana telefon açaraq problemi müzakirə edib. Sentyabrın 8-də isə Moskvada ATƏT-in Minsk Qrupu həmsədrləri prezidentlərin Vyana və Sankt-Peterburq görüşündən sonra təzədən dalana girmiş kimi görünən nizamlama prosesini irəli aparmaq üçün məsləhətləşmələrə start verəcəklər.**




Bir sıra analitiklərə görə, Qarabağ münaqişəsinə cəlb olunmuş vasitəçi güclər, ələlxüsus da Rusiya apreldəki 4 günlük müharibədən sonra sülh prosesində həlledici mərhələnin gecikməsinin nə dərəcədə təhlükəli olduğunu, bunun payızda növbəti hərbi eskalasiyaya gətirə biləcəyini yaxşı fərqindədir. O üzdən də qarşıdakı aylarda həmsədrlər səviyyəsində sülh təşəbbüskarlığının əhəmiyyətli şəkildə güclənəcəyi barədə iddialar var.

Bu iddiaların nə dərəcədə doğrulacağını yenə zaman göstərəcək. Əgər aparıcı dövlətlərin - Minsk Qrupu həmsədrlərinin işğalçı Ermənistana münasibəti dəyişməz qalacaqsa, status-kvo dəyişməyəcəksə, onda əlbəttə ki, sentyabr əvvəlki bir neçə aydan fərqlənməyəcək, hətta artan müharibə riski ilə yadda qalacaq. Müharibə isə hazırda nə Rusiyaya, nə də Qərbə əl verir.

Özünün cılız iqtisadiyyatı və orduya çağırışçı problemi yaşayan Ermənistan isə bu müharibədən, ümumiyyətlə, çıxmaya bilər. Yəni əslində yeni böyük savaş ən çox elə işğalçı tərəfə sərf eləmir. Bu acı perspektiv son vaxtlar düşmən ölkədə yavaş-yavaş dərk edilməkdədir. Belə ki, aprel döyüşləri istər-istəməz ermənləri öz real potensialları haqda obyektiv düşünməyə vadar edib - hərçənd, yenə də Qarabağ məsələsində kompromisdən yayınmağa cəhd edirlər.

Kompromis, daha doğrusu, ərazilərin boşaldılması isə qaçılmazdır. Ermənilər müharibə istəmirsə, buna getmək zorundadırlar. Torpaq əvəzinə - sülh, tərəqqi. Ermənistan üçün yeganə xilas formulu yalnız budur!

*****

**Siyasi analitiklərin Dağlıq Qarabağ problemi və işğal altındakı digər Azərbaycan torpaqları, həmçinin bu ərazilərin durumu ilə bağlı maraqlı yanaşma və təxminləri var.**

“Problem ondadır ki, biz işğal altındakı ərazilərin hansı vəziyyətdə olduğunu dəqiq bilə bilmirik, nədən ki, müşahidəçilərin ora girişi çətindir. Yalnız ümumi anlayış mövcuddur ki, rayonlar dağıdılıb və orada heç bir fəal həyat yoxdur. Heç nə də baş vermir. Erməni əhali həmin ərazilərə getmir, çünki Ermənistan rəhbərliyi bu ərazilərə gələcəkdə mübadilə obyekti kimi baxır”.

**Musavat.com-un məlumatına görə, belə bir fikri Rusiyadakı Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Rusiya prezidentinin səlahiyyətli şəxslərindən sayılan politoloq Sergey Markov “Vestnik Kavkaza” nəşrinə müsahibəsində bildirib.**

**Lakin politoloqun sözlərinə görə, böyük dağıntılara və zəhmət tələb eləməsinə rəğmən, Azərbaycan toplumu və dövləti həmin əraziləri bərpasına çox böyük həvəs və entuziazmla girişəcək və buna nail olacaq.** “Dünya birliyində Dağlıq Qarabağ ətrafındakı bu rayonların Azərbaycan üçün hansı anlam daşımasının dərki yetərlidirmi” sualına Markov belə cavab verib: “Bütün beynəlxalq sənədlər deyir ki, təkcə Dağlıq Qarabağ ətrafındakı rayonlar yox, elə Dağlıq Qarabağın özü də dünya ictimaiyyəti tərəfindən Azərbaycana məxsus ərazilər kimi qəbul edilir. Bunu BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri, digər sənədlər təsdiq edir. Ancaq beynəlxalq birlik çətin anlasın ki, Dağlıq Qarabağ ətrafındakı 7 rayon - Dağlıq Qarabağla eyni şey deyil. Situasiyanın unikallığı da ondadır ki, işğalçı tərəf təkcə ermənilərin kifayət qədər yüksək faiz təşkil etdiyi Dağlıq Qarabağ regionunu yox, həm də ermənilərin minimal sayda olduğu rayonları da zəbt edib. Azərbaycan bu faktı ictimai fikrin malı etməlidir - ki, mütəxəssislər və dövlət liderləri ilə yanaşı, əksər ölkələrin ictimai fikri də bunu bilsin, problemdən baş açsın”.

**Politoloq Ermənistanın hazırda 7 rayonu könüllü şəkildə işğaldan azad eləməsinin mümkünlüyünə də toxunub. Bu ərazilərin hərb yolu ilə azad edilməsi ehtimalı artıbmı?**

**Sergey Markov:** “Mən düşünürəm ki, ”Kazan formulu" üzrə kompromisin formalaşdırılması ehtimalı olduqca böyükdür. Həmin formula əsasən, Ermənistan sərhədlərin açılması, bölgənin hərbsizləşdirilməsi və Dağlıq Qarabağın statusu haqda danışıqların başlaması qarşılığında 7 rayonu azad edir. Əgər heç bir sülh anlaşması əldə olunmasa, o zaman ehtimal böyükdür ki, bu rayonlar silah gücünə azad olunacaq. Üstəlik, müharibə həmin 7 rayonla məhdudlaşmayacaq, Dağlıq Qarabağa da girəcək".

*****

**“Hazırda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistanın yalançı siyasəti və danışıqların imitasiyası prosesi davam edir”. Bunu axar.az-a açıqlamasında deputat vəkili Asim Mollazadə bildirib. O, son zamanlar Rusiya tərəfindən Dağlıq Qarabağda rus sülhməramlıların yerləşdirilməsi məsələsinin gündəmə gətirilməsini də şərh edib:**

“Münaqişənin həlli o zaman mümkün olacaq ki, Rusiya Ermənistana əmr edib müəyyən dəyişikliklərə nail olmaq üçün addımlar atacaq. O ki qaldı Qarabağda rus sülhməramlılarının yerləşdirilməsinə, əgər buna ehtiyac yaranarsa, o zaman ATƏT-in bununla bağlı hələ 90-cı illərdə qəbul etdiyi qərarı işə düşəcək. Qərara əsasən, sülhməramlı qüvvələr qonşu ölkələrin təmsilçilərindən ibarət olmalıdır. Bununla bağlı sülhməramlı qüvvələr qismində ATƏT-ə daxil ölkələrdən müəyyən nümayəndələr dəvət oluna bilər. Düşünürəm ki, MDB ölkələrindən, məsələn, Qazaxıstan bu prosesdə iştirak edə bilər. Lakin qonşu ölkələrin bu prosesə cəlb olunması çox ciddi təhlükələr yarada bilər”.

**Deputata görə, Qarabağ məsələsi ilə bağlı ən əsas qərar Rusiyanın Ermənistana müvafiq əmrindən ibarət olacaq:**

“Məhz bu zaman Ermənistanın hansısa addımlar atması gələcəkdə sülh sazişinin imzalanmasına gətirib çıxara bilər. Söhbət Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasından gedir. Yalnız bundan sonra çox ciddi danışıqlar prosesi başlaya bilər”.

**Öz növbəsində Qarabağa dair danışıqların hazırkı gedişini dəyərləndirən Sergey Markov hesab edir ki, indilikdə nizamlama prosesi “Kazan sənədi” əsasında aparılır və proses intensiv müzakirələr mərhələdəsindədir, lakin qapalı rejimdə aparılır.** “Orada çoxsaylı həll olunmamış məqamlar var. Ermənistan rəhbərliyi hansısa formada müqavimət göstərməyə çalışır, çünki rəsmi İrəvan yekun etibarilə 7 rayonu Dağlıq Qarabağın müstəqil statusunun Azərbaycan tərəfindən tanınması qarşılığında azad eləmək istəyərdi. Bu rayonların boşaldılması qarşılığında sərhədlərin açılması, bölgənin silahsızlaşdırılması və Dağlıq Qarabağın statusu haqda danışıqlara başlamasını isə erməni tərəfi məğlubiyyət kimi qəbul edir. Ancaq mənə bu, heç də məğlubiyyət kimi görünmür - bu, hər iki tərəf üçün çox mühüm kompromisdir. Zaman Ermənistanın əleyhinə işləyir. Ona görə ki, qüvvələr nisbəti daima Azərbaycanın xeyrinə dəyişir”, - deyə sonda Putinin müşaviri vurğulayıb.

*****

**Gerçəkdən də belədir, zaman Azərbaycanın xeyrinə işləyir. Həm də o səbəbə ki, vasitəçi dövlətlər də daxil, dünya xüsusən də 4 günlük aprel müharibəsindən sonra Qarabağ məsələsində məhz işğalçı Ermənistanın ilk addım atmalı olduğunu, Azərbaycan ərazilərindən çıxmalı olduğunu getdikcə daha güclü şəkildə dərk və qəbul edir.**



Oleq Kuznetsov

# Rus tarixçi-alim erməni terrorizminin tarixini yazdı

**Rusiyada erməni tarixi ilə bağlı saxtakarlıqları üzə çıxaran çoxlu sayda elmi araşdırmanın müəllifi, tarixçi alim və politoloq Oleq Kuznetsovun “XX yüzillikdə transmilli erməni terrorunun tarixi” kitabı sentyabrın 1-dən etibarən bütün internet istifadəçilərinin məhdudiyyətsiz istifadəsinə verilib.**

Bu barədə APA-nın Moskva müxbirinə Oleq Kuznetsov özü məlumat verib. O, sentyabrın 3-də Rusiyada terror qurbanlarının həmrəyliyi gününün qeyd olunduğunu bildirib: “Bu münasibətlə ”XX yüzillikdə transmilli erməni terrorunun tarixi" monoqrafiyam sentyabrın 1-dən etibarən bütün internet istifadəçiləri üçün əlçatan olacaq. Oxucular bu kitabın elektron variantını məhdudiyyətsiz olaraq http://oleg-kuznetsov.ru/bibliography/500/ ünvanından yükləyə bilərlər".

Qeyd edək ki, “XX yüzillikdə transmilli erməni terrorunun tarixi” kitabı SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin xidməti materialları, erməni terrorçularının Azərbaycan və Rusiya ərazisində törətdikləri cinayətlərə dair cinayət işləri əsasında yazılıb.

Analitik Oleq Kuznetsov Rusiyanın Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı və prinsipial mövqeyini ardıcıl şəkildə müdafiə edən ekspertlərindən biridir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 194 (6515) 2 sentyabr 2016

# İşgəncələrə Qarşı Komitədə möhür davası

## Elçin Behbudovun vəfatından sonra onun yerinə qurumda sədr müavini işləyən Elmira Behbudova təyin olunub, amma...

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsində möhür qalmaqalı böyüyür. Komitə sədri Elçin Behbudovun vəfatından sonra onun yerinə həyat yoldaşı, qurumda sədr müavini işləyən Elmira Behbudova təyin olunub. Komitənin qanuni sənədlərinin və möhürlərin E.Behbudovanın nəzarətində olmasına baxmayaraq, əvvəllər komitədə ekspert kimi fəaliyyət göstərən Elşad Həmidov da sədrliyə iddialıdır.**

"Yeni Müsavat"ın əməkdaşı məsələyə aydınlıq gətirmək üçün E.Behbudova ilə görüşüb. E.Behbudova dedi ki, özünü komitənin sədri elan edən E.Həsənovun saxtakarlıq edib: "1995-ci ildən Elçin Behbudov təşkilatı yaratdığım gündən onun birinci müavini olmuşam. Bu sənədlərdə də öz əksini tapır. 2015-ci ilin noyabr ayında Elçin Behbudov rəhmətə getdikdən bir ay sonra toplantı keçirdik və komitənin idarə heyətinin səs çoxluğu ilə sədr seçildim. Özünü saxta sədr kimi qələmə verən Elçin Behbudov Elşad Həmidovu 2005-ci ildə komitəyə ekspert götürüb. 2007-ci ildə isə müəyyən qüsurlarına görə komitədən xaric edildi. Onun xaric edilməsinə dair sənədlər var. Elçin müəllim rəhmətə getdikdən sonra Elşad Həmidov dekabr ayının 25-də toplantı keçirərək saxta şəkildə özünü sədr elan etdi. Orada iştirak edənlər arasında komitənin heç bir üzvü və yaxud idarə heyətinin üzvləri olmayıb. Komitədən bixəbər olan adamları toplayıb ki, çoxluq olsun".

**E.Behbudovanın sözlərinə görə, Elşad Həmidov saxta möhür də düzəldib və nazirlikləri saxta sənədlərlə aldadır:** "Bizim təşkilat hər iki ildən bir, qeydiyyatdan keçir. İndi yeni sədrin təyin olunması üçün Ədliyyə Nazirliyindən qeydiyyatdan keçməlidir. Elşad Həmidov komitənin saxta möhürünə oxşar möhür düzəldib, saxta sənədlər hazırlayıb Baş İdarəyə göndərib. Komitənin hüquqi ünvanı hazırkı yaşadığımız yer olduğu üçün ona rədd cavabı gəlib. Mübahisəli olduğu üçün iş məhkəməyə göndərildi. Məhkəməyə isə komitənin bütün sənədlərini göstərdim, hər bir sənəd qanuni şəkildə qaydasında idi. Mən başa düşə bilmirəm, bu insan kimə arxalanır, bu cür qanunsuz əməllər törədir".

**E.Behbudova bildirdi ki, təşkilatın bütün qanuni sənədləri onda olduğu halda, E.Həmidovun sədrliyə iddia etməsi və dövlət qurumlarını aldatması cinayət əməlidir:** "Bütün QHT-lərin vacib sənədləri olur. İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin də Ədliyyə Nazirliyindən qeydiyyatdan keçməsi ilə bağlı sənədi var. Bu gün həmin sənəd məndədir. 10 ildən artıq fəaliyyəti olan təşkilatın sənədlərini saxtalaşdırmaq absurddur. Qeydiyyat, reyestr yoxdursa, bu adam necə fəaliyyət göstərir? Bunun özü də cinayətdir. Elşad Həmidov özünü sosial şəbəkələrdə, xəbər portallarında sədr kimi qələmə verir. Mən Baş İdarə ilə əlaqə saxlamışam. Elşad Həmidov adına qeydiyyata alınan sənəd yoxdur. Deməli, bu adam saxtakarlıqla monitorinqlər aparır. İdarələri də qınamaq olmaz. Çünki görürlər ki, möhür var, vəsiqənin üzərində komitənin adı da var. Özü açıqlama verib ki, Müdafiə Nazirliyində monitorinqlər keçirib. Təşkilat yaranandan möhür evdə olub, mən saxlamışam. Noyabr ayının 11-də, rəhmətlik Elçin müəllim Sabirabadda, Füzulidə, Saatlıda, Zərdabda monitorinqlər aparıb. Həmi zaman da möhür üzərində olub və orada xəstələnən zaman sənədləri və möhürü də evə gətirib. Elşad isə deyir ki, guya mən möhürü o zaman oğurlamışam. Mən öz möhürümü özümdən niyə oğurlayım? O, özünün hazırladığı saxta möhürlə Ədliyyə Nazirliyinin Baş İdarəsini aldadıb. Komitənin möhürünə bənzədib, ancaq yanaşı qoyub müqayisə etsək tamamilə fərqlidir. Bu, qeydiyyatdan keçirmədən, başqasının təşkilatını oğurlamaqdır".






Məsələ ilə bağlı İşgəncələrə Qarşı Komitənin qadınlarla iş üzrə müavini vəzifəsində çalışan Sevil Allahverdiyeva ilə əlaqə saxladıq.

**S. Allahverdiyeva də bildirdi ki, idarə heyəti üzvləri sədr kimi Elmira Behbudovanı seçsə də, Elşad Həmidov saxtakarlıqla komitəni onlardan almaq istəyir:** "2006-cı ildən Elçin Behbudovla birgə çalışmışıq. Komitənin fəaliyyəti illərdir ki, göz qabağında olub. Son zamanlar xoşagəlməz hadisələr yaşanıb. Təşkilatı qanunsuz yolla saxtalaşdırıb ələ keçirmək istəyənlər peyda olub. Yeni sədrin təyin olunması üçün idarə heyəti toplaşıb, səs çoxluğu ilə Elmira Behbudovanı seçdik. İndi tanımadığımız şəxs özünü sədr kimi təyin edir. Elşad Həmidov özünü sədr kimi qələmə verir, bölmələrdə öz əlaqə nömrələrini qaynar xətt kimi lövhələrə asır. Halbuki həmin şəxs sıradan bir üzv kimi çalışıb. İdarə heyətində və yaxud məsul şəxs olmayıb. Heç bir layihədə, tədbirlərdə iştirak etməyib. Mətbuat danışır ki, guya monitorinqlər edib. Biz DİN-də zəng edib, bu barədə öyrənmişik. Nazirlikdə də onu heç kim tanımır. Bir sözlə, Elşad Həmidov saxtakarlıqla məşğuldur".

**Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**

# Xətaidə daha bir yaşıllıq məhv edilir

## "Ağaclara benzin töküb yandırıblar ki, yerində obyekt tiksinlər"










**Binaların həyətində olan 10-15 ağacı kəsib, yerində ya obyekt, ya da bina tikmək dəb halını alıb. Bir az pulu və lazımlı yerdə adamı olan şəxslər yerli icra orqanlarına rüşvət verib, istədikləri yeri zəbt edirlər.**

Onların 90 faizinin bütün sənədləri formal olaraq qaydasında olur. Çünki sənədləri verən dövlət qurumları tikinti üçün icazə verdikləri yerə bir dəfə də olsun gedib baxmırlar. Sadəcə, qol çəkib, pullarını alırlar. Beləcə, yüzlərlə yaşıllıq məhv olur, yerində isə çoxmərtəbəli binalar inşa edilir.

Belə hallardan biri Xətai rayonu, Məzahir Rüstəmov küçəsi 20 ünvanında baş verir. Belə ki, binanın önündə yerləşən bağın ağaclarına göz dikən şəxslər ənənəvi üsullara əl atıblar. Həmin yaşıllıq düşmənləri ərazidəki ağacları rahatlıqla kəsmək və yerində obyekt tikmək üçün bəzi ağacları kökündən kəsiblər, bəzilərini isə benzin töküb yandırıblar.

Sakinlər ağaclar yandırılarkən heç nədən şübhələnməyiblər. Elə fikirləşiblər ki, hansısa uşaqların dəcəlliyidir. Amma sonradan hər şeyin üstü açılıb. Məlum olub ki, Həsən adlı şəxs öz obyektini bəzi şəxslərə satıb və onlar təkcə obyektin yeri ilə kifayətlənməyiblər. Məqsədləri bütün ərazini zəbt edib 5 mərtəbəli obyekt tikməkdir.

**Bu haqda məlumatı musavat.com-un reportyoruna bina sakinləri verib. Onların sözlərinə görə, 2 aydır ki, tanımadıqları şəxslər ərazidə tikinti aparmaq üçün cəhd edirlər:** "Binada 72 ailə yaşayır. Balaca uşaqlarımız var. Onların oynaya biləcəkləri park onsuz da yoxdur. Bircə bu ağaclar qalıb. Camaat ağacların kölgəsində oturur, təmiz hava alırlar. İndi hansısa pullu şəxslər buranı zəbt edib, bina tikmək istəyirlər. 10-a yaxın ağacı kəsiblər. Bəzilərinə benzin töküb yandırıblar. Biz buranı məhv etmələrinə imkan vermərik.

MİS buraya baxmır. Zibilləri təmizləyən də yoxdur. Uşaqların vaxt keçirə biləcəkləri yer belə yoxdur. Balaca parkımız var, onu da məhv etmək istəyirlər".

**Şikayətçilərin dediklərinə görə, Həsən adlı şəxs yaxınlıqdakı obyektini də bu tikintiyə görə satıb:** "Əvvəl bu obyektin yerində "moyka" var idi. Səs-küyə görə camaat narazı oldu. Həsən buranı aldı, 2 mərtəbə obyekt tikdi, gözəllik salonu açdı. İndi məlumat var ki, burada obyekt tikmək istəyənlərlə anlaşıb və obyektini onlara satıb. Onlar burada 5 mərtəbəli bina tikəcəklər".

Ərazidə olarkən adıçəkilən Həsən adlı şəxs hadisə yerinə gəldi. Sakinlərlə mübahisə edən şəxs "burada park olacaq" deyib. Daha sonra isə əməkdaşımızın "özünüzü təqdim edin zəhmət olmasa. Parkı siz salacaqsınız" sualına "get, işinlə məşğul ol" deyərək cavab verən həmin şəxs qaçaraq oradan uzaqlaşıb.

**Qaçıb girdiyi yer yaxınlıqdakı gözəllik salonu olduğu üçün əməkdaşımız onu elə orada yenidən suala tutub. Bu zaman Həsən adlı şəxsin soyadının Rzazadə olduğu məlum olub. O, əvvəlcə adının Həsən olduğunu, amma məsələnin ona aidiyyəti olmadığını desə də, sonradan hər şeyi etiraf edib:** "Obyekti mən tikmirəm, tikən burada yoxdur. Sənəd ardınca gedib. Mən ağac kəsməmişəm. Bağın öz yiyəsi var. Mən obyektimi böyütmək fikrindəyəm. Ərazini təmizləmək istəyirəm, onu da qoymurlar".

**Xətai Rayon İcra Hakimiyyəti bu ərazidə ağacların kəsilməsinə və yerində obyekt tikilməsinə niyə göz yumur? Bu sual bizi çox maraqlandırdığı üçün icra hakimiyyəti ilə əlaqə saxladıq. Xətai RİH-in baş memarı Vadim Surxayev bildirdi ki, həmin ərazidə heç biri tikinti aparıla bilməz:** "Ərazidə yetərincə sıxlıq var. Orada tikintiyə icazə verilməyib və verilə də bilməz. Ağacların kimlər tərəfindən yandırıldığını bilmirik. Amma bununla bağlı göstəriş vermişik ki, həmin şəxs və ya şəxslər tapılsın və hüquq-mühafizə orqanlarına təhvil verilsin".

Musavat.com kiçik bir araşdırma apararaq, Həsən Rzazadənin də kimliyi barədə maraqlı faktlar əldə edib. Məlum olub ki, H.Rzazadə Xətai Rayon İH-in şöbə müdiri olub. O, bu ilin iyul ayının 27-də yaşı ilə əlaqədar təqaüdə göndərilib. (Rəsmi saytda olan məlumata keçid linki - http://khatai-ih.gov.az/news/740.html). Təntənəli formada, gül dəstələri ilə yola salınan iki əməkdaşdan biri olan H.Rzazadə, görünür, təqaüdə çıxmağa az qalmış qazanc yerini həll etməyə çalışıb.

**Maraqlı bir fakt da var ki, Rzazadə Həsən Hacı oğlu şöbə müdiri olduğu müddətdə obyekt sahibi necə olub? Bu obyektin sənədləşməsində vəzifəsinin rolu və ya xüsusi təsiri olubmu? Vəzifədən sui-istifadə varmı? Bu suallar hər kəsi maraqlandırır. Xətai RİH-in baş memarı Vadim Surxayev bu suallara da cavab verib:** "Həsən müəllim icra hakimiyyətində işləyib, amma şöbə müdiri olmayıb. Bu məsələnin ona aidiyyəti olduğunu düşünmürəm. Çünki heç bir tikintiyə icazə verilməyib".

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 194 (6515) 2 sentyabr 2016




# Zilhiccə - mənəvi imkanlarla bol olan ay

Cümə söhbətləri

**Bismillahir-Rahmənir-Rahim! Artıq mübarək zilhiccə ayı yaxınlaşmaqdadır. Müqəddəs dinimiz bu ayın şərafətli bir ay olduğunu bildirir. Mübarək Zilhiccə ayı vücudi inkişaf üçün gözəl fürsətlər təqdim etmə baxımından çox böyük əhəmiyyət kəsb edir. Rəhim və Rəhman Allah insanın ruhi naqislikdən qurtulması, mənəvi kamilliyə çatması üçün xüsusi vasitələr qərar vermişdir. Bunların arasında xüsusi məkanlar, xüsusi zamanlar, şəraitlər də vardır.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Məsələn, insan müəyyən zamanlarda namaz qılır, oruc tutur - nəticədə, çox özünəməxsus bir ruhi tərəqqi əldə etmiş olur. Şəfaət diləmə, təvəssül etmə, ziyarət, həcc - bunların hamısının çox böyük bir hikməti vardır. Daxil olan zilhiccə ayı məhz belə məqamlarla kifayət qədər zəngindir.

## Mübarək tarixlər

Zilhiccə ayının ilk ongünlüyü - fəzilət və bərəkətliliyin zirvəsi olan günlərdir. Əziz Allah Elçisindən (s) rəvayət edilir ki: **«Heç bir əyyamda edilən xeyirli əməl və ibadət, Allah Təala dərgahında bu on gündə (zilhiccə ayının ilk ongünlüyü) ediləndən daha sevimli deyildir».**

Zilhiccə ayının 10-u - müqəddəs Qurban bayramı günüdür. Fədakarlıq, özünün olandan Allah üçün keçmək məktəbidir Qurban.

Zilhiccə ayının 18-i - Qədir-Xum bayramıdır. Həzrət Əlinin (ə) Rəsuli-Əkrəmin (s) canişini və vəsisi elan edildiyi gündür. Dinin kamala çatdığı, nemətin tamamlandığı gündür.

Bu ayın müxtəlif tövsiyə olunmuş əməl və ibadətləri vardır. Ən əsası isə əməllərimizin qürbət qəsdi ilə (Allaha yaxınlaşmaq niyyətilə) yerinə yetirilməsinə diqqət etmək lazımdır.

Mübarəklik elə ayın ilk günü başlayır - zilhiccənin 1-i mübarək bir tarixdir - hicrətin 2-ci ilində Həzrət Əli (ə) ilə Xanım Fatimənin (s.ə) izdivacı bu gündə baş vermişdir. Hamımızın qədrini bilməli olduğu bir gündür bu. Niyə? Çünki həmin gün yaşayış tərzinin, ailə qurulmasının, ailə üzvlərinin bir-birinə münasibətinin, qarşılıqlı hörmətin dəqiq islami modelidir. Bu günü qeyd etmək, bu günün duyğuları ilə yaşamaq çox önəmlidir. Çünki insan bu günə müəyyən münasibət təzahür etdirdikdə istər-istəməz özünü, həyat tərzini, ailə münasibətlərini, həyat yoldaşına, uşaqlara qayğını bu idealа uyğunlaşdırmağa çalışır. Yəni əgər insan üçün ailə, insanlara münasibət, yaşayış tərzi, ümumilikdə dəyər baxımından Həzrət Əli (ə) ilə Xanım Fatimə (s.ə) simvoldursa, bir nümunədirsə, deməк onların ailə qurduqları gün də bu insan üçün ələmətdar bir tarixdir. Özü də elə bir tarix ki, real tərəqqi üçün bir impuls rolunu oynamış olsun.

Bu gün oruc tutmaq çox tövsiyə olunan əməllərdəndir. İslami mənbələrə görə, ilk 9 günü tutulan oruca görə, insana bir ömür tutulan orucun savabın əta edir Mütəal Allah. Eləcə də bu 9 günün hər birinin özünəməxsus zikrləri vardır. Əslində bütün bunlar, insanın daima Allah dərgahında olmasının fərqinə varması üçün bir ilahi lütflərdir.

Təkcə onu qeyd etmək kifayətdir ki, «Tərviyə günü» adlanan 8-ci günün orucunun 60 illik kəffarəni aradan aparmaq qədər fəziləti vardır.

9-cu günə - Ərəfə gününə keçən gecə, 170 ilin ibadətinin savabını verən, tövbələrin qəbul olunduğu, duaların müstəcəb olduğu gecələrdəndir. Ərəfə gününün özünə gəldikdə isə, bu günün fəzilətləri o qədər böyükdür ki, hətta onu bayram kimi qeyd edirlər. Ərəfə günü ibadətə, itaətə dəvət, ruhun pərvazı günüdür, Allahın ehsan günü, iblisin xar, həqir olan, qovulan günüdür.

Ərəfə günündə İmam Hüseyni (ə) ziyarət edə bilən insan, 1000 həcc, 1000 ümrə, 1000 cihadın savabını apara bilər. Həmin gün tövsiyə olunan əməllərdən biri də əsr namazından sonra, Ərəfə duasını oxumazdan öncə 2 rükət namaz qılmaqdır ki, bunu qılan və günahlarını etiraf edərək, məğfirət diləyən insan Ərəfat savabına malik olar və günahları bağışlanar.

## Zilhiccə ayının duası

Zilhiccə ayının əhəmiyyətini tam surətdə açıqlamaq üçün dinimizin gözəl dua töhfələri vardır. İmam Cəfər Sadiqdən (ə) nəql edilən, zilhiccə ayına aid gündəlik duaya diqqət yetirək. Bu duanın hər bir məqamı insanın kamilləşmə arzusuna sanki bir cavabdır. Öncə bu günlərin əhəmiyyətliyi çatdırılır: **«Allahım! Bu, bir günlərdir ki, Sən o biri günlərdən daha fəzilətli və daha şərəfli qərar verməsən». «Sən Öz lütf və mərhəmətinlə, mənə bunu dərk etməyi nəsib etmisən»** - bu, bir İlahi lütfdür ki, insan bu günlərin əhəmiyyətini anlayıb, onlardan bəhrələnə bilsin.«Bəs (onda) nazil et mənə bu günlərin bərəkətini. Və bu günlərə aid nemətlərdən mənə bolluca nəsib et!»

Sonra dua edən bəndə, çağırışını mübarək salamlarla bərəkətləndirir: **«Allahım, Səndən istəyim budur ki, Həzrət Peyğəmbərə (s) və onun Əhli-Beytinə (ə) salamı çatdırasan».** Sonra duada düzgün seçimdə yardım dilənir: «Allahım! Səndən istəyim budur ki, bu günlərdə hidayət yoluna, iffət yoluna, insanlardan ehtiyacsızlıq yoluna düşməyi mənə nəsib edəsən. Və o əməllərə yönəldəsən məni ki, bu əməllərə Səndə sevgi var və Sən bu əməllərdən razısan».

Duanın növbəti mərhələsində bəndə Rəbbinə tərəf öz gizli vücudi istəklərini yönəldir: **«Allahım!, Sən, ey bütün şikayətlərin yönəlik ünvanı! Ey bütün daxili sirləri bilən və eşidən bir kəs! Ey bütün varlıqların şahidi! Ey bütün gizlinləri bilən! Həqiqətən Səndən diləyirəm, Səndən istəyimiz budur ki, Peyğəmbər (s) və Əhli-Beytinə (ə) salam göndər və bütün bəlaları məndən bu günlərdə uzaq et! Və bu günlərdə mənim dualarımı müstəcəb et! Bu günlərdə məni qüvvətləndir! Bu günlərdə o şeyləri mənə inayət göstər və tövfiq əta et ki, onları sevirsən, onlarda razılığın var! Sənə itaət etmək tövfiqini, Sənin Rəsuluna (s), Sənin Məsumlarına (ə), onların pak naiblərinə itaət etmək tövfiqini istəyirəm Səndən, ey Allah!»**

Dua edən mübarək günlərin xeyir-bərəkətinin ona hədiyyə olunmasını istəyir: **«Allahım! Ey rəhimlilərin Ən Rəhimlisi! Mən həqiqətən Səndən istəyirəm ki, Peyğəmbər (s) və onun Əhli-Beytinə (ə) salam göndər! Bu günlərdə mənə riza və təslim məqamını hədiyyə et! Sən həqiqətən duaları eşidənsən! Bu günlərdə asimandan nazil etdiyin xeyirlərdən məni məhrum etmə! Allahım! Məni günahlardan pak qərar ver!»**

Sonra yenə Allahın sevimli-seçilmiş bəndələrinə salam göndərməklə dua zinətləndirilir və vacib olan məsələlər istənilir: «Ey qeybləri bilən! Mənə əbədi cənnəti vacib et! Salam göndər Peyğəmbərə (s) və onun Əhli-Beytinə (ə)! Bu günlərdə məni o günahı etməyə nəsib etmə ki, onu bağışlamayacaqsan! Mənə o qəmi nəsib etmə ki, ondan nicat yoxdur! Mənə o borcu nəsib etmə ki, onu ödəyə bilməyim! Mənə o itkini nəsib etmə ki, onu geri qaytara bilməyim! Mənə o dünya və axirət ehtiyacı nəsib etmə ki, onlar yüngül və həll edilələ olmasın! Həqiqətən, ey Allah, Sən hər bir şeyə qadirsən, hər bir şey Sənin hökmündədir».

Allahını tanıyan bəndənin müraciətidir bu: **«Ey gizlinləri bilən Allah! Ey göz yaşı axıdanların rəhm edəni! Ey duaları müstəcəb edən! Ey göylərin və yerlərin Rəbbi! Ey o Kəs ki, səslər onun yanında səhv salınmaz! Salam göndər Peyğəmbərə (s) və onun Əhli-Beytinə (ə)! Səndən diləyirəm bu günlərdə məni oddan azad olunmuşlardan, cəhənnəm odundan xilas olunmuşlardan qərar verəsən! Və bizlərə bu günlərdə Sənin cənnətinə yiyələnməyi nəsib edəsən! Öz rəhmətinlə bizi nicat tapmışlardan qərar verəsən! Səni and verirəm rəhmətinə, ey rəhmətlilərin ən Rəhmətlisi! Allahın salamı olsun ağamız Muhəmməd peyğəmbərə (s) və onun bütün Əhli-Beytinə (ə)!»**

İmamlarımız (ə) bu dualar vasitəsilə bizə özümüzü tanımağı, Rəbbimizi tanımağı və Yaradana olan müraciətin mərifətini çatdırırlar. Mübarək Zilhiccə ayının digər gözəl əməlləri də vardır ki, dua kitablarında müfəssəl şəkildə zikr olunmuşdur. Allah Təala bütün insanları dua əhlindən qərar versin və Allaha tapınanlar sırasına daxil etsin!

## Zilhiccə ayının ilk 10 gününün əməlləri

**1.** Bu ayın ilk 9 gününü oruc tutmaq və bu orucların savabı bütün ömrü boyu tutulan orucların savabına bərabərdir.

**2.** Bu on günün hamısında məğrib və işa namazları arasında ikirükətli namaz qılınır. Hər rükətdə "Həmd"dən sonra 1 dəfə "İxlas" surəsi, "Əraf" surəsinin 142-ci ayəsi oxunur və hər kim bu namazı qılarsa, hacıların savablarına şərik olar.

**3.** İlk gündən Ərəfə gününün əsrinə qədər sübh namazından sonra və məğrib namazından əvvəl İmam Sadiqdən (ə) nəql edilən bir duanı oxumaq və bu dua "Məfatihul-cinan" kitabının azərbaycancaya tərcüməsinin 523-cü səhifəsində verilmişdir.

**4.** Hər gün ilk ongünlükdə Həzrət Cəbrayilin (ə) Həzrət İsaya (ə) Allahın hədiyyə etdiyi duanı oxumaq və həmin dua da "Məfatihul-cinan"da 525-ci səhifədə verilmişdir.

**5.** Hər gün İmam Əlinin (ə) buyurduğu duanı oxumaq və o da həmin kitabın 526-cı səhifəsində verilmişdir.

**Birinci günün əməlləri:**

**1.** Oruc tutmaq və onun savabı 80 ayın oruc savabına bərabərdir.

2. Həzrət Fatimənin (s.ə) namazını qılmaq . Dördrükətli namazdır, 2 ədəd ikirükətli namaz kimi qılınır və hər rükətdə "Həmd"dən sonra 50 dəfə "Tövhid" ("İxlas") surəsi oxunur və salamdan sonra Həzrət Zəhranın (s.ə) təsbihatı deyilir. Dua edəndən sonra belə deyirsən: **"Subhanə zil izziş-şamixil munif, subhanə zil cəlalil bazixil əzim, subhanə zil mulkil faxiril qədim, subhanə mən yəra əsərən nəmləti fis-səfa, subhanə mən yəra vəq'ət təyri fil həva, subhanə mən huvə hakəza və la hakəza ğəyruh".**

**3.** Zalımın şərini uzaqlaşdırmaq üçün bu gündə deyilsin: "Həsbi, həsbi, həsbi min suali ilmukə bihali".

Səkkizinci gün tərviyə günüdür və bu gün oruc tutmağın fəziləti vardır. Hədislərə görə, 60 ilin kəffarəsidir.

**Doqquzuncu gecə.**

Bu gecə mübarək gecələrdəndir və dua gecəsidir. Bu gecədə edilən tövbələr qəbul olar, dualar yerinə yetər. Hər kəs bu gecəni ibadət halında keçirərsə, 170 ilin ibadətinin savabını qazanar. Bu gecə üçün əməllər zikr edilmişdir:

**1.** Hər kim ("Məfatih" kitabının 527-ci səhifəsində) olan duanı bu gecə və cümə gecələrində oxuyarsa, Allah onu bağışlayar.

**2.** Verilən bu zikri min dəfə demək: "Subhanəlləzi fis səmai ərşuh, subhanəlləzi fil ərzi hukmuh, subhanəlləzi fil quburi qəzauh, subhanəlləzi fil bəhri səbiluh, subhanəlləzi fin nari sultanuh, subhanəlləzi fil cənnəti rəhmətuh, subhanəlləzi fil qiyaməti ədluh, subhanəlləzi rəfəəs səma, subhanəlləzi bəsətəl ərz, subhanəlləzi la məlcəə və la mənca minhu illa iləyh". (səh. 537)

3. "Məfatihul-cinan" kitabının azərbaycancaya tərcüməsinin 538-ci səhifəsində verilmiş "10 təsbihat"ı oxumaq.

**4.** İmam Hüseyni (ə) ziyarət etmək.

## Doqquzuncu gün - Ərəfə günü

Ərəfə günü - ən böyük əyyamlardan biridir. Baxmayaraq ki, bayram adını almamışdır, bu o gündür ki, Allah Öz bəndələrini ibadətə və itaətə dəvət etmişdir. Bu günü şeytanı xar etmiş və başqa vaxtlardan daha çox alçaltmışdır.

Hədislərdə oxuyuruq ki, Ərəfə günü İmam Səccad (ə) bir yoxsulun səsini eşidir ki, insanlardan kömək diləyir. İmam (ə) ona buyurur: "Vay olsun sənə! Məgər bu cür bir gündə Allahdan qeyrisindən istəyirsən? Halbuki bu günü Allahın fəziləti hətta dünyaya gəlməmiş uşaqlara belə şamil olur".

**Bu günün xüsusi əməlləri vardır:**

**1.** Qüsl almaq.

**2.** İmam Hüseyni (ə) ziyarət etmək. Bu ziyarətin savabı min həcc və min ümrə və min cihad savabına bərabərdir. Əgər kimsə həmin günü İmamın (ə) ziyarətinə getməyə müvəffəq olarsa, savabı Ərəfatda olanlardan az deyildir.

**3.** Əsr namazından sonra "Ərəfə" duasını oxumamışdan qabaq səma altında iki rükət namaz qılmaq və Allaha günahlarını etiraf etmək. Birinci rükətdə "Həmd"dən sonra "Tövhid" ("İxlas") və ikinci rükətdə isə "Həmd"dən sonra "Kafirun" surəsini oxumaq.

**4.** Bu gün oruc tutmaq, əgər ibadətlərə mane olmayacaqsa, müstəhəbdir.

**5.** Ərəfə gecəsində zikr edilən təsbihləri demək. Ondan sonra yüz dəfə demək: "Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər. "("Təsbihati-ərbəə"), 100 dəfə "Tövhid" surəsini və 100 dəfə də "Ayətül-kursi"ni demək. Sonra 100 dəfə salavat demək lazımdır. Bundan sonra bu duanı oxumaq: **"La ilahə illəllah, vəhdəhu la şərikə ləh, ləhul mulku və ləhul həmd, yuhyi və yumit, və yumitu və yuhyi, və huvə həyyun la yəmut, biyədihil xəyru və huvə əla kulli şəy'in qədir".**

**Sonra zikrlərin hər birini 10 dəfə demək: "Əstəğfirullahəlləzi la ilahə illa huvəl həyyul qəyyumu və ətubu iləyh"**

"Ya Əllahu" - 10 dəfə

"Ya Rəhmanu" - 10 dəfə

"Ya Rəhimu" - 10 dəfə

"Ya bədiəs səmavati vəl ərzi ya zəl cəlali vəl ikram" - 10 dəfə

"Ya həyyu ya qəyyum" - 10 dəfə

"Ya hənnanu ya mənnan" - 10 dəfə

"Ya la ilahə illa ənt" - 10 dəfə

"Amin" - 10 dəfə

*("Məfatihul-cinan" kitabının azərbaycancaya tərcüməsinin 538-ci səhifəsində verilmişdir):*

Sonra bu zikri demək: "Əllahummə inni əs'əlukə ya mən huvə əqrəbu iləyyə min həblil vərid, ya mən yəhulu bəynəl mər'i və qəlbih, ya mən huvə bil mənzəril ə'la və bil ufuqil mubin, ya mən huvər rəhmanu ələl ərşistəva, ya mən ləysə kəmislihi şəy', və huvəs-səmiul bəsir, əs'əlukə ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd". *("Məfatihul-cinan" kitabının azərbaycancaya tərcüməsinin 539-cu səhifəsində verilmişdir)*

Sonra da Allahdan hacətini istəyirsən.

**6.** Bu günü "Ummi Davud" duasını oxumaq da tövsiyə edilir.

**7.** "Məfatih" kitabının 540-cı səhifəsindəki təsbihi demək.

**8.** İmam Hüseynin (ə) Ərəfatda oxuduğu duanı oxumaq ("Məfatih" kitabının 541-ci səhifəsində verilmişdir).

**9.** Cameyi-Kəbirə duasını oxumaq.

## Onuncu gecə

Bu, o dörd gecələrdəndir ki, əhya saxlanılması tövsiyə edilmişdir. Bu gecə səmanın qapıları açılar. Bu gecə oxunan dua: "Ya daiməl fəzli ələl bəriyyə.." duası.

Onuncu gün (Qurban bayramı)

Əməlləri:

**1.** Qüsl.

**2.** Qurban bayramının namazı.

**3.** "Səhifeyi-Səccadiyə" dua kitabının 48-ci duasını oxumaq.

**4.** Nüdbə duası.

**5.** Qurban kəsmək.

**6.** Namazdan sonra bu təsbihləri təkrar etmək: "Əllahu əkbəru Əllahu əkbər, la ilahə illəllahu vəllahu əkbər, Əllahu əkbəru və lillahil həmd, Əllahu əkbəru əla ma hədyana, Əllahu əkbəru əla ma rəzəqəna min bəhimətil ən'am, vəl həmdu lillahi əla ma əblana". ("Məfatih" kitabının 568-ci səhifəsində verilmişdir)

Bunlar Zilhiccə ayının on gününün əməlləridir. Allah Təala bizlərə bu əməlləri edib, Ona yaxınlaşmaq tofiqatını nəsib etsin!

YENİ MÜSAVAT
N 194 (6515) 2 sentyabr 2016

# Rusiyada Azərbaycan vətəndaşı rüşvətə görə həbs olundu

**Rusiyanın Kalininqrad vəlayətinin Quryevski rayonunda Azərbaycan Respublikasının vətəndaşı polis məmuruna rüşvət verməyə cəhd etdiyi üçün həbs cəzasına məhkum edilib.**



"Report" xəbər verir ki, bu barədə Quryevski rayon məhkəməsinin mətbuat xidmətindən bildiriblər.

Məlum olub ki, vətəndaşımız Rusiya ərazisində qanunsuz şəkildə yaşayıb. 2016-cı il may ayının 24-də sahə polis müvəkkili həmin şəxsi inzibati qanun pozuntusuna görə protokol tərtib etmək və məsuliyyətə cəlb etmək üçün onu polis bölməsinə dəvət edib.

Azərbaycan vətəndaşı da cəzadan qaçmaq üçün sahə polis müvəkkilləri və yetkinlik yaşına çatmayanlarla iş üzrə şöbənin rəisinə əvvəlcədən vəd verdiyi rüşvətin bir hissəsini - 5000 rubl verib. Əvvəlcədən razılaşdırılmış rüşvətin məbləği isə 50000 rubl olmalı idi.

Belədə polis məmuru ona verilən bu pulu götürməkdən imtina edib. Rüşvəti təqdim edən qanunsuz miqrant saxlanılıb, pullar müsadirə olunub.

Məhkəmənin hökmü ilə Azərbaycan vətəndaşı Rusiya Federasiyası Cinayət Məcəlləsinin 291-ci maddəsi - vəzifəli şəxsə rüşvət vermək üzrə mühakimə olunub. O, 4 ay müddətinə azadlıqdan məhrum edilib və cəzasını ümumi rejimli cəzaçəkmə koloniyasında çəkəcək. Hökm qanuni qüvvəyə minməyib.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Bu gün Azərbaycanda leysan yağacaq

**Sentyabrın 2-də Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, gecə və səhər yarımadanın bəzi yerlərində yağış yağacağı gözlənilir.**

Güclü şimal-qərb küləyi gündüz mülayimləşəcək.

Havanın temperaturu gecə 20-23° isti, gündüz 24-27° isti, Bakıda gecə 21-23° isti, gündüz 25-27° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında sabah şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 18-23° isti, gündüz 25-30° isti, dağlarda gecə 13-17° isti, gündüz 18-23° isti olacağı gözlənilir.

## Bakıda yol polisi bıçaqlanıb

**Bakıda yol polisi bıçaqlanıb. "Report" xəbər verir ki, hadisə paytaxtın Binəqədi rayonu, M.Cəlal küçəsi 143A ünvanında qeydə alınıb. Həmin ünvanda Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) polis serjantı 1983-cü il təvəllüdlü Rəşad İsmayılov naməlum şəxs tərəfindən çiyin nayihəsindən bıçaqlanıb.**

R.İsmayılov Daxili İşlər Nazirliyinin hospitalına yerləşdirilib.

Faktla bağlı araşdırma aparılır.


## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**




## Bakıda tanınmış həkimin gənc oğlu yatıb oyanmadı

**Bakıda baş həkimin gənc oğlu qəflətən dünyasını dəyişib. Criminal.az saytı xəbər verir ki, tibb mərkəzlərindən birinin rəhbəri Davud Qüdrətovun oğlu Adil gecə yatıb oyanmayıb.**

D.Qüdrətov criminal.az-a açıqlamasında bildirdi ki, oğlu qəfləti ölüm keçirib. Onun sözlərinə görə, hələlik ölümün dəqiq səbəbi məlum deyil. Gecə yatıb, oyanmayıb.

''Boyuna atan qurban olsun, Adil balam... Vaxtsiz ölümun atanın belini qirdi. Heç toyunu görmədim... Allah böyükdur. Allah heç bir valideynə belə vaxtsız övlad itkisi göstərməsin...''-deyə D.Qüdrətov övladının ölümü ilə bağlı yazdığı statusda kədərini bölüşüb.

Allah rəhmət eləsin!

## Masallıda 17 yaşlı oğlan intihar etdi

**Masallıda intihar hadisəsi baş verib. Rayon prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə rayonun Ərəb kəndində qeydə alınıb. Kənd sakini, 1999-cu il təvəllüdlü Qismət Qasımov yaşadığı evdə özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.**

Faktla bağlı cinayət işi başlanıb, istintaq gedir.

## 5 yaşlı azərbaycanlı uşaq Kərbəlada öldü

**Azərbaycanlı uşaq İraqın Kərbəla şəhərində vəfat edib. Axar.az xəbər verir ki, bu barədə jurnalist Zahir Əmənov özünün facebook səhifəsində yazıb. Jurnalist bildirib ki, Masallı rayonun Ərkivan qəsəbə sakini Habil Rəhimov Kərbəlada ailəsi ilə olarkən 5 yaşlı qızı Zəhra dünyasını dəyişib. Z.Rəhimova Kərbəla şəhərində torpağa tapşırılıb.**

Uşağın günvurmadan öldüyü ehtimal edilir.

Onun sözlərinə görə, Z.Rəhimovanın atası Rəhimov Habil İltizam oğlu Suriyada dini təhsil alırmış. Suriyadakı məlum hadisələrdən sonra o, təhsilini Nəcəf şəhərində davam etdirib. Bu səfərdə də məqsəd H.Rəhimovun dövlət imtahanı verməsi ilə bağlı olub.

"Rəhmətə gedən Zəhra Habil Rəhimovun üç uşağından ortancılı idi. Valideynlərinin verdiyi məlumata görə, onun daha bir uşağı orada ağır xəstələnib", - Z.Əmənov deyib.

Jurnalist onu da qeyd edib ki, ötən həftə bu ailəyə daha bir ağır itki üz vermişdi. Habilin Ərkivanda yaşayan bacısı qızı qəfil xəstəlikdən 22 yaşında dünyasını dəyişmişdi.

## Ukraynada girov götürülən azərbaycanlılar azad olunub

**Ukraynada müxtəlif vaxtlarda girov götürülən azərbaycanlıların hamısı azad edilib. APA-nın əldə etdiyi məlumata görə, müvafiq qurumların birgə fəaliyyəti nəticəsində oğurlanan azərbaycanlıları mərhələ ilə azad etmək mümkün olub.**

Son iki il ərzində müxtəlif vaxtlarda girov götürülənlərin əksəriyyəti iş adamları, bir qismi isə iş adamlarının övladları olub.

Qeyd edək ki, bu ilin iyul ayında son iki il ərzində Ukraynada 20-dən çox azərbaycanlının girov götürüldüyü və ya itkin düşdüyü açıqlanmışdı.

Azərbaycanın Ukraynadakı səfirliyinin konsulluq məsələləri üzrə katibi Abbas Mustafayev APA-ya məsələ ilə bağlı Ukraynanın hüquq-mühafizə orqanlarına müraciət olunduğunu və bu ölkənin Daxili İşlər Nazirliyi tərəfindən hər bir fakt üzrə cinayət işi qaldırıldığını açıqlamışdı.

**Son zamanlar paytaxtda və ətraf ərazilərdə yerləşən iri marketlərə hər hansı bir paketlə girmək mümkün deyil. Mağazalarda buna nəzarət etmək üçün xüsusi işçilər də götürülüb. Həmin işçilər müştərilərə əllərində olan çantanı, paketləri, əşyaları mağazanın girişində olan müvafiq yerə (dolaba) qoymağı əmr edirlər. Məsələ də elə buradan başlayır.**

# Mağazanın girişindəki dolablar oğruların hədəfinə çevrilib?

## Marketlərdə vətəndaşların çantalarının saxlanması üçün yerlər güvənli deyil

Musavat.com-a daxil olan məlumata görə, son zamanlar bir çox mağazalarda məhz bu məsələ ilə bağlı problemlər yaşanır. Belə ki, müştərilər çanta qoyulması üçün ayrılmış dolabların bir çoxunda açar olmamasından şikayətçidirlər.

Şəhərdə supermarketlərdə olub, deyilən məsələ ilə maraqlandıq. Öyrəndik ki, gerçəkdən də bəzi mağazalarda müştərinin çantasını, əşyasını qoyduğu dolabların açarları yoxdur. Misal üçün, Qara Qarayev prospektində yerləşən "Araz" marketin girişində quraşdırılan bu kimi dolabların bir çoxunda açarın olmadığını müşahidə etdik. Mağazanın məsul şəxsləri bildirdilər ki, günah müştərilərdədir:

"Bəllidir ki, dolablar buraya qoyulan zaman hamısının üzərində açar olub. Ancaq bir çox hallarda müştərilər çantalarını götürdükdən sonra açarı da ciblərinə qoyub aparırlar. Yəni açarın olmamasının əsas səbəbi budur. Lakin buna baxmayaraq, dolablar mağazanın girişində qoyulduğu üçün hər hansı bir oğurluq halının olması mümkün deyil. Çünki girişdə quraşdırılan kamera həm də dolabları çəkir. Hər hansı bir hadisə baş verərsə, onu kamera vasitəsilə araşdırmaq olur. Bizdə hələ bu cür hadisə baş verməyib. Bundan başqa, mağazada nəzarətçilər, mühafizəçilər də var ki, onlar da buraya diqqət edirlər".

**Lakin müştərilər başqa fikirdədirlər. Onlar hesab edirlər ki, dolabların qapıya yaxın olması elə oğurluğa şərait yaradan amildir. Cavid Kərimov adlı Sumqayıt sakini bildirdi ki, bununla bağlı yaxınının başına hadisə də gəlib:** "Binəqədi rayonu, 9-cu mikrorayon ərazisində yerləşən "Gənclik" marketdə bu yaxınlarda mənim bir qohumumun başına belə bir iş gəlmişdi. Qohumum alış-veriş etmək üçün mağazaya girməzdən öncə çantasını girişdəki ayrılmış yerə qoyub. Ancaq açar olmadığı üçün qapını bağlaya bilməyib. Çıxanda isə görüb ki, çanta yerində yoxdur. Sonra mağazanın təhlükəsizlik kamerasına baxdıqda məlum olub ki, çantanı təxminən 30-35 yaşlarında olan bir oğlan götürüb. Yəni hesab edirəm ki, bu məsələyə xüsusi diqqət edilməlidir. Əgər edə bilmirlərsə, imkan versinlər camaat əlində olan çantasını özü ilə içəri keçirsin. Mağazada hesab edir ki, həmin adam çantasına ərzaq yığıb, oğurluq edə bilər. Deməli, mağaza öz malını qorumağı düşünür. Ancaq camaatın çantasının aqibəti onu maraqlandırmır. Deyirlər ki, nəzarət edirik. Bunu nisbətən kiçik mağazalarda edə bilərlər. Böyük supermarketlərdə nəzarətçilər insanları necə yadlarında saxlaya bilər ki? Həm də bunun açarı varsa, nə üçün kimsə nəzarət etməlidir? İnsanlarda da günah var ki, açarı aparırlar. Ancaq məhsulların qiyməti günbəgün qalxır. Camaatı da qınamalı deyil. Adam o qədər fikirli olur ki, evdən çıxanda ayaqqabısını geyinməyi unudur. Nəinki mağazadan çıxanda açar ola..."





**"Rahat" marketdə də eyni halın şahidi olduq. Burada dolabların bəzilərində heç açarın bağlanması üçün yer yox idi, sökülüb çıxarılmışdı. Mağazanın məsul şəxsləri bildirdilər ki, dolablar tez-tez təmir olunsa da müştərilər yenidən sıradan çıxarırlar: "Hətta elə hal olub ki, müştəri əşyasını götürüb, sonra qapını bağlayıb, açarı da qoyub cibinə çıxıb gedib. Əsasən aşağıda yerləşən gözlərin açarlarını götürüb aparırlar. Ancaq yenə də çalışırıq ki, təmir edək, düzəldək. Başqa yolumuz yoxdur".**

Bir məqam da var ki, bəzi mağazalarda müştəri bilavasitə dolabla təmasda olmur. Misal üçün, "28 Mall" ticarət mərkəzində yerləşən "Bazar store"da müştərilər çantaları mağazanın əməkdaşına verir, əməkdaş isə ona xüsusi nömrə təqdim edir. Müştəri çıxdığı zaman həmin nömrəni təqdim edərək, öz əşyasını geri alır. Beləcə, həm açar qorunur, həm də müştərinin əşyası.

❑ **Əli RAİS**

# Azərbaycanda insanlar niyə sığortalanmır?

## "Bizdə evlərin, daşınmaz əmlakların sığortasında belə çətinliklər var"

**2016-cı ilin yanvar-iyul aylarında Azərbaycanda fəaliyyət göstərən 25 sığorta şirkəti 325,34 milyon manat sığorta haqqı toplayıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 42,19 milyon manat (14,9 faiz) çoxdur. Bu barədə Maliyyə Bazarlarına Nəzarət Palatasının hesabatında məlumat verilib. Şirkətlər həmin dövr ərzində 119,03 milyon manat məbləğində sığorta ödənişi edib ki, bu da il ərzində 13,6 faiz artım deməkdir.**

Azərbaycanda avtomobildən başqa digər daşınmaz əmlakları, həyatını, sağlamlığını və s. sığorta etdirmək ənənəsi elə də inkişaf etməyib. İnsanlar sığortalanmağa maraq göstərməmələrinin səbəbini bəzən sığortadan pul ala bilməmələri və ya bu istiqamətdə çətinliklər çəkmələri ilə izah edirlər. Ancaq bir sıra sahələr var ki, orada sığorta məcburidir. Daha dəqiq desək, sığortanın iki növü mövcuddur: könüllü və icbari sığorta.

Mülkiyyətimizi sığortalayaraq dəyəcək ziyanı, riskləri azaltmaq könüllü sığorta adlanır.

Yetərincə maliyyə təminatı olmayan, həmçinin maddi təminatı aşağı olan şəxslərin sığortalanması ilə əhalinin maddi vəziyyəti uyğun olmadığından dövlət bəzi sahələrdə çalışan işçilərin şirkət tərəfindən sığortalanmasını tələb edir. Bu sığorta növü isə icbari sığorta adlanır. Azərbaycandan fərqli olaraq xarici ölkələrdə insanlar nəinki avtomobillərini, daşınmaz əmlaklarını, həyatını, hətta bədən üzvlərini sığortalatdırırlar. Bunu daha çox dünya şöhrətli ulduzlar etdirir. Məsələn, bədən əzalarının sığortalanması növü üzrə ən bahalı sığorta müğənni Meray Keriyə aiddir. O, ayaqlarını bir milyard dollar məbləğində sığortalatmaqla dünyanın ən bahalı sığortasını həyata keçirib. Almaniyalı top-model Haydi Klumun ayaqlarını 2 milyon 200 min dollara sığorta etdirib. Onun bir ayağının dəyəri o biri ayağından bahadır. Səbəbi isə bir ayağında çapığın olmasıdır. Məşhur idmançılar arasında da bu sığorta növündən istifadə edənlər var. Məsələn, futbolçu Devid Bekhem ayaqlarını 70 milyon dollara sığorta etdirib. Gülüşün sığortlalanması faktı isə kino aktrisası Amerika Ferrera məxsusdur. Onun gülüşünün sığorta qiyməti 10 milyon dollar dəyərindədir. Azərbaycanda isə ilk dəfə olaraq ölkəmizi "Eurovision-2011" musiqi yarışmasında təmsil edən Nigar Camalın üzü sığorta etdirilib. Bir sığorta şirkəti tərəfindən Nigar Camalın üzü 1,5 milyon manat məbləğində sığortalanıb. Həmin vaxt risklərin 50 faizdən çox hissəsi Almaniyanın "Hannover Life Re" təkrar sığorta şirkətinə ötürülüb. Dünya ölkələrində ağla belə gəlməyən qəribə sığorta növləri də mövcuddur. Məsələn, əvəzedilməz işçinin sığortası. Xüsusi əhəmiyyət kəsb edən vacib işçiləri itirmək şirkət üçün katastrofik ola bilər və onların əvəz olunmaları da çox çətindir. Bunun qarşısını almaq, ən azından belə əvəzedilməz işçinin itirilməsindən yaranacaq potensial riskləri azaltmaq üçün bəzi şirkətlər onları sığortalayırlar. Qəribə olsa da, lotereyada iri məbləğ udmaqdan sığortalanma da mövcuddur. Bəzi ölkələrdə şirkətlər işəgötürənlərə onların 2 və daha çox işçisinin lotereyada böyük məbləğdə pul udmaq riskinə qarşı sığorta təklif edir. O məntiqlə ki, lotereyada iri məbləğ udan işçilərin işləməkdən imtina etməsi mümkündür. Buna görə də şirkətlər belə işçilərini iri lotereya uduşundan sığortalayırlar.



Azərbaycanda "Sığorta haqqında" Qanunda deyilir ki, sığorta müqaviləsi sığorta olunanla sığortaçı arasında sazişdir. Bu müqaviləyə görə, sığortaçı sığorta hadisəsi zamanı sığorta olunana və ya xeyrinə sığorta müqaviləsi bağlanmış digər şəxsə sığorta ödənişi verməyi, sığorta olunan isə müəyyənləşdirilmiş müddətlərdə sığorta haqqı ödəməyi öhdəsinə götürür. Sığorta müqaviləsində tərəflərin razılaşmasına əsasən başqa şərtlər də qoyula bilər. Deməli, sığorta vətəndaşın xeyrinə olan aktdır. Amma əksəriyyət insanların sığorta şirkətlərinə inamı azdır.

**İqtisadçı ekspert Vüqar Bayramov evlərin, daşınmaz əmlakların sığortasında çətinliklər olduğunu dedi:** "Azərbaycanda icbari və könüllü sığorta tətbiq edilir. İcbari sığorta avtomobil və əmlakın sığortasıdır ki, vətəndaş onları icbari şəkildə sığortalayır. Eyni zamanda avtomobil sürücülərinin icbari sığortası həyata keçirilir ki, bu da sürücülərin daha yaxından bələd olduğu sığorta növüdür. İcbari sığortada avtomobil sığortasında elə də çətinliklər yoxdur. Çünki burada dövlət yol polisi əməkdaşları tərəfindən nəzarət mexanizmi var. Sığorta olunmayan avtomobillərə cərimə tətbiq olunduğu üçün demək olar ki, sürücülərin əksəriyyəti öz avtomobillərini sığorta etdirirlər. Amma evlərin, daşınmaz əmlakların sığortasında çətinliklər var. Bu çətinliklər xüsusi nəzarət mexanizmlərinin olmaması ilə bağlıdır. Nəzarət mexanizmləri zəif olduğu üçün vətəndaşların ödəmə qabiliyyətləri də zəifdir. Nəticədə icbari sığorta olmasına baxmayaraq bu sığortanın reallaşmasında problemlər var. Könüllü sığorta çox təəssüf ki, zəif inkişaf edib, bunun ciddi inkişaf etdiyini, geniş yayıldığını söyləmək çətindir. Bu bir az da sığorta sisteminin yüksək səviyyədə olmaması ilə bağlıdır. Sığorta sistemi yüksək olmadığı üçün vətəndaşlar və sahibkarlar sığorta olunmaqda maraqlı deyillər. Çünki bəzi hallarda hansısa bir hadisə baş verən zaman sığortanı almaqda çətinlik çəkirlər. Ödəmə qabiliyyətinin də aşağı olması sığortaya olan marağın azalmasına səbəb olub".

**V.Bayramov 14 faiz artımın hansı dövrə aid olmasının böyük əhəmiyyət kəsb etdiyini dedi:** "Təbii ki, 14 faiz artımın hansı dövrə aid olması önəmlidir. İllik olaraq 14 faiz artımdırsa, bunu müsbət qiymətləndirmək olar. Amma rüblər üzrə 14 faiz artım olubsa, bu təbii ki, müqayisə baxımından çətinlik yaradır. Amma bütün hallarda reallıq bundan ibarətdir ki, sığorta sistemi yüksək deyil. Könüllü sığorta edənlərin sayı çox deyil. Amma nəticədə bu gün biz sığortanın daha çox icbari, yəni məcburi formasının Azərbaycanda inkişaf və tətbiq edilməsini müşahidə edirik".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

Son səhifə

*N 194 (6515) 2 sentyabr 2016*




## Təzyiqiniz varsa, yaddaşınızla sağollaşın

**Amerikada aparılan araşdırmalar nəticəsində məlum olub ki, 40 yaşına çatmış yüksək qan təzyiqindən əziyyət çəkən insanlar müalicə edilmədikləri halda 20 il sonra yaddaşlarını itirməyə başlayırlar.**

Mütəxəssislər 20 il ərzində 48-67 yaşlı 14 min adam üzərində araşdırma aparıblar. 40 yaşların yüksək təzyiqdən əziyyət çəkən insanlar 60 yaşlarından sonra yaddaşlarını itirməyə başlayırlar. Lakin qan təzyiqi zamanında müalicə edildiyi zaman insan orqanizmi üçün heç bir problem yaratmır.

## İçməmiş sərxoşdur...

**ABŞ-da yaşayan kişi spirtli içki içməsə də, sərxoş olur. 61 yaşlı kişinin mədəsi öz-özündən spirt ifraz edir. Qanında 0,37 faiz spirt çıxan kişi alkoqollu içki qəbul eləməsə də, özünü sərxoş hiss etdiyini deyir.**

Həkimlər adı açıqlanmayan kişini 24 saat nəzarət altında saxlayıblar. Gün ərzində pəhriz yeməkləri yeyən və yalnız su içən kişi nəzarət müddəti bitdikdən sonra da sərxoş olur. Həkimlər onun bütün vaxt sərxoş olduğunu və xəstəliyinin çarəsinin olmadığını bildiriblər. Onun bədənindəki spirtin azalması üçün davamlı makaron, çörək, balıq, toyuq, kartof və pomidor yeməli olduğunu deyiblər. Əgər bu yeməklərdən başqa bir şey yeyərsə, bədənindəki spirtin miqdarı yenə artacaq.

# Yuxu dərmanı yuxu gətirir, amma...

**ABŞ-dakı Harvard Universiteti ilə Fransadakı Bordeaux Universiteti ortaq bir araşdırma aparıb. Araşdırma nəticəsində müəyyən edilib ki, yuxu dərmanları insanlarda yaddaş, davranış pozğunluğu, özünü idarə etmə çətinliyi yaradır.**



Araşdırma 70-78 yaşındakı, bu xəstəliyə hələ tutulmamış 1063 nəfər üzərində aparılıb. Məlum olub ki, yuxu dərmanı qəbul edən insanlarda bu cür hallar 15 il içində 50 faiz artıb. Alimlər hesab edir ki, bunun səbəbi yuxu dərmanlarının yan təsirlərində ola bilər.

# Kofe içənlərin gözü yaxşı görür

**Kofe görmə qabiliyyətini qorumağa kömək edir. Bu içkinin tərkibindəki kimyəvi birləşmələr qlaukoma xəstəliyi olanlarda tor qişanı qoruyur. Nyu-Yorkun Kornella Universitetinin el adamları iddia edirlər ki, kofe öz antioksidant tərkibinə görə qlaukoma ilə effektiv mübarizə aparır. Bu içkidə xlorgenik turşu və kofe turşusunun mürəkkəb efiri 7-9 faizdir. Kofenin tərkibində kofein cəmi 1 faizdir.**

Xlorgenik turşu görmə zəifləyəndə və tor qişanın deqenerasiyasında faydalıdır. Bundan başqa, antioksidantlar qocalma prosesini ləngidir və diabetlə mübarizədə faydalıdır.

Təcrübə həmişəki kimi siçanlar üzərində aparılıb. Alimlərin fikrincə, qlaukomadan əziyyət çəkənlər üçün gündə bir fincan kofe kifayətdir ki, effektivliyi hiss etsinlər.

Bundan öncə də kofenin Parkinson xəstəliyindən qoruduğu ortaya çıxıb.






## İnsan beyni 24 yaşda super işləyir

**Kanadalı alimlərin araşdırmaları nəticəsində məlum olub ki, insan beyni 24 yaşda daha yaxşı işləyir. Bu yaşda beyin məntiqi baxımdan çox sürətlə işləyir və insan daha asan qərar verə bilir. Simon Fraser Universitetinin professorları 24 yaşdan sonra beynin daha az çalışdığını, lakin qısa müddət ərzində səhvlərini düzəltdiyini deyiblər.**

Müəyyən yaşdan sonra beyin daha dəqiq qərarlar çıxarmaq üçün asan və qısa yollara əl atır. Mütəxəssislər beynin fəaliyyətinin nə vaxt azaldığını öyrənmək üçün 3 min 505 nəfərə kompüter oyunu oynadıblar. Nəticədə məlum olub ki, beynin düşünmə və qərar çıxarma sürəti 24 yaşdan sonra azalır. Lakin nisbətən yavaş işləyən beyinlər də vəziyyətdən çıxmaq üçün xüsusi sxemlə çalışırlar.




**QOÇ** - Axşam saat 18-ə qədər ümumi vəziyyət xeyrinizədir. Nüfuzlu adamlarla görüşləriniz müsbət nəticə verəcək. Amma ixtiyarınızda olan bu ərəfədə hisslərinizi də cilovlamalısınız.

**BUĞA** - Bir qədər gərgin gün yaşamalı olacaqsınız. Amma maraqsız proseslərə müdaxilə etməsəniz, bunun qarşısını az da olsa, ala biləcəksiniz. Əsəblərinizi qoruyun. Axşamsa qonaq gedin.

**ƏKİZLƏR** - Göy qübbəsi işdən kənarda hansısa uğura yiyələnəcəyinizə təminat vermir. Əksinə, yersiz mübahisələr, ifrat yorğunluq ovqatınızı korlaya bilər. Diqqəti ailə-sevgi münasibətlərinə yönəldin.

**XƏRÇƏNG** - Sağlıq durumunuza diqqət yetirsəniz, gün ərzində hansısa xoşagəlməzliklə rastlaşmayacaqsınız. Günün ikinci yarısında aldığınız hər bir işgüzar təklifə razılıq verin.

**ŞİR** - Rastlaşacağınız hadisələr daha çox öz rəftar və gedişlərinizdən asılı olacaq. Belə bir ərəfədə hansısa risk uğursuzdur. Əgər planlaşdırmısınızsa, bu gün mütləq səfərə çıxın.

**QIZ** - Hər mənada əhəmiyyətli gündür. İstər fəaliyyət göstərdiyiniz sahələrdə, istərsə də qarşılıqlı münasibətlər zəminində uğurlarınız gözlənilir. Yalnız pulla bağlı qanqaraçılıq mümkündür.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə sizə əsəb gətirən adamlardan uzaq olmalısınız. Yoxsa bu hal bütün maddi-mənəvi sərvətlərinizi tari-mar edəcək. Günortadan sonranı sevgiyə həsr edin.

**ƏQRƏB** - İş metodunuzda yenidənqurma aparmağa səy göstərin. Bununla siz gələcək perspektivlərinizə işıq saça bilərsiniz. Səmərəsiz iş prinsipindən qaçın. Nahardan sonra təzə xəbər eşidəcəksiniz.

**OXATAN** - İşgüzar görüşlər keçirmək üçün çox səmərəli vaxtdır. Ona görə də bütün enerji və diqqətinizi məhz bu istiqamətə yönəltməlisiniz. Maliyyə sövdələşmələrinə isə girişməyin.

**OĞLAQ** - Təlatümlü gün olmasa da, mülayimlikdən də əcər-əlamət olmayacaq. Odur ki, riskdən və həyatınız üçün önəmli olmayan məsələlərdən uzaq durmalısınız. Məsləhətləşmələrdən yayınmayın.

**SUTÖKƏN** - Təxminən saat 13-ə qədər xoşagəlməz işlərə cəlb oluna bilərsiniz. Buna baxmayaraq belə hallarda öz mənafelərinizi qorumalısınız. Nahardan sonra bəxtinizin gətirəcəyi gözlənilir.

**BALIQLAR** - Ulduzlar taledən gileylənməyinizə heç bir əsas görmür. Çünki ixtiyarınızda olan bu təqvim sizə olduqca xoş ovqat bəxş edəcək. Məhəbbət amili isə başlıca xilas mənbəyinizə çevriləcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yalanı tutmağın ideal yolu

**İngilis psixoloqlar sevgilisinə (həyat yoldaşına) yalan danışan adamların psixologiyası ilə bağlı maraqlı araşdırma aparıb. Alimlərin fikrincə, sevdiyiniz adamın yalan danışdığını düşünürsünüzsə, heç vaxt itirmədən ona bu sualları verin: niyə elədin? Əgər sevdiyiniz bu suala hirslənib, həddən artıq gərgin reaksiya verəcəksə, bu, onun məsum olduğunu sübut edir.**

Yox, əgər sualınıza cavab olaraq sizi nə qədər çox sevdiyini, sizə dəyər verdiyini deyirsə, bu, artıq aldatmanın sübutudur. Bundan başqa, əgər sevgiliniz sizinlə bir yerdə ikən gülümsündüyü halda, bədən dili başqa şeylər deyirsə, bu, onun yalan söylədiyinin sübutudur. Bundan başqa, yalan danışan adamlar yalanlarını gizlətmək üçün çox cəhd göstərməyə məcburdurlar. Buna görə də narahat görünən adamların yalan söyləmə ehtimalı özünü rahat aparan adamınkından daha yüksəkdir. "American Society for Information and Technology" jurnalında yer alan məqalədə o da göstərilib ki, yalan danışdığından şübhələndiyin adamla telefon və ya sms vasitəsilə yox, üz-üzə ünsiyyət qurmaq daha məsləhətdir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750